www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 noyabr 2015-ci il Çərşənbə № 262 (6290) Qiymətı 40 qəpik

**Xəbər**

## Manata dekabr təhlükəsi- devalvasiyaya üç mühüm səbəb

yazısı səh.15-də

**Gündəm**

### Yeni parlament ilk iclasını keçirdi



Milli Məclisin sədri və müavinləri dəyişmədi; parlament komitələrinin sayı isə artırıldı; 3 rektor-deputat komitə sədri seçildi

yazısı səh.9-da

*Ərəstun Oruclu:*

### "Bildiklərimin bir çoxunu deməmişəm"

yazısı səh.13-də

### YAP həbs edilənlərin niyə partiyadan çıxarılmamasına izahat verdi

yazısı səh.5-də

### Konstitusiya Məhkəməsi seçkinin nəticələrini təsdiqlədi-müxalifət nə deyir?

yazısı səh.7-də

### Eldar Mahmudovun həyat yoldaşı istefa verdi

yazısı səh.3-də

### ABŞ-Azərbaycan münasibətlərində buzlar əriyir

yazısı səh.7-də

### Erməni işğalındakı Sərsəng: əhəmiyyəti və təhlükəsi...

yazısı səh.12-də

### Baş nazirin soyad müəmması

yazısı səh.13-də

### Bank borcuna görə özünə od vuranın vəziyyəti ağırdır

yazısı səh.14-də

### Rusiya İŞİD-i Xəzərə gətirir: Bakı da təhlükədə

yazısı səh.11-də

### Türkiyə Rusiyanın qırıcısını vurdu-iki ölkə qarışdı

yazısı səh.4-də

### "Qaz OPEK"-i, yoxsa anti-Qərb təşkilatı?

yazısı səh.12-də

### Ərdoğan kürəkənini nazir təyin etdi

yazısı səh.4-də

**Xüsusi İdarənin polkovnikindən yeni sensasion açıqlamalar**

# "18 MİLYARD İNQİLAB PULU"NUN SƏNƏDLƏRİ ÜZƏ ÇIXDI - ŞOK TƏFSİLAT

Sabiq təhlükəsizlik zabiti "bu işin içində 7-8 nazir", var deyir; məsələyə AZAL prezidentinin də adı qarışıb; Eldar Mahmudovla Cahangir Hacıyevi İsveçrədəki "JBS" bankının İdarə Heyətinin erməni əsilli rəhbəri ilə nə bağlayır?




yazısı səh.10-da

## Yeni "qaz savaşı"nın fitili çəkildi - Azərbaycan da, Ermənistan da oyunda

Putinin İranda erməni qaz kəmərini də müzakirə etdiyi iddiası var; Rusiya xarici işlər nazirinin bu gün başlayan Türkiyə səfəri təkcə Suriya böhranı ilə bağlı deyil...

yazısı səh.8-də



### Pənah Hüseyn qohumlarına olan ittihamlardan danışdı

yazısı səh.6-da



### Fazil Mustafa "AXCP ölmüş partiyadır", dedi

yazısı səh.5-də



### Cahangir Hacıyev restorana və bazarlığa 1 milyondan çox pul xərcləyib

yazısı səh.5-də

Pərviz Həşimli

# MTN-in saytı yenilənir



**Milli Təhlükəsizlik Nazirliyinin saytına girişdə problem var. Saytdakı məlumatlarla tanış olmaq istəyənlər "Sayt yenilənir" sözlərini görürlər. Belə məlumallar var ki, saytda eks-nazirlə əlaqəli məlumatların yenilənməsi həyata keçirilir.**

Qeyd edək ki, oktyabrın 17-də prezident İham Əliyevin sərəncamı ilə Eldar Mahmudov milli təhlükəsizlik naziri vəzifəsindən çıxarılıb. Bu günə qədər də nazir postuna təyinat olmayıb. Prezidentin digər sərəncamı ilə qurumda 1-ci müavin postu yaradılıb və Penitensiar Xidmətin rəis müavini Mədət Quliyev həmin vəzifəyə təyinat alıb.

❑ E.MƏMMƏDƏLİYEV

# "Hamı ömrü boyu deputat ola bilməz ki?!




**Noyabrin 24-də V çağırış Milli Məclisin ilk sessiyası keçirilib. İclasda parlamentin yeni tərkibinə daxil olan deputatlara mandat və deputaın döş nişanı verilib. Onların arasında köhnələrlə yanaşı, yenilər də var.**

Modern.az saytı Milli Məclisə növbəti dəfə mandat ala bilməyən eks-deputatlardan hansı hisslər keçirdiklərini soruşub.

**Elton Məmmədov** bundan sonra da hər şeyin daha da yaxşı olacağını deyib:

"V çağırış Milli Məclisin ilk iclası keçirildi. Birincisi, qürur hissi keçirdim ki, dövlətimiz qurulur, inkişaf edir. Həmçinin, seçkilər demokratik prinsiplərə uyğun baş tutub. Artıq Konstitusiya Məhkəməsi bu hüququ tanıdı. Düşünürəm ki, V çağırışın ilk iclasında cənab prezidentimizin tövsiyə xarakterli çıxışı parlamentimizin zəngin qanunvericiliyinə xidmət edəcək, yaxşı qanunlar qəbul ediləcək, qanunlarımız təkmilləşəcək. Beləliklə, qüdrətlənən Azərbaycanımız daha da qüdrətlənəcək".

**Ədalət Partiyasının sədri İlyas İsmayılov qanuni hakimiyyətin tərəfdarı olduğunu vurğulayıb:**

"Həyat davam edir. Mən də həyatımı yaşayıram. Hamı ömrü boyu deputat ola bilməz ki?! Sadəcə, saxtakarlıq yolu ilə mənim deputat seçilməyimin qarşısını aldılar. Qanunsevər adamam. İstərdim ki, Azərbaycanda qanuni hakimiyyət olsun. Deputatlar da, bütün vətəndaşlar da qanunlara tabe olsunlar. Hansısa məmurun iradəsi problemləri həll etməsin".

**Aydın Abbasov isə deputatlığın şərəfli olduğunu deyib:**

"Yeni deputatların hamısını təbrik edirəm. Uğurlu olsun. Səbirli olsunlar və xalq, dövlət naminə çalışsınlar. Deputatlıq çox şərəfli işdir. Onlara uğurlar!"

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!
- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Mesavat" - 0.40 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Azərbaycandan Ukraynaya uzanan adam oğurluğunun şok təfərrüatları

## Fərid adlı tələbə 350 min dolların müqabilində azad olunub; digər azərbaycanlının isə taleyindən xəbər yoxdur

**Xəbər verdiyimiz kimi, Donetsk Azərbaycanlıları Konqresinin sədri Malik Pirverdiyevin oğlu Cəlal Pirverdiyev bu ilin oktyabrında naməlum şəxslər tərəfindən oğurlanıb. Bu haqda Ukrayna KİV-ində yayılan məlumatlarda bildirilirdi ki, C.Pirverdiyevlə yanaşı digər bir şəxs də oğurlanıb.**



Ukrayna Azərbaycanlı Gənclər Birliyinin Donetsk Vilayət təşkilatının sədri Cəlal Pirverdiyev oktyabrın 13-dən 14-nə keçən gecə Kiyevdə müəmmalı şəkildə naməlum şəxslər tərəfindən oğurlanıb. Bununla bağlı artıq Ukraynanın hüquq-mühafizə orqanlarına müraciət edilib. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

M.Pirverdiyevin oğlu oğurlanandan sonra bu fakt ictimaiyyətdən gizli saxlanıb, yalnız onun itkin düşdüyü barədə informasiyalar verilmişdi. Bildirilirdi ki, M.Pirverdiyevin oğlu Camal Pirverdiyev 1993-cü ildə anadan olub, 22 yaşı var, sosial şəbəkələrdə fəal olub və komfort həyat tərzini nümayiş etdirməyi çox xoşlayıb.

İnternetdə axtarışlar zamanı hətta C.Pirverdiyevin Ukraynada söz-söhbətə səbəb olan bir neçə hadisədə iştirakı ilə də rastlaşmaq mümkündür.

Ukrayna internet saytlarında C.Pirverdiyevin 2015-ci il, oktyabrın 14-də itkin düşdüyü barədə informasiyalar yer alıb. Bildirilir ki, M.Pirverdiyev Donetskdə nüfuzlu azərbaycanlı iş adamlarındandır. Onun oğlunun Azərbaycanda cəza çəkən "qanuni oğru"nun adamları tərəfindən oğurlandığı da iddia olunur.

Digər oğurlanmış şəxsin kimliyi, onun ailəsi haqda isə çox məhdud məlumat var. Həmin məlumatda bildirilirdi ki, oğurlanan bir iş adamının oğludur və Ukraynada təhsil alıb. Tələbə gəncin buraxılmasından ötrü yaxınlarından 1 milyon dollar "xərac" tələb olunur.

"Yeni Müsavat"a daxil olan məlumata görə, oğurlanan Fərid adlı tələbədir. O, Ukrayna Tibb Universitetinin 4-cü kursunda oxuyub. Atası tanınmış diş həkimidir. Belə məlumatlar da var ki, Fəridin atası oğlunu 350 min dollar müqabilində azad etdirə bilib. Fəridin atasının Ukrayna ilə yanaşı Azərbaycanda fəaliyyət göstərən klinikalardan birində çalışması haqda da məlumat var.

Qeyd edək ki, Rusiya Daxili İşlər Nazirliyinin (DİN) Cinayət Axtarış Baş İdarəsi və "Vaşaq" xüsusi çevik dəstəsinin əməkdaşları adam oğurluğu, soyğunçuluq və zorakılıq əməllərində şübhəli bilinən etnik mütəşəkkil qrupun 3 üzvünü yaxalayıb. Şübhəli şəxsləri hazırda Azərbaycanda cəza çəkməkdə olan "qanuni oğru"nun idarə etdiyi bildirilir.

**Mövzuya qayıdacağıq.**

❑ E.HÜSEYNOV



# Çingiz Əsədullayev: "Heç vəhhabiyə oxşayıram?!"

**Bir çox KİV-lər sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun Qafqazda, o cümlədən Azərbaycanda vəhhabiliyi (sələfi cərəyanını) yayan Küveyt xüsusi xidmət orqanları ilə əlaqələrindən bəhs edərkən sabiq deputat, "Azəriqazbank"ın rəhbəri Çingiz Əsədullayevin də adını hallandırıb.**

Mətbuat yazır ki, Ç.Əsədullayev burada xüsusi missiyaya malik olub. İddialara görə, E.Mahmudov Küveytə səfər edərkən Ç.Əsədullayev də onu müşayiət edib. Yazılanlara görə, E.Mahmudov Küveytin maliyyə dəstəyi ilə vəhhabilərin Azərbaycandakı lobbiçisi kimi çıxış edib, Ç.Əsədullayev isə bu işdə ona kömək edib.

Ç.Əsədullayev isə virtualaz.org saytına açıqlamasında bu iddiaları əsassız adlandırıb.

"Gör heç mən vəhhabiyə oxşayıram?! Bu uydurma fikirləri qətiyyətlə rədd edirəm. Mən 10 il Böyük Britaniya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri olmuşam. Avropa istiqamətində işləmişəm. Küveytlə heç bir əlaqəm olmayıb" - deyə Ç.Əsədullayev bildirdi.

**Sabiq deputatın sözlərinə görə, o, Küveytdə cəmi bircə dəfə olub, onda da Milli Məclisin nümayəndə heyətinin tərkibində:** "Deputatlar Əli Hüseynli və Fuad Muradov da həmin heyətdə idi. Korrupsiya ilə mübarizə üzrə beynəlxalq konfransa getmişdik. Burada hansı dini məzmunlu məsələdən söhbət gedə bilər? Bu cəfəngiyyatı mətbuatda niyə yaydıqlarını anlaya bilmirəm. Bu qüvvələr ağ yalanı yaymaqda hansı məqsədləri güdürlər?"



# Gürcüstandan avtomobil alışı 80% azaldı

**Bu ilin yanvar-oktyabr aylarında Gürcüstandan Azərbaycana 57 759,4 min dollar dəyərində 3 225 ədəd minik avtomobili ixrac olunub.**

Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 12 678 ədəd avtomobil və ya 79,7% azdır.

Moderator.az xəbər verir ki, bu barədə məlumat Gürcüstan Statistika Komitəsinin cari ilin yanvar-oktyabr ayları üçün açıqladığı hesabatda deyilib.

Qeyd edək ki, ötən ilin anoloji dövründə Azərbaycana Gürcüstandan 231 milyon 942 min dollar dəyərində, 15 903 minik avtomobili idxal olunmuşdu.

Onu da əlavə edək ki, Azərbaycan Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, bu ilin yanvar-oktyabr aylarında ümumilikdə Azərbaycanda 24 219 avtomobil gətirilib. Gürcüstandan ölkəmizə gətirilən avtomobillərin sayı isə bu rəqəmin 13,31%-nə bərabərdir.

# ABŞ-ın 1992-ci ildən Azərbaycana etdiyi yardımın həcmi açıqlanıb



**"1993-cü ildən ABŞ Azərbaycana humanitar yardım layihələri və qaçqınların yaşayış səviyyəsinin yüksəlməsi üçün 115 milyon dollar maliyyə ayırıb. 1992-ci ildən ABŞ tərəfindən Azərbaycana ayrılan yardımın həcmi 1,1 milyard dollar təşkil edib".**

APA-nın məlumatına görə, bunu ABŞ Dövlət Departamenti Avropa və Avrasiya ölkələrinə yardımlar üzrə koordinatoru Alina Ramanovski deyib.

Onun sözlərinə görə, ABŞ-ın Azərbaycana əşya, geyim və qida məhsullarından ibarət yardımı 220 milyon dollar dəyərində qiymətləndirilir.

"ABŞ 1992-ci ildən ANAMA-ya 30 milyon dollar ayırıb. Bu vəsait hesabına 500 minə yaxın mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. ABŞ-ın Azərbaycana yardımlarının əsas məqsədi Azərbaycan hökumətinə qarşıya qoyduğu məqsədlərə çatmaqda yardım etmək, iqtisadiyyatı diversifikasiya etmək və özəl sektoru inkişaf etdirməkdir", - deyə o vurğulayıb.

A.Ramanovski bildirib ki, USAİD-in Azərbaycanda kənd təsərrüfatı sahəsindəki fəaliyyəti nəticəsində irəliləyiş əldə olunub. O qeyd edib ki, nar istehsalı 57, digər istehsal sahələri isə 12 faiz artıb: "Fermerlərə yardım nəticəsində nar ixracı 55, qoz ixracı isə 68 faiz artıb".

Amerikalı diplomat onu da əlavə edib ki, ABŞ həmçinin Azərbaycana demokratiya və insan haqları sahəsində yardımlar edib. "İnsanların yerli hakimiyyət orqanları ilə münasibətlərinin formalaşması və dialoqu məqsədi ilə 39 layihə həyata keçirilib", - deyə o bildirib.

# Gömrükdə qara kürü məsələsinə aydınlıq gətirildi

**Dövlət Gömrük Komitəsi Azərbaycandan Rusiyaya səyahət edən Azərbaycan vətəndaşının Rusiya ərazisinə 6.4 kq kürü keçirmək istəməsi və "qanunsuz daşınan kürü"nün Məhərrəmkənd gömrük-keçid məntəqəsində aşkar edilməsinə münasibət bildirib.**

Komitədən verilən məlumata görə, əslində bu fakt öncə ölkəmizin gömrük orqanları tərəfindən qeydə alınıb və adıçəkilən mal Azərbaycandan Rusiyaya deyil, əks istiqamətdə daşınarkən aşkar edilib.

Belə ki, 15 noyabr 2015-ci il tarixində Azərbaycan vətəndaşı Pənahov Səlim Mirzəgül oğlu Rusiyadan Azərbaycana gələrkən Xaçmaz Gömrük İdarəsinin "Samur" gömrük-keçid məntəqəsində özünə məxsus əşyaların arasında 6.5 kiloqrama qədər nərəcinsli qara kürü olduğunu bəyan edib. Lakin gömrük nəzarəti həyata keçirilərkən qara kürüyə oxşar həmin məhsul müvafiq sənədləri qaydasında olmadığı üçün geri qaytarılıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Müxalifət heç vaxt indiki qədər pərakəndə və zəif olmayıb"

## Zahid Oruc: "Parlamentdə etimadı doğrultmayanlar həmişə olub"

**Parlamentin ilk iclasından sonra musavat.com-a açıqlama verən deputat Zahid Oruc maraqlı fikirlər söyləyib. Əməkdaşımız öncə ondan parlamentin ilk iclasına münasibətini öyrənib. O, geniş təhlili fikirlərini sonra yazacağını, lakin bir çox qərarlara, xüsusilə də yeni komitələrin formalaşdırılmasına müsbət yanaşdığını söylədi. Vaxtilə bununla bağlı ayrıca təşəbbüslə çıxış etdiyini vurğuladı, lakin bəzi məsələlərdən narazılığını da gizlətmədi.**

**O, ilk növbədə Milli Məclisin siyasi spektrinə qiymət verərək bunları söylədi:** "Cənab prezident dünyanın indiki mürəkkəb şəraitində hökumətlərin və parlamentlərin vəzifəsinə dair çox prinsipial və açıq fikirlərlə dolu olan bir çıxış etdi. Bunları birinci şəxsin dilindən eşitmək çox əhəmiyyətli idi. Ona görə ki, beynəlxalq qeyri-sabitlik hər bir ölkənin bir nömrəli probleminə çevrilib və istənilən hakimiyyət orqanı bu faktı nəzərə almadan çalışa bilməz".

**Daha sonra deputat Məclisin hazırkı palitrasına nəzər salaraq bunları söylədi:** "Parlamentin siyasi konfiqurasiyası ölkəmizin hazırkı qüvvələr nisbətinə uyğundur. Qanunverici orqanda müxtəlif partiyalar təmsil olunsa da, bu seçkilər prezidentin siyasi kursuna növbəti etimad aksiyasına çevrildi. Doğrudur, müxalifət Azərbaycanın müasir tarixində heç vaxt indiki qədər pərakəndə və zəif olmayıb. Ona görə də seçkilər istər küçə və meydanlarda, istərsə də efir məkanında qarşılıqlı toqquşmalar və siyasi təlatümlərlə müşayiət olunmadı. Bu seçkilərin ən böyük nəticələrindən biri xalqın inqilabi ssenarilərə "yox" deməsiydi. Düzdür, bu il beynəlxalq dairələrin seçki prosesinə kəskin müdaxiləsinin qarşısı alınsa da, xarici təzyiqlər keçmiş dövrə nisbətən daha kəskin və genişmiqyaslı idi. Bununla belə, ölkəmizi siyasi izolə etmək və parlamentin üstündə dövlətimizlə ələqələri durdurmaq xəttini heç bir təşkilatın seçməyəcəyi də əvvəlcədən proqnozlaşdırılırdı. Çünki dünya və Cənubi Qafqaz regionu maraqlar uğrunda amansız mübarizələrə səhnədir və heç kəs Azərbaycanı itirmək istəmir. Ona görə də spiker və onun müavinlərinin kimliyi müstəsna olaraq seçkilərdə qalib gəlmiş partiyanın lideri kimi ölkə başçısının qərarıdır. Yəni əslində seçkilərdə qələbə konkret isimlərə və müxtəlif siyasi mənsubiyyətli şəxslərə deyil, prezidentə məxsusdur. İnsanlar hətta bəzən tənqidlə yanaşdığı namizədi yalnız qeyd etdiyimiz rəhbər amilinə görə qəbul ediblər. Ona görə də parlamentin rəhbərliyinin necə formalaşması sualında başlıca məqsəd Milli Məclisdəki işlək mexanizmi qoruyub saxlamaq, müxtəlif amillər üzrə qurulmuş siyasi elitanın monolitliyini pozmamaqdır. Həmin kriteriyadan çıxış edərək, Oqtay Əsədovun ötən illər ərzində prezidentə və dövlətə sədaqətlə çalışdığını inkar etmək mümkün deyil. Bir də ki, ən önəmlisi, qanunverici orqanı birinci şəxsin yürütdüyü siyasi xəttin hüquqi və siyasi yardımçısına çevirməkdir. Lakin bunu geniş müzakirə mühiti ilə, canlı diskussiyalarla və hökumətə sağlam nəzarət funksiyası ilə reallaşdıranda dövlətin orqanizmində "MTN" kimi şişlər formalaşa, yaxud yaransa da geniş şaxələnə bilmir".



Zahid Oruc

**Zahid Oruc qeyd etdi ki, digər vəzifələrə təyinat alanların buna layiq olub-olmadığını müzakirə etmək istəyənlər iki məqamı nəzərə almalıdırlar:** "Milliətimiz üçün mühüm dönəmlərdə onlar aktiv bir şəkildə meydanda bütün riskləri öz üzərlərinə götürərək dövlətin qoruyucu zirehinə çevrilirlərmi? Bir qismi xeyr. Biz bunu prinsipial mövqe tələb olunan dövrlərdə çox görmüşük. Cənab prezident Milli Ensiklopediyaya həsr olunmuş müşavirədə elə mövqesizlərə münasibətdə "mən hakimiyyətə gəlməsəm, orada nələr yazacağınızı təxmin etmək çətin deyil" şəklində kəskinliklə ifadə etmişdi. İkinci, konyukturadan uzaq dayanaraq təmsil etdikləri insanlarla hakimiyyət arasında etibarlı körpü olmağa və ölkə başçısının yürütdüyü siyasəti uğurla təqdim etməyə, onun intellektual komanda üzvünə, təbliğatçısı və təşviqatçısına çevrilməyə çalışırlarmı? Hər kəsin cavabından asılı olaraq deyə bilərik ki, hazırda parlamentdə formalaşan bütün vəzifə bölgüləri zamanın çağırışlarına və ictimai-siyasi dəyişikliklərə, beynəlxalq aləmdə tüğyan edən müharibə və terror risklərinin yaratdığı konyukturaya, sönən neft bumunun gerçəklərinə hansı səviyyədə uyğundur. Hər halda, qiyməti hər gün aşağıya düşən neft kotirovkaları həmin resursa malik ölkələrin hamısında güclü siyasi komandalar ehtiyacını üzə çıxarıb. Söhbət bütün hakimiyyət qollarına nəzarəti konstitusiya çərçivəsində həyata keçirən və xəyanətdən uzaq olan komandalardan gedir".

# Rusiyanın böyük Türkiyə yanlışı




Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com


**Türkiyə onun hava sərhədini pozan rus qırıcısını vurmaqla, nəhayət, Rusiya qarşısında öz gücünü göstərdi - vaxtında, effektli şəkildə. Daha bundan sonrası, Putinin nə deməsi bir elə önəmli deyil.**

Fakt budur ki, qardaş ölkə bölgədə sıradan bir güc olmadığını əyani ortaya qoydu - öncəliklə də son vaxtlar bölgənin "çağırılmamış qonaq"larından olan, asıb-kəsən Kremlin ambisiyaları önündə.

Rus hərbi təyyarəsinin vurulub salındığı məqamın başqa özəllikləri də var. Məslə ondadır ki, qırıcı prezident Putin bölgədə, Tehranda qaz OPEC-i sammitində ikən, özü də ABŞ qırıcısı F-16 ilə məhv edilib. Necə deyərlər, bu da Suriya məsələsində özünü göstərməyə başlamış Tehran-Moskva işbirliyinə özünəməxsus sürpriz, hədiyyə sayıla bilər.

İndi artıq Rusiya hərbi təyyarələri də hara uçduqlarını yüz ölçüb-bir biçməli olacaq. Eyni zamanda bölgədəki Suriya türkmənləri (azərbaycanlılar) qismən rahat nəfəs ala biləcəklər ki, rus bombardmançıları onları daha istədikləri vaxt bombalaya bilməyəcək, çünki lap yaxınlıqda Türkiyə var. Bu, həm də o anlama gəlir ki, qardaş ölkə milli maraqları tələb edərsə, istənilən vaxt Suriyaya, İraqa girə də bilər.

Bütün hallarda bu, əlbəttə ki, Türkiyə tərəfdən güc nümayişidir. Necə olur, Rusiya BMT Nizamnaməsində əksini tapmış özünümüdafiə hüququndan istifadə edib Xəzərdən, Aralıq dənizindən, öz sərhədindən çox-çox uzaq başqa məkanlardan Suriyaya raket atıb əzələ göstərə, paralel surətdə region ölkələrini hədələyə bilir, NATO üzvü, regional güc Türkiyə öz hava sərhədlərini qorumaq üçün qırıcılarını qaldırıb hava pozucusunu neytrallaşdıra bilmir?

Təbii ki, bu da Ankaranın haqqıdır. Hərçənd, söhbət Rusiya hərbi təyyarəsindən getdiyindən, vəziyyət daha həssas və mürəkkəb sayılır. Hətta yeni, xoşagəlməz situasiyanın yarandığını söyləmək mümkündür. Belə bir situasiyanın baiskarı isə yenə sərhədlərindən xeyli uzaqda aranı qarışdırmaqla məşğul olub "bulanıq suda balıq tutmaq" istəyən Kremldir...

Bu nəticəyə doğru o, sürətlə yol gəlirdi, çünki Türkiyə dəfələrlə Rusiyaya rəsmi xəbərdarlıq eləmiş, iki dəfə onun səfirini XİN-ə çağıraraq nota vermiş, sonuncu dəfə Suriya türkmənlərinin bombalanmasına sərt etiraz olaraq BMT Təhlükəsizlik Şurasının təcili yığışmasını tələb eləmişdi.

Ankara təyyarənin vurulması da daxil, bu addımları atmağa məhkum idi, əks halda onun "regional güc" statusundan danışmağın yeri qalmazdı, Türkiyə haqqında İraq, Suriya kimi taqətdən düşmüş, fağır ölkə imici formalaşardı.

Qalır indi bu presedentdən rəsmi Kremlin hansı nəticəni çıxaracağı. Aydındır ki, təyyarə insidenti iki ölkə arasında müharibəyə-zada gətirən deyil. Çünki Türkiyə-Rusiya münasibətlərinin hazırkı durumu bunu istisna edir. Söhbət ondan gedir ki, Ankara özünün təbii qaza olan ehtiyacının 60%-ni məhz Rusiya mavi yanacağı hesabına ödəyir. Moskva üçünsə qardaş ölkə Qərb sanksiyaları qarşısında çox mühüm və vazkeçilməz iqtisadi-energetik tərəfdaş, hətta "nəfəslik"dir. Kreml bu "nəfəsliyi" elə-belə bağlamaz.

Türkiyə Rusiyadan ötrü həmçinin Qərblə münasibətlərdə bir bufer (aralıq) ölkədir. Lakin ikitərəfli münasibətlərdə "qırmızı xətt" deyilən anlayış da var ki, Türkiyə öz köklü maraqlarını əsas götürərək onları gözləmək zorundadır. Rusiya isə son iki ayda - Suriyaya hərbi müdaxiləyə başladığı andan "İŞİD-lə mübarizə" adı altında həmin maraqlara ciddi təhlükələr yaradır, Bəşər Əsəd rejiminin hərbi uğurlarını təmin eləmək üçün hətta türkdilli əhalinin yaşadığı bölgələri belə bombardman eləməkdən çəkinmir.

Düşmən tapmağa nə var ki, əsas dostu-müttəfiqi qorumaqdır.

# Eldar Mahmudovun həyat yoldaşı istefa verdi

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) katibi Tahirə Mahmudova işdən ayrılıb.**

"Report"un yazdığına görə, o, öz ərizəsi ilə işdən çıxıb. T.Mahmudova işdən ayrılmaq istəməsinə səbəb kimi səhhətində yaranmış problemləri göstərib. AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nazim Ağamirov məlumatı təsdiqləyib: "O, ərizə yazaraq öz xahişi ilə işdən azad edilib".

Qeyd edək ki, Tahirə Mahmudova sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun həyat yoldaşıdır.

T.Mahmudova 2007-ci ildən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında katib vəzifəsində çalışırdı. O, həm də AHİK-in Məclis və İcraiyyə Komitəsinin üzvü idi.

# "AGBank" haqqında yazılanlara reaksiya verdi

**"AGBank" ASC-nin mətbuat xidməti musavat.com-a məktub yollayıb. Məktubu olduğu kimi dərc edirik:**

**"Hörmətli redaktor,**
**Hörmətli həmkarlar!**

23 noyabr, 2015-i il tarixində musavat.com saytına istinadən "Çingiz Əsədullayevlə Eldar Mahmudovun zəlil duruma saldığı ailə" (http://musavat.com/news/gundem/cingiz-esedullayevle-eldar-mahmudovun-zelil-duruma-saldigi-aile_306876.html) adlı material portalınızda yerləşdirilib. "AGBank" ASC olaraq məqalədə bank və bank rəhbərliyinə qarşı səsləndirilən ittihamları qəbul etmirik. Məqalədə bankın və bank rəhbərliyinin ünvanına yönələn fikirlər ictimaiyyət qarşısında bankımızın işgüzar nüfuzuna xələl gətirmək məqsədini daşıyır. Təəssüf hissi ilə bildiririk ki, materialda həqiqətə uyğun olmayan məqamlar yer alıb. Haqverdi Məmmədov adlı şəxsin həyat yoldaşı Elmira Məmmədovanın səsləndirdiyi fikirlərlə razılaşmırıq.

AGBANK

Hesab edirik ki, məqaləni dərc etməmişdən öncə mətbu orqan məsələni diqqətlə araşdırmalı, tərəflərin mövqeyini diqqətlə öyrənməli idi. Bütün bu göstərilənləri nəzərə alaraq, yuxarıda qeyd edilənləri "AGBank"ın mövqeyi kimi qəbul edib, onu olduğu kim yayımlamanızı və gələcəkdə "AGBank"ın adı hallanan və onun mövqeyinə toxunan yazılar dərc olunmamışdan əvvəl mövqeyimizi öyrənməyi xahiş edirik.

**Hörmətlə,**
**AGBank ASC**
**mətbuat xidməti"**

**REDAKSİYADAN:** "Yeni Müsavat" media qrupu olaraq "AGBank" ASC-nin nəzərinə çatdırırıq ki, istənilən mövzuda yazarkən qarşı tərəfin mövqeyini öyrənməyə çalışırıq. Təəssüf ki, əksər vaxt qarşı tərəf mövqeyini bildirməyə həvəsli olmur. Yazı çap edildikdən sonra isə mətbu orqan qeyri-obyektivlikdə suçlanır. "AGBank" haqqında yazılar hazırlanarkən dəfələrlə qurumun mövqeyini öyrənməyə çalışsaq da cəhdlərimiz alınmayıb. Ya telefon zənglərimiz cavabsız qalıb, ya da bank rəhbərliyi danışmaqdan imtina edib. "Yeni Müsavat" media qrupu olaraq bəyan edirik ki, "Azəriqazbank" rəhbərliyi yazılanlarla əlaqədar müsahibə vermək istəsə, məmnuniyyətlə buna şərait yaradarıq.

YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

# Türkiyə rus qırıcısını vurdu

## Putin Təhlükəsizlik Şurasının təcili toplantısını çağırdı və Ankaranı hədələdi: "Bizi Türkiyə arxadan vurdu, faciənin ciddi nəticələri olacaq..."



**Noyabrın 24-də Türkiyənin Hatay əyalətinin Yayladağı bölgəsində ölkənin hava məkanını pozan Rusiya məxsus "Su-24" qırıcı təyyarəsi vurulub. Nəticədə təyyarə Suriya ərazisində, Türkmən dağı ərazisindəki Qızıldağ istiqamətində yerə düşüb. Pilotlar katapult eləsələr də, onlardan biri həlak olub, digərinin taleyindən isə xəbər yoxdur.**

Türkiyə tərəfi, prezident Rəcəb Tayyib Ərdoğan faktı rəsmən təsdiq edib, Rusiya təyyarəsinin ölkənin hava məkanını dəfələrlə pozduğu, çoxsaylı xəbərdarlıqlara məhəl qoymadığı üçün Türkiyə Silahlı Qüvvələrinə məxsus "F 16" təyyarəsi ilə "hava-hava" raketi ilə məhv edildiyini açıqlayıblar. Türkiyə rəsmiləri Rusiya qırıcısına 5 dəqiqə ərzində 10 dəfə xəbərdarlıq edildiyini bildirib.

Rusiya döyüş təyyarəsinin Türkiyə sərhədini pozmasını əks etdirən görüntülər də yayılıb. Öz növbəsində baş nazir Əhməd Davudoğlu Türkiyənin hava sərhədinin pozulması və təyyarənin vurulması insidenti barədə diplomatik kanallarla NATO-nu məlumatlandırmaq təlimatı verib. Davudoğlu xarici işlər nazir Ferudin Sınırlı oğlu və Silahlı Qüvvələrin Baş Qərargah rəisi Hulusi Akarla danışaraq, vəziyyəti müzakirə edib. Qeyd edək ki, baş nazir bir neçə gün əvvəl xəbərdarlıq eləmişdi ki, ölkənin sərhədi pozularsa təhlükəsizliyin təmin olunması üçün bütün hüquqlardan istifadə edəcəklər.

*****

Bu arada "Hurriyet Daily News" isə xəbər verib ki, təyyarə Türkiyənin hava məkanını pozub və bu ölkənin Hərbi Hava Qüvvələrinin "F-16" qırıcısı tərəfindən vurulub. Katapult edən pilotlardan biri türkmən qüvvələri tərəfindən tutulub.

Rusiya tərəfi də faktı təsdiqləyib. Rusiya Müdafiə Nazirliyi Suriya əməliyyatlarında iştirak edən aviaqruplaşmaya məxsus təyyarənin yerdən açılan atəşlə vurulduğunu təsdiqləyib. Nazirlik bəyan edib ki, "Su-24" bombardmançısı müstəsna olaraq Suriya ərazisində olub və qonşu ölkənin ərazisinə keçməyib. Pilotlar katapult etməyə imkan tapıb.

**İnsidentə ilkin reaksiya Kremlin mətbuat katibi Dmitri Peskovdan gəlib. Peskov deyib:** "Hadisə ilə bağlı hər hansı fikir bildirmək hazırkı situasiyada yanlış olardı. Çünki biz baş verənlər barədə doğru təsəvvürə və dəqiq məlumata malik deyilik. Səbirli olmaq lazımdır. Bu, çox ciddi hadisədir".

Prezident Vladimir Putin isə Təhlükəsizlik Şurasının təcili toplantısını çağırıb. Putin də faktı təsdiqləyib, "Su 24"ün Türkiyəyə məxsus "F-16" tərəfindən yerə salındığını, bunun "Rusiyaya arxadan zərbə" olduğunu bildirib. Eyni zamanda qeyd edib ki, təyyarə Türkiyəyə təhlükə yaratmayıb və sərhəddən bir kilometr aralı uçub.

**Kreml rəhbəri Türkiyəyə həmişə dost ölkə kimi yanaşdığını da söyləyib.** "Biz baş verənləri təhlil edəcəyik. Faciənin ciddi nəticələri olacaq, o cümlədən Rusiya-Türkiyə münasibətləri üçün. Bilmirəm, bu gün baş verən kimə lazım idi, hər halda, bizə gərək deyildi" - qeyd edib Rusiya lideri.



*****

İnsidentlə bağlı Türkiyənin Rusiyadakı hərbi attaşesi Rusiya Müdafiə Nazirliyinə çağırılıb. Rusiyanın Türkiyədəki səfiri isə Türkiyə Xarici İşlər Nazirliyinə dəvət edilib. Bu barədə informasiyanı "Bloomberg" agentliyi yayıb.

Türkiyənin üzvü olduğu NATO alyansı da Rusiyanın "Su-24" qırıcısının Türkiyə tərəfindən vurulması ilə bağlı açıqlama verib. Musavat.com xəbər verir ki, bu barədə məlumat "AFP"də yer alıb. Xəbərə görə, Suriya yaxınlığında sərhədləri pozduğu üçün "F-16" tərəfindən vurulan Rusiyanın "Su-24" qırıcısı ilə bağlı NATO açıqlama yayıb. Açıqlamada "NATO vəziyyəti diqqətlə izləyir. Türkiyəli rəsmilərlə təmaslar qururuq" sözləri yer alıb.

❑ Siyasət şöbəsi

## Ərdoğan yeni hökuməti təsdiqlədi



**Türkiyədə 64-cü cümhuriyyət hökumətinin tərkibi bəli olub. Yeni hökuməti formalaşdırmaq vəzifəsi verilmiş Ədalət və İnkişaf Partiyasının (AKP) lideri Əhməd Davudoğlu dünən prezident Rəcəb Tayyib Ərdoğanla görüşüb və Nazirlər Kabinetinin tərkibini ona təqdim edib. Ərdoğan yeni hökuməti təsdiqləyib.**

Qeyd edək ki, hökumətdə AKP-nin hakimiyyətə gəldiyi gündən bu yana ölkə iqtisadiyyatını idarə edən Əli Babacanın olmaması diqqət çəkib. Prezident Ərdoğanın Ə.Babacanın namizədliyinə qarşı çıxdığı bildirilir. Yeni enerji və təbii ehtiyatlar naziri Berat Albayrak isə R.T.Ərdoğanın kürəkənidir (APA).

# Müstəqillik illərimizin spikerləri...

## Qanunverici orqanımızın indiyə qədər 7 rəhbəri olub; Milli Məclis tez-tez rəhbər dəyişikliyinə məruz qalan qurum kimi tarixə düşüb



Elmira Qafarova



Yaqub Məmmədov



İsa Qəmbər



Rəsul Quliyev



Murtuz Ələsgərov

**Noyabrın 1-dən keçirilən parlament seçkiləri ilə bağlı proseslər arxada qaldı. Noyabrın 24-də yeni formalaşmış qanunverici orqanın ilk iclası keçirildi. Milli Məclisin strukturları yenidən formalaşdı. Əvvəlki iki dönəmdə parlamentə rəhbərlik edən Oqtay Əsədov qarşıdakı 5 il üçün də Milli Məclisin yenidən sədri seçildi.**

1918-ci ilin dekabrında yaradılmış parlamentimizə müstəqillik illəri ərzində rəhbərlik etmiş şəxsləri yenidən yaddaşlara qaytarmaq üçün tariximizi vərəqlədik.

1991-ci il dekabrın 18-dən 1992-ci il fevralın 28-nə qədər o zaman Ali Sovet adlanan quruma Elmira Qafarova rəhbərlik edib. İlk və yeganə xanım parlament sədrimiz 1990-cı ildə seçildiyi Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsini müstəqillik illərimizdəki qanunverici orqanımızın rəhbəri vəzifəsi ilə əvəzləyib. Həmin dövrdə qanunverici orqan prezident səviyyəsində bir qurum idi. Belə ki respublikada Ali Sovetin sədri dövlət başçısından sonra ikinci səlahiyyətli şəxs sayılırdı. Məhz bu baxımdan 90-cı illərin əvvəllərində tez-tez kadr dəyişikliklərini nəzərə alsaq, Ali Sovetin sədri müəyyən zamanlarda respublikamızın rəhbəri funksiyasını daşıyıb. Bu qurumun rəhbərlərinin zamanlarında dövlətimiz adına mühüm qərarlar qəbul edilib.

E.Qafarovanı 1992-ci ilin 28 fevralında Yaqub Məmmədov əvəz edib. Hazırda professor, tibb elmləri doktoru olan bu şəxs eyni zamanda həmin ilin 15 mayına qədər prezidentin səlahiyyətlərini icra edib. Faktiki olaraq 3 aya yaxın ölkəyə rəhbərlik etmişdir. 1992-ci ilin fevralından iyununa qədər olan dövrün özəlliklərindən biri odur ki, bu müddət ərzində Azərbaycanın prezidenti olmayıb, birinci şəxs funksiyasını Ali Sovetin sədrləri icra ediblər. Belə ki, fevral-may aylarında prezident səlahiyyətlərini də icra edən Y.Məmmədovu mayın 18-də İsa Qəmbər əvəz edib. İyunun 7-də ölkəmizdə ilk dəfə keçirilən prezident seçkilərinə qədər İ.Qəmbər dövlət başçısı olub. Əbülfəz Elçibəyin prezident seçilməsindən sonra Ali Sovetdə yində fasilə yaranıb. Bir il ərzində İsa Qəmbər Ali Sovetin sədri olub. Elçibəy hakimiyyətinin sonunda isə qanunverici orqanda yenidən qısamüddətli sədrlik dönəmi başlayıb. Tarixə 15 iyun "Qurtuluş günü" kimi daxil olan zamanda İsa Qəmbəri Heydər Əliyev əvəzləyib. 1993-cü il oktyabrın 3-nə qədər H.Əliyev Ali Sovetin sədri kimi, eyni zamanda ölkəni idarə edib. Həmin ilin oktyabrında H.Əliyevin prezident seçilməsi ilə Ali Sovetdə qısamüddətli rəhbər vəzifələrinə də son verilib. Həmin ilin 11 noyabrında sədr seçilən Rəsul Quliyev 1996-cı ilin 11 sentyabrına qədər bu vəzifəni icra edib. O, 1995-ci ildə keçirilmiş I çağırış parlament seçkilərindən sonra deputatlar tərəfindən növbəti dəfə sədr seçilib. Bəzən R.Quliyevi müstəqillik dövrümüzün ilk Milli Məclis sədri kimi də qələmə verirlər. O, vəzifəsini axıra qədər davam etdirə bilməyib. 1996-cı ildə ölkəni tərk edən R.Quliyevi Murtuz Ələsgərov əvəzləyib. Bundan sonra Milli Məclisdə uzunmüddətli rəhbərlik dönəmi başlayıb. 2000-ci ildə növbəti dəfə sədr seçilən M.Ələsgərov 2005-ci ilə, yəni müddətin sonuna qədər vəzifəsini icra edib. O, tariximizə parlamentin sədri funksiyasını ilk dəfə olaraq, başa vuran şəxs kimi düşüb. Ona kimi qanunverici orqanın heç bir rəhbəri sona qədər vəzifəsini icra edə bilməmişdi.

M.Ələsgərovu 2005-ci ildə Oqtay Əsədov əvəz etdi. 2010-cu il seçkilərindən sonra ikinci dönəm üçün də O.Əsədov sədr oldu. Bu günə qədər Milli Məclisin sədri olan Əsədov, qurumun indiyə qədər ən uzunmüddətli rəhbəridir. Noyabrın 24-də növbəti 5 il üçün də sədr seçildiyini nəzərə alsaq, bu müddətin daha çox olacağını demək mümkündür.

Qeyd edək ki, Milli Məclisin sədri hazırda respublikada vəzifəsinə görə üçüncü səlahiyyətli şəxs sayılır. Bu qərar 2002-ci il referendumundan sonra qəbul edilib. Həmin ilə qədər prezidentdən sonra ölkədə ikinci şəxs sayılan Milli Məclis sədrini baş nazir əvəz etdi. Hazırda Azərbaycanda ikinci şəxs məhz baş nazir hesab olunur.

❑ Cavanşir ABBASLI

# YAP həbs edilənlərin niyə partiyadan çıxarılmamasına izahat verdi

## Hüseyn Paşayev: "Əgər həqiqətən də onların qanunazidd fəaliyyətləri sübuta yetirilərsə..."


Hüseyn Paşayev

**"MTN işi" ilə bağlı aparılan əməliyyatlar zamanı Yeni Azərbaycan Partiyasının (YAP) da üzvləri olan bəzi şəxslər hüquq-mühafizə orqanları tərəfindən saxlanıldı.**

Lakin Rabitə və Yüksək Texnologiyalar Nazirliyində vəzifədən qanunsuz əməllərinə görə azad edilən məmurlar, o cümlədən YAP-ın Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri vəzifəsindən qovulan Məhəmməd Məmmədov hələ də YAP-ın üzvlüyündə saxlanılır.

Məsələ ilə bağlı modern.az saytına müsahibəsində "91-lər"in üzvlərindən biri **Ariz Abduləliyev** də bildirib ki, təəssüf ki, hakim partiya son hadisələrlə bağlı heç bir bəyanat vermir: "Dünən də, bu gün də prezidentin sərəncamı ilə vəzifədən gedənlər, ictimai qınaq hədəfinə tuş gələnlər, rüşvətxorluq, dələduzluq, vəzifədən sui-istifadə, dövlət əmlakını mənimsəmə kimi qanunsuz hallara yol verənlər, təəssüf ki, hələ də partiya üzvlüyündə qalırlar. Elə hansı isə "görünməz əl" onlara himayədarlıq göstərir. Çox qəribədir... Cəmiyyət isə partiyadakı belə təsadüfi adamlar, ölkə qanunlarını pozanlar haqqında birmənalı mövqe, açıqlama gözləyir".

**Söylənilənlərlə bağlı YAP-ın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev musavat.com-a açıqlama verib:** "Yeni Azərbaycan Partiyasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyində çalışan bəzi üzvləri istintaq tərəfindən məsuliyyətə cəlb olunublar. Hazırda onlarla bağlı istintaq işləri davam etdirilir. Yəni onlar qanunverciliyə uyğun olaraq məhkum edilməmiş şəxslərdir. Sadəcə olaraq, həmin şəxslərin fəaliyyətlərində şübhə doğuran məqamlar var. Bu səbəbdən də istintaq onları məsuliyyətə cəlb edib. Bu baxımdan, Yeni Azərbaycan Partiyası hələlik haqqında bəhs etdiyimiz şəxslər barəsində hər hansı bir qərar çıxarmaqda tələskənliyə yol vermək istəmir. Əgər həqiqətən də onların qanunazidd fəaliyyətləri sübuta yetirilərsə və məhkəmə tərəfindən məsuliyyətə cəlb olunarlarsa, təbii ki, partiya həmin üzvlərin sıralarımızda qalıb-qalmaması barəsində qərar qəbul edəcək. Belə bir qərar müzakirə olunarsa, onların partiya sıralarında qalması qeyri-mümkün olacaq. Yəni Yeni Azərbaycan Partiyasının sıralarından onlar avtomatik olaraq kənarlaşdırılacaqlar. Lakin bu gün, istintaq tərəfindən onların cinayətləri sübuta yetirilmədiyi üçün mənsub olduqları siyasi partiya tərəfindən mühakimə olunması erkən verilmiş bir qərar olardı".

❑ Əli RAİS

# Fazil Mustafa "AXCP ölmüş partiyadır" dedi

## AXCP-nin adının "Yurd" qoyulmasına münasibət birmənalı deyil


Fazil Mustafa

**Yeni AXCP sədri Razi Nurullayevin Əli Kərimlinin sədri olduğu partiyaya "Yurd" adı qoymasını təklif edib. "Bu, daha ədalətli olardı. İnsanlar da bunu coşqu ilə qarşılaya bilərlər. Bəlkə bu yolla Əli Kərimli neçə illərdir ki, atmadığı addımı atar. Bunula uzun illərdir ki, göstərdiyi qeyri-səmimiliyi səmimiyyətə çevirə bilər".**

Məsələ ilə bağlı bir çox keçmiş "yurd"çu ilə əlaqə saxlasaq da, onlar danışmaq istəmədilər.

Mövzu ilə bağlı musavat.com-a açıqlamasında yalnız siyasi şərhçi Azər Rəşidoğlu öz fikrini bildirib:

"Razi Nurullayev, bildiyimə görə, heç bir zaman "Yurd" birliyinin üzvü olmayıb. Belə olan təqdirdə, onun bu keçmiş təşkilatın vaxtilə üzvü olanların fikri barədə məlumatı nə qədər dolğundur? Mən hesab edirəm ki, Razi bəy öz yaratdığı təşkilata başqa ad seçsəydi, daha məqbul olardı. İctimai rəydə AXCP kimi Əli Kərimlinin rəhbərlik etdiyi partiya tanınır. Bu məsələdə hətta hüquqi tənzimlənmə məsələsində uğur qazansa belə, ictimai rəydə uduza bilər. Şəxsən mən AXCP kimi Əli Kərimlinin sədrlik etdiyi təşkilatı tanıyıram və kənardan gələn bir şəxsin cəbhəçilərin adından danışmasını ciddi hesab etmirəm. AXCP-nin bəzi taktiki və strateji yanaşması ilə razı deyiləm, amma bu təşkilat hazırda Əli Kərimlinin adı ilə bağlıdır və əksər ictimai fəallar da bunu belə qəbul edəcəklər".

**Məsələ ilə bağlı musavat.com-a Böyük Quruluş Partiyasının sədri Fazil Musatafa da danışıb. O bildirib ki, hazırda qlobal problemlərin həlli ilə məşğul olmaq daha önəmlidir:** "Qlobal problemlərin həlli ilə məşğuluq. AXCP-nin bundan sonra adını dəyişdirsən də, heç bir xeyri yoxdur. Artıq o missiyasız, ölmüş bir partiyadır. Onun Azərbaycanın gələcəyində hansısa bir yeri olduğunu düşünmürəm. Bu baxımdan, məsələ mənim üçün çox da aktual deyil. Bunun adını "Yurd" qoysalar da heç bir xeyri olmayacaq. Çünki hazırkı şərtlərdə inkişaf perspektivi yoxdur".

❑ Əli RAİS


Bridcet Brink

# ABŞ dövlət katibinin müavini Bakıda müxalifət liderləri ilə görüşdü

**Dünən ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brink Müsavat başqanı İsa Qəmbər, AXCP sədri Əli Kərimli və Milli Şura sədri Cəmil Həsənli ilə görüşüb.**

Görüşdə əsasən məhbuslarla, xüsusən də həyatına təhlükə yaranmış Leyla Yunusla və vətəndaş cəmiyyəti ilə bağlı vəziyyət, eləcə də demokratiyanın inkişafı, ABŞ-Azərbaycan münasibətlərinin geniş spektri müzakirə olunub.

# "Qoy Raufun məhkəməsi bitsin..."

## Elçin Şıxlı: "Ondan sonra növbəti mərhələlər barədə ya düşünəcəm, ya da deyəcəm ki, düşünməyin mənası yoxdur"


Elçin Şıxlı

**Son bir ayda MTN ətrafında baş verən proseslər, həbslər "Ayna Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun azadlığa buraxılacağı ilə bağlı ümidləri artırıb. Xüsusən də hüquq müdafiəçisi Arif Yunusun həbsdən azad olunmasından sonra gözləntilər maksimuma yüksəlib. Bəs bu tabloda fəaliyyətini dayandırmış "Ayna Zerkalo" qəzetini taleyi necə görünür? Qəzet yenidən media sektoruna geri qayıda bilərmi? İşıq ucu görünürmü?**

**Qəzetin baş redaktoru Elçin Şıxlı** "Yeni Müsavat"a açıqlamasında bu mövzuya toxundu. Müsahibimiz adətən ona məsləhət üçün müraciət edənlərə "gəlin problemləri sıra ilə həll edək" məsləhəti verdiyini yada saldı. Dedi ki, indiki halda da məsələlərə mərhələli şəkildə baxmağın tərəfdarıdır: "Hazırda məni ən çox maraqlandıran Rauf Mirqədirovun məhkəməsinin nə ilə yekunlaşacağıdır. Sonra nə olacaq, o barədə düşünmürəm. Mənim üçün əsas olan Raufun bəraət qazanmasıdır. Bunu üçün bütün əsaslar da var. Hər halda, ümid etmək istəyirəm ki, hər şey öz yerini tutacaq. Bu insan 1 il 8 aydır təkadamlıq kamerada qalır. Mənən də çətindir. Düşünürəm ki, MTN hadisələri ilə bağlı müəyyən məqamlar öz yerini tutmaq üzrə kimi görünür. Ümid etmək istəyirəm ki, bizim ədalət məhkəməsi ədalətli araşdırmadan sonra düzgün qərar verəcək və Raufu azadlığa buraxacaqlar".

**O, R.Mirqədirovun məhkəmə prosesinin qapalı keçirildiyini xatırlatdı. Müsahibimiz ikinci prosesdə şahid qismində ifadə verdiyini vurğuladı:** "Bir çoxları soruşdu ki, sonla bağlı nə düşünürsən? Sadəcə olaraq, ümumi mənzərəni görə bilmirəm. Ancaq özüm məhkəmə zalında cavab verdiyim hissəsini görmüşəm. Gəldiyim qənaət isə budur ki, adətən belə proseslərdə müdafiəyə qarşı ittiham və sədarət tərəfindən hansısa gərginlik olur. Burda, sözün doğrusu, bir elə gərginlik hiss etmədim. Deyə bilmərəm ki, hamı bir-birinə "can" deyib, "can" eşidirdi. Amma düşmən atmosfer hiss etmədim. Hər kəs öz işini görürdü. Tərəflər suallarını verdi. Cavab verdim. Ona görə də məhkəmənin ədalətli qərarına ümidlərim var".

**E.Şıxlı bir daha vurğuladı ki, indi əsas gözləntisi R.Mirqədirovun məhkəməsidir:** "Onun nəticəsinə uyğun olaraq ondan sonrakı mərhələlərlə bağlı ya düşünəcəm, ya da deyəcəm ki, düşünməyin mənası yoxdur".

❑ Sevinc TELMANQIZI

# Cahangir Hacıyev restorana və bazarlığa 1 milyondan çox pul xərcləyib


Cahangir Hacıyev

**Azərbaycan Beynəlxalq Bankının (ABB) keçmiş prezidenti Cahangir Hacıyevin fəaliyyətinin yoxlanması zamanı ABB-də həyata keçirilən daxili audit bankda daha bir ciddi qanun pozuntusunu üzə çıxarıb.**

Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı məlumatlı mənbələrdən informasiya daxil olub.

Məlumata görə, Cahangir Hacıyevin kredit kartından şəxsi ehtiyaclarına 1 milyon dollardan çox vəsait xərclənib. Həmin kredit borcu bu günə qədər də ödənilməyib.

ABB-dən də bu informasiyanı virtualaz.org saytına təsdiq ediblər.

Yada salaq ki, ABB-nin sabiq prezidenti C.Hacıyev əksəriyyəti məqsədi üzrə xərclənməyən çoxmilyardlıq kreditlərin verilməsində ittiham olunur. C.Hacıyevin ABB-yə rəhbərlik etdiyi dövrdə bankın 7 milyard dollara yaxın vəsaiti, sözün əsl mənasında, hərraca çıxarılıb. Bundan sonra hüquq-mühafizə orqanları "kredit oliqarxları işi" üzrə xeyli sahibkarı, habelə C.Hacıyevin yaxın adamlarını saxlayıblar.

C.Hacıyevin özü isə hazırda DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən sorğu-sual olunur. "Cahangir Hacıyev DİN-in müstəntiqləri tərəfindən bu faktla bağlı dindirilib. Bank vəsaitlərinin başqa məqsədlərə xərclənməsi faktına görə Cahangir Hacıyevin keçmiş köməkçiləri, o cümlədən Anar Bəkirov da sorğu-sual olunublar" deyə DİN-dəki mənbə sayta bildirib.

YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

**Xəbər verdiyimiz kimi, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin Sabirabad rayonunda 7 yaxın qohumunun həbs edilməsi gözlənilir. Pənah Hüseynin sözlərinə görə, parlament seçkilərindən bir müddət öncə qohumları - qardaşı Adil Hüseynov, qardaşı oğlu Vasif Hüseynov, əmisi oğlanları Mənsur, Qaşqay, İxtiyar, Xalid və Sərxoş Hüseynovların barəsində xuliqanlıq maddəsi ilə açılmış cinayət işi ilə bağlı gözlənilməz gəlişmə baş verib: "Onların cəlb olunduğu 221.2 və 222.3 xuliqanlıq maddələri ilə cəlb olunduğu məhkəmə gedişatında şahidləri dinləmədən, heç bir vəsatəti təmin etmədən, hətta ittiham tərəfinin sübutları olmadan məhkəmə prosesi təyin edilib. Noyabrın 30-na məhkəmə prosesi təyin edilib və ittihamçının cəza istəyəcəyi çıxışı gözlənilir. Birdən-birə belə bir dramatik vəziyyətin seçkidən xeyli sonra yaradılması bizim üçün də gözlənilməzdir. Rayona yeni gəlmişəm, araşdırma aparıram. Vəziyyəti ətraflı öyrənib, geniş məlumat verəcəyəm".**

# "Bu adamların günahı odur ki, mənim qohumlarımdır"

## Pənah Hüseyn: "Bu gün əmək qabiliyyətli kişi cinsindən olan demək olar ki, bütün yaxın qohumlarım həbs təhlükəsi qarşısındadır"

*P.Hüseyn bu məsələ ilə bağlı "Yeni Musavat"ın suallarını cavablandırıb:*

***- Pənah bəy, mətbuatda sizin qardaşınız və digər yaxın qohumlarınızın həbs ediləcəyi barədə informasiyalar yayılıb. Nə baş verir?***

- Əvvəldə onu deyim ki, həbs təhlükəsi mənim əmək qabiliyyətli kişi cinsindən olan demək olar ki, bütün yaxın qohumlarımı əhatə edir. 50 yaşında yeganə qardaşımı, yaşları 40-50 olan beş əmioğlumu, qardaşım oğlunu həbs etmək istəyirlər. Hətta mənə məlum oldu ki, digər 3 qohumumu da bu işə qatmaq istəyiblər.

***- Məsələnin mahiyyəti nədən ibarətdir? 1 noyabrda, seçki günü, 63-cü dairədə siz və qohumlarınızın qanun pozuntularına yol verdiyiniz, zorakılıqlar etdiyiniz haqqında yerli orqanlara və seçki komissiyalarına istinadən məlumatlar getmişdi. Həmin məsələdirmi?***

- Onları yəqin hələ ehtiyata saxlayıblar. Bu məsələ formal məzmununa görə bir qədər əvvələ aiddir. Hazırda qohumlarımı guya 2014-cü il avqustun 8-də baş verən hadisə ilə ittiham edirlər. Lakin mahiyyətcə 1 noyabrda bizi bulaşdırmaq istədikləri ilə, eyni məsələlər olduğu, eyni məqsədlə edildiyini də inkar etmək mümkün deyil. Mən bu işin təhqiqatdan kənar tərəfləri ilə də, iş materialları ilə də ətraflı tanışam, məhkəmə iclaslarında olmuşam. Tam əminliklə deyirəm ki, burda mənim qohumlarıma qarşı irəli sürülən ittihamla əlaqəli olan heç nə yoxdur. Rəsmi ittiham tamamilə subyektiv mülahizə, saxtalaşdırma və təhrif üzərində qurulub, qurama və sifariş xarakteri daşıyır. Burda olsa-olsa, mənim qohumlarıma, onların da bəzilərinə münasibətdə inzibati xəta ilə bağlı nəsə irəli sürülə bilər. Vəssalam! Bunu təqibçilər də bilir. Əgər bu şəxslər qatı xuliqanlıq hərəkəti etmişdilərsə, niyə il yarımdır ki, həbs olunmurdular? İndi dəyişən nədir?

***- Mümkünsə, konkretləşdirək. Qohumlarınızı hansı ittihamlarla həbs etmək istəyirlər ?***

- Bildirilir ki, 2014-cü ilin 8 avqustunda kənddən kənar bir yerdə mənim qohumlarımla digər həmkəndliləri arasında məişət zəminində, daha dəqiqi, şor su kanalının qazılması ilə bağlı qarşılıqlı mübahisə olub və bu zaman yenə guya qarşı tərəfdən 5 nəfər xəsarət alıb. Əslində isə heç bir səbəbsiz döyülən mənim qardaşım olub. Yeri gəlmişkən, bu fakt təhqiqatda da rəsmən təsdiqlənib və yazılıb. Aydınlaşdırdım ki, həmin qarşılıqlı mübahisə zamanı ölən-itən, qalıcı xəsarəti olan, şikəst olan heç bir şəxs olmayıb. Soruşanda da ki, göstərin o vaxt nə xəsarətlər olub, deyirlər sağalıb izi itib, ancaq ekspert rəyləri qalıb. O vaxt bununla əlaqədar şikayət edilib və 127-ci maddə, yəni döymə maddəsi ilə iş açıblar. Hamı hesab edib ki, rayonda hər həftə baş verən bu tipli digər hadisələr kimi, bunu da təhqiq edib barışıq, ya başqa yolla xitam edəcəklər. Lakin 5 ay sonra 2015-ci il yanvarın 24-də, o vaxta qədər 127-ci maddə ilə qaldırılmış iş mənim yaxın qohumlarıma xuliqanlıq maddəsi ilə ittiham verilməsi-221.2.və 221.3. maddələri ilə əvəz olunub və dərhal da məhkəməyə verilib. 2015-ci ilin martından başlanan məhkəmə də noyabra qədər uzadılıb və noyabrın 23-də ildırım süräti ilə vəkillərin dediyinə görə, heç tələb olunan məhkəmə istintaq hərəkətlərinin yarısı aparılmadan prosesin yekunlaşdığı və noyabrın 30-da hökm oxunacağı elan edilib.



***- Siz və vəkillər məhkəmədəki bu qəfil dönüşü necə izah edirsiniz? Bu, sizin seçki ilə bağlı fəaliyyətiniz, şikayətləriniz, son dövrdə bəyan elədiyiniz siyasi planlarınızla bağlı ola bilərmi?***

- Doğrusu, mən bu barədə qəti hökm verməkdən çəkinməyə çalışıram. Ancaq məsələnin hazırda həqiqətən hüquqla izah edilə bilməyən əcaib cəhətləri var. İşi fevraldan aparan hakim Firdovsi Zülfü oğlu bu il oktyabrın 26- da prezidentin sərəncamı ilə Lerik rayonuna hakim təyin edilib. Yəni hazırda qanunvericilikdə nəzərdə tutulmuş qaydada burdakı məhkəmə işləri onun yurusdiksiyasına daxil olmadığına görə bu işi aparmaq üçün səlahiyyətli şəxs deyil. Odur ki, iş başqa bir hakimə, konkret, Sabirabad Rayon Məhkəməsinin hakimi Abbaslı Təyyar Bəhrəm oğluna həvalə edilib. Bu hakim də noyabrın 3-də məhkəmə iclası keçirib, tapşırıqlar verib və elə həmin iclasda öz imzası ilə təqsirləndirilən şəxslərə bildirişlər təqdim edilib ki, növbəti məhkəmə iclasına gəlin. Həmin yeddi bildiriş də müdafiə tərəfinin əlindədir. Ancaq növbəti iclasa gələndə, yəni noyabrın 23-də məlum olub ki, hakim kürsüsündə bu dəfə işin həvalə olunduğu və artıq bir iclas keçirmiş hakim Təyyar Abbaslı yox, yenə Firdovsi Zülfü oğlu əyləşib. Vəkillər və təqsirləndirilən şəxslər konkret əsaslar göstərməklə, daha dəqiqi, Cinayət Məcəlləsinin 109.1. və 109.2. habelə bununla bağlı CPM-in 26, 67, 76 və s. maddələrinə istinadla, hakimlərə etirazın əsasları barədə Ali Məhkəmə Plenumunun Qərarı, yenə bu məsələyə dair Konstitusiya Məhkəməsinin 31 may, 2012-ci il tarixli qərarı, Azərbaycan Hüquq doktrinasına və sair mənbələrə istinadən hakimə yazılı etiraz verib. Lakin hakim konkret əsaslar göstərilibsə, etiraza baxılmasını məcburi edən qanun normasına məhəl belə qoymayaraq, etirazı baxılmamış saxlamalıydı və cəmi bir saat ərzində ittiham tərəfinin mənim qohumlarıma aid olan epizod üzrə 8 şahidindən 6-sının məhkəməyə gəlməsinə ehtiyac olmadığını bildirib və onların ibtidai istintaqdakı ifadələrini elan edib, müdafiə tərəfinin hələ hazırlıq mərhələsindən yazılı təqdim etdiyi 4 vəsatətin *(müdafiə tərəfinin şahidlərinin dindirilməsi, ekspertin dindirilməsi, müstəntiqləri dindirilməsi, hadisə yerinə baxış keçirilməsi)* 4-nü də rədd edib, məhkəmə istintaqı mərhələsini yekunlaşdırıb. Noyabrın 30-da çıxışların hazır olduğunu və hökm oxunacağını elan edib. Mən həmin iclasda iştirak etdiyimə görə vəkillərdən bu gördüklərimizin nə anlama gədiyini soruşduqda onlar dedilər ki, hakim əslində bu hərəkətləri ilə çıxaracağı qərarın qanunsuz olması üçün mümkün olan hər şeyi edib. iclas da keçirib. Bu necə olsun? Yəqin ki, sənədləşdirəcəklər ki, ümumiyyətlə, belə şey olmayıb, nə belə hakim olub, nə də hakim Təyyar Abbaslının keçirdiyi məhkəmə iclası. Elə bir dövrdə yaşayırıq ki, nə desən olar! Bəs həmin hakimin həmin iclasda imzaladığı, iştirakçılara verilmiş, surətləri etiraza əlavə edilən və əsli bizdə olan rəsmi bildirişlər nə olacaq?! Eləcə də müdafiə tərəfinin şahidləri barədə vəsatəti rədd edərkən məhkəmə nə düşünür? Təsəvvür edin ki, məhkəmə araşdırması zamanı aşkara çıxdı ki, dindirmələri bir müstəntiq aparıb, protokolda imza başqasınındır! Tələb olunur ki, bu məsələni həll etmək üçün müstəntiqlər məhkəməyə çağırılsın. Ancaq məni onun çıxaracağı qərarın hüquqi keyfiyyəti yox, qohumlarımın taleyi narahat etdiyindən əlbəttə ki, vəkillərin cavabı məni qane etmir.

***-Pənah bəy, məhkəmələrdə baş verən qanunsuzluqlar haqda çox deyilib. Lakin Lerik rayon hakimi Sabirabad Rayon Məhkəməsi adından necə qərar çıxaracaq?***

- Hakim bu məsələ barədə bir izahat vermədi ki, hansısa fikir yürüdə biləк. İzahat vermədiklərinə görə məhkəmənin əvəzinə nəsə demək çətindir. Lakin çox güman ki, onlar "Məhkəmələr və hakimlər haqqında" Qanunun 96-cı maddəsinin 4-cü bəndini əsas göstərəcəklər. Həmin maddəyə görə, hakimin təyin olunduğu sərəncamdakı səlahiyyət müddəti başa çatırsa da, bu səlahiyyət qurtardığı andakı iş yekunlaşana qədər qüvvəsini saxlayır. Lakin qanun bunu həmin hakim başqa bir məhkəməyə yeni təyinat almırsa, mümkün sayır. Əks təqdirdə, məhkəmə aidiyyəti pozulmuş olur. Bu barədə hakimə etirazda ətraflı şərh olunurdu. Müəmmalı olan başqa məsələdir. Axı bu iş başqa bir hakimə-Təyyar Abbaslıya həvalə olunmuşdu. Həmin hakim Hakim deyir ki, buna nə ehtiyac var? Yaxud ittiham tərəfinin mənim qohumlarıma ittiham verilməsi epizoduna dair şahidlərindən cəmi ikisini dəvət edib dindirəndən sonra görəndə ki, ittiham sənədləri ifşa olunur, digər 6-sının çağırılmasından imtina etməyə nə ad qoymaq olar? Qohumlarım deyir ki, hara, kimin üstünə gedirik, eşidib biləndə ki, sənin qohumlarınıq, yaxın duran tapılmır, haqqımızı təsdiqləməyə kömək göstərməyə söz verənlər də indi bizdən qaçır ki, xatanızı uzaq edin, bu iş ən yuxarıdakılara məlumdur, bizlik bir məsələ yoxdur. İndi hərəsinin bir külfət ailəsi, uşaqları olan, çoxunun yaşları 50-ni haqlamış bu insanların, ailələrinin nə günahı var ki, Pənah Hüseyn onların qohumudur?

***-Pənah bəy, istər-istəməz belə bir sual yaranır: bu qədər müddətdə davam edən bu işi indi niyə ictimailəşdirirsiniz?***

- Bilirsiniz, mən yalançı hay-küyü heç sevmirəm. Həm də ümid qalırdı ki, məsələ təhqiqatda, sonra da məhkəmədə həllini tapacaq. İctimailəşdirmənin müsbət tərəfi ilə yanaşı mənfi tərəfləri də çoxdur. Amma proseslərin gedişi qəti göstərdi ki, məsələ nə isə başqa cürdür.

***- Nə etməyi planlaşdırırsınız?***

- Məni tanıyanlar bilir ki, belə üsullarla mənə təzyiq göstərmək mümkün deyil. Yaxın qohumlarımı incitməklə, həbs etməklə mən nə siyasi fəaliyyətimdən, nə də planlarımdan əl çəkən deyiləm. Açığı, indiki konyukturda elə bir siyasi mövqe sərgiləmirəm ki, kimisə xüsusi qıcıqlandırsın. Odur ki, güman etməyə üstünlük verirəm ki, bu, xeyli dərəcədə məhəlli təşəbbüslərdir. Hərçənd ki, məhəlli deyəndə yalnız kəndi, yaxud Sabirabadı nəzərdə tutmuram. Bəzi tam yoxlanılmamış, ancaq qeyri-ciddi görünməyən informasiyalar var. Hüquq müstəvisində nə mümkündürsə edirik və etməkdə davam edəcəyik. Siyasi imkanlar məhduddur, ancaq tam yox da deyil. Baxaq görək nə olur.

❑ **Gülnar SÜLEYMANOVA**



YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

**Azərbaycan prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Türkiyədə keçirilən G-20 sammiti zamanı ABŞ prezidenti Barak Obama ilə görüşdüyünü və müzakirə apardığını açıqlayıb. Bu barədə dövlət televiziyası və rəsmi dövlət agentliyi məlumat yayıb.**

# ABŞ-Azərbaycan münasibətlərində buzlar əriyir

## İlham Əliyevlə Barak Obama arasında Türkiyədə görüş olub

Dövləti başçısı İlham Əliyev deyib ki, G-20-nin Antalya toplantısında ABŞ prezidenti Barak Obama ilə ikitərəfli əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi apardıqları zaman ABŞ prezidentinin 10 il bundan əvvəl senator kimi Azərbaycana səfərini xatırladığını məmnunluqla qeyd edib. İki ölkə arasında müxtəlif sahələrdə uzun illərdir ki, uğurlu əməkdaşlığın mövcud olduğunu deyən prezident İlham Əliyev enerji və regional təhlükəsizlik, iqtisadi inkişaf və digər sahələrdə əlaqələrin əhəmiyyətini xüsusi vurğulayıb.

Qeyd edək ki, noyabrın 23-dək prezident İlham Əliyevin G-20 sammitində Barak Obama ilə fikir mübadiləsi apardığı barədə heç bir rəsmi informasiya və açıqlama olmayıb. Həm Türkiyə telekanallarında, həm də Azərbaycan televiziyalarında İlham Əliyevin önündən keçən Barak Obamanın Azərbaycan dövlətinin başçısı ilə sadəcə əl tutub bir neçə saniyəlik salamlaşdığı görüntüsü yayılmışdı. Noyabrın 23-də prezidentin ABŞ-dan gələn nümayəndə heyətini qəbul etdiyi zaman səsləndirdiyi fikirlərdən isə belə məlum olur ki, İlham Əliyevlə Barak Obama arasında fikir mübadiləsi ilə keçən görüş olub.

Siyasi ekspertlər hesab edir ki, həm bu nüans, həm də son bir ayda ABŞ-dan Azərbaycana böyük nümayəndə heyətlərindən ibarət rəsmi səfərlər, iş adamlarından ibarət qrupun gəlməsi, Vaşinqtondan gələn qonaqların ən yüksək səviyyədə qəbul edilməsi bir neçə ildir müşahidə olunan soyuq münasibətlərin arxada qalması, ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlanmasıdır.



**Ümid Partiyasının sədri İqbal Ağazadə bu barədə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Azərbaycan iqtidarının Qərbə üz tutması ölkənin maraqlarına uyğundur:** “Mən əvvəllər də demişəm ki, Azərbaycan hakimiyyətinin Rusiyanın yanında dayanması Azərbaycanın iqtisadi-siyasi maraqları baxımından məqbul deyil və bunu iqtidar çox gözəl bilir. Münasibətlərdə müəyyən mərhələlərdə enmələr olsa da, Rusiyanın müxtəlif təzyiqləri qarşısında hakimiyyət bəzən manevr etməyə çalışsa da güman etmirəm ki, Qərb kursundan geri duracaq. Çünki Qərb kursundan geri durmağın Azərbaycan xalqına, dövlətçiliyinə, o cümlədən hakimiyyətə nə qədər baha başa gələcəyini hər birimiz kifayət qədər hesablaya bilirik. Azərbaycan iqtisadiyyatının bu gün 90 faizi Qərbdən asılıdır. Cəmi 6 faiz iqtisadiyyatımızda Rusiyanın payı var ki, bu da 90 faizin qarşısında çox kiçik rəqəmdir. Ona görə də hesab edirəm ki, bu məsələdə Azərbaycan hakimiyyəti zaman-zaman hansı bəyanatlar verbsə, yaxud da müzakirələr edibsə belə, strateji müttəfiqlik anlayışında Qərbdən vaz keçməyəcək və Qərb siyasəti davam edəcək”.

**İ.Ağazadə onu da dedi ki, ABŞ-la münasibətlərdə son vaxtlar müşahidə olunan istiləşmənin daxildəki proseslərə, siyasi məhbusların azad olunmasına təsir edəcəyi mütləqdir:** “Mütləq mənada təsiri olacaq. Bunun təsirsiz ötüşməsi mümkün deyil”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da bildirdi ki, Rusiyanın təzyiqlərindən yayınmaq üçün müəyyən mərhələlərdə ABŞ-la münasibətlərdə gərginliklərə gedilir. Son vaxtlar isə münasibətlərdə istiləşmə mərhələsinin başlanması müşahidə edilir:** “Müstəqillik qazandıqdan bəri ABŞ Azərbaycanla üç istiqamətdə əməkdaşlıq edir. Enerji sahəsində, Təhlükəsizlik sahəsində, İnsan haqları, demokratiya sahəsində əməkdaşlıq. Üçüncü istiqamətdə son illərdə münasibətlərdə gərginlik yaşanır. Azərbaycan hakimiyyəti Amerikanın Azərbaycandakı demək olar ki, bütün fond və mərkəzlərini qapatdı. Bu da münasibətlərdə gərginlik yaratdı. Gərginliyi bir az da artıran ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstarın AzadlıqRadiosuna verdiyi müsahibədə “Ukraynadakı Maydan hadisələri Azərbaycanda təkrarlana bilər” fikri oldu. Azərbaycan hakimiyyəti ABŞ-ın demokratiya və insan haqları məsələsində ölkəmizin daxili işlərinə qarışmasını istəməsə də digər iki istiqamətdə əməkdaşlıq əvvəlki tempdə davam edib. Enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq dayanmayıb. TAP və TANAP-ın reallaşmasında Azərbaycan ən böyük dəstəyi Amerikadan görüb. Amerikanın Avropa ölkələrindəki səfirləri o ölkələrin hakimiyyətləri ilə danışıqlar aparırlar ki, həmin ölkələr Rusiyadan çox Azərbaycan qazına üstünlük versin. Bu, enerji əməkdaşlığının ölçüsünü göstərir. Əsas da dövlət başçısı İlham Əliyevin Antalyada keçirilən G-20 sammitindəki çıxışına diqqət edək. İlham Əliyev Barak Obamaya minnətdarlıq etdi və dedi ki, əgər 1990-cı illərin ortalarında ABŞ-ın Azərbaycana dəstəyi olmasaydı Azərbaycan böyük layihələri reallaşdıra bilməzdi. Söhbət 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi”ndən və Bakı-Tbilisi-Ceyhan layihəsindən gedir ki, Amerikada bu layihələrdə bizə çox böyük siyasi dəstək verdi. Azərbaycana Rusiyadan böyük təzyiqlər var idi. Bu təzyiqləri məhz ABŞ neytrallaşdırdı. İlham Əliyev bunu mötəbər tribunadan bir daha xatırlatmaqla Amerikaya təşəkkürünü bildirdi. Bu, yeni mərhələnin başlanmasının rəsmi təsdiqi idi.

Diqqət etdinizsə, bunun ardınca da qısa müddətdə ABŞ-dan Azərbaycana iki ciddi nümayəndə heyəti gəlib".

**Ekspert vurğuladı ki, Azərbaycan ABŞ üçün çox vacib ölkədir. Azərbaycan bölgənin lider ölkəsidir və antiterror koalisiyasında illərdir iştirak edir. Mümkündür ki, yaxın vaxtlarda Amerika anti-İŞİD koalisiyasının da yaradılmasına başlasın və bu koalisiyada ABŞ-a daha çox müsəlman ölkəsinin də yer alması vacibdir:** “Düşünürəm ki, Bakı ilə Vaşinqton arasında bu istiqamətdə də danışıqlar gedəcək. Vaşinqton istəyəcək ki, Azərbaycan anti-İŞİD koalisiyasında yer alsın. ABŞ enereji-iqtisadiyyat, təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlıqdan, Azərbaycan da ABŞ-la əməkdaşlıqdan vaz keçmir. Ard-arda nümayəndə heyətlərinin səfərləri də bunu təsdiq edir. Vaşinqton Azərbaycanın dəyərini anlayaraq onunla əməkdaşlıqda maraqlıdır”. E.Şahinoğlu onu da dedi ki, ABŞ Azərbaycanın Rusiyanın nəzarəti altına düşməməsinə çalışır. Demokratiya və insan haqları məsələsində münasibətlər soyuq olsa da digər istiqamətlərdə münasibətləri sıxlaşdırmaqla Azərbaycanı Rusiyaya bağlanmaqdan mümkün qədər uzaqlaşdırmaq istəyirlər. Nə ABŞ, nə də Avropa Birliyi Azərbaycanın Rusiyanın caynağına keçməsində maraqlı deyil.

❑ **Etibar SEYİDAĞA**



# Konstitusiya Məhkəməsi seçkinin nəticələrini təsdiqlədi-müxalifət nə deyir?

**İqbal Ağazadə:** “Nəticələr ləğv olunmalı idi”
**Mirmahmud Mirəlioğlu:** “MSK sədrinə istiqlal ordeni verilməlidir”



**Konstitusiya Məhkəməsi noyabrın 1-də keçirilən parlament seçkilərinin nəticələrini təsdiqlədi. Seçkilərlə bağlı sonuncu instansiya məhkəməsinin qəbul etdiyi qərar heç də cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. Çünki günlər öncədən KM-in10-a yaxın dairənin nəticələrini ləğv edəcəyi barədə fikirlər dolaşırdı. Amma gözlənilənlərin əksi oldu.**

Seçkilərlə bağlı yalnız 90 saylı Ağdaş seçki dairəsinin nəticələri Mərkəzi Seçki Komissiyası tərəfindən ləğv olundu. 1 noyabrda qalib elan edilən bitərəf namizəd Çingiz Əsədullayevin mandatının ləğv olunmasına isə “MTN işi”nin təsirinin olduğu heç kəsə sirr deyil.

Ölkə müxalifətinin Konstitusiya Məhkəməsinin qərarı ilə bağlı mövqeyini öyrəndik.

Seçkilərdən keçən müddət ərzində ən çox müzakirə mövzusuna çevrilən dairə 35 saylı Xətai idi. Bir çoxları Konstitusiya Məhkəməsinin ləğv edəcəyi dairələr içərisində ilk sırada məhz bu dairəni görürdü.

**Qələbəsinin oğurlandığını iddia edən Ümid Partiyasının sədri İqbal Ağazadə məhkəmənin qərarına sərt təpki verdi:** “İndiyə qədər iki məhkəmədən keçdik. Bu məhkəmələr nəyi araşdırmışdı ki, Konstitusiya Məhkəməsi də araşdırardı? Bu məhkəmənin araşdıracağı bir şey yox idi. 35 saylı dairədə əslində böyük araşdırmaya da ehtiyac yox idi. Məntəqələrin möhürlü protokolları var idi. Bu protokollarla qalib idim. Buna görə nəticələr ləğv olunmalı idi. Amma bunu etmədilər. Bu baxımdan Konstitusiya Məhkəməsinin belə qərar qəbul edəcəyini gözləyirdik. Bir neçə dairənin ləğv ediləcəyi fikirlərinə qatılmamışdım. Bu fikirlərlə bağlı mövqe də ifadə etməmişdim. Hansısa dairənin ləğv ediləcəyi barədə bir siqnal olardısa, əlimizdəki protokollarla dairə ləğv olunmalı idi. Bunu ya MSK, ya Apelyasiya Məhkəməsi, ya da Ali Məhkəmə etməli idi. Konstitusiya Məhkəməsinə saxlamağa gərək yox idi”.

**KXCP sədri Mirmahmud Mirəlioğlu qərarın gözlənilən olduğunu bildirdi:** “Bu cür də qərar olmalı idi. İctimai rəyi çaşdırmaq üçün bəzi mənbələrdən məlumat daxil olmuşdu ki, nəinki 9, hətta 13-14 dairə ləğv olunacaq. Hakimiyyətin ədalətinə inanmaq görkəmi yaratmağa çalışdılar. Guya ki, ədalət bərpa olunacaqdı. 125 dairədən 25-30-u belə ləğv olunsaydı, bunun ədalətinə inanmaq olmazdı. Sağ olsunlar ki, heç olmasa 15 dəqiqəlik müşavirə ediblər, 3 dəqiqəlik olmayıb. İstəsələr, elektron variantla da edə bilərdilər. Əziyyət çəkməzdilər, çünki yazıqlar çox əziyyət çəkdilər. Məhkəmə paltarlarını geyinib, soyunublar. Seçkinin nəticələrinə görə, həm Konstitusiya Məhkəməsinin, həm də Mərkəzi Seçki Komissiyasının sədrinə ”İstiqlal" ordeni verilməlidir. Mərkəzi Seçki Komissiyası əslinə qalsa, belə adlanmalıdır. Bu işdə əməyi olan hər kəs üçün Rusiyanın dostluq ordenini Putindən xahiş etmək lazımdır ki, təqdim etsin".

**Müsavat Partiyasının İcra Aparatının rəhbəri Gülağa Aslanlı da qərarı gözlədiklərini bildirdi:** “Azərbaycan reallığında Konstitusiya Məhkəməsinin qərarı gözlənilən idi. Müsavat Partiyası bir daha məsuliyyəti öz üzərindən götürmək üçün Konstitusiya Məhkəməsinə müraciət etdi ki, bu cür seçkinin nəticələrini təsdiq etməklə MSK-nın saxtakarlığına ortaq olacaqsınız. Amma yenə də bu cür qərar qəbul ediləcəyini gözləyirdik. Azərbaycan hakimiyyətinin saxtakarlığını təsdiqləyən faktdır”.

❑ **Cavanşir ABBASLI**



# Yıxılın yatın, düzələcək

Zamin HACI
zaminhaci@gmail.com

"Gecənin xeyrindən, gündüzün şəri yaxşıdır"
**(Azərbaycan ata sözü)**

**Türkiyə Rusiyanın hərbi uçağını sərhəd pozuntusuna görə vurub saldı. Dünən bununla bağlı azərbaycanlıların müzakirələrinə diqqətlə baxdım. Bəziləri deyirdi gərək bizim hökumət türkmənləri qorusun, Türkiyə ilə bir yerdə olsun. Rusiyaya nota verməliyik-filan.**

Doğrusu, öz torpağını, ərazi bütövlüyünü 23 ildir qoruya bilməyən, üstəlik, bunun taleyini başqalarına həvalə edən dövlət Rusiyaya qarşı nə edə bilər, türkmənləri necə qoruya bilər, bu haqda düşünmək belə faydasızdır. Üstəlik, işğal edilən torpağımızı "tapşırdığımız" 3 dövlətdən biri elə Rusiyadırsa.

Məncə, Azərbaycan özünü bir məşhur lətifədəki kimi aparmalıdır. Bir nəfər gecə küçədə iki sərxoşa rast gəlir, sərxoşlar bıçaq çıxarıb bunun böyürlərinə dirəyirlər, deyirlər bizim mərcimiz var, gərək onu həll edəsən: "Bu göydəki Aydır, yoxsa Günəş?" Adam baxır durum xarabdır, Ay desə də vurulacaq, Günəş desə də, dərhal cavab verir: "Qardaşlar, mən buralı deyiləm, yoldan keçirəm, düzünü buralı olanlar bilər". Biz gərək özümüzü belə aparaq. Sanki heç nə olmayıb.

Prinsipcə, elə bu cür də aparırıq. Mən məsləhət görsəm, görməsəm belədir. Rahatı budur. Rusiya özü Putinin səfeh siyasətinə uyub Əsədə dəstək adıyla bölgədə aktivləşdi, bəyəm bundan sadə ruslar xeyir gördülər? Əksinə, terrorla üz-üzə qaldılar, artıq rusların Orta Doğuda itirdiyi vətəndaş sayı 250-yə yaxınlaşır. Bir ata sözümüzdə deyilən kimi, iki dəvə əlləşəndə otluq xarab olar. Ən yaxşısı neytral qalmaqdır. Türkiyəyə, Rusiyaya, Suriyaya, İrana, İraqa, ABŞ-a, Avropaya, lazım gəlsə hətta İŞİD-mişidə də hörmətimizi bildirib başımızı qoruyaq. Balans siyasəti - bizdə bunun adı belədir.

Yeri gəlmişkən, dünən həmin balanslı siyasətin daxili hissəsinin tərənnümü deputatxanada yaşandı. Spikeri, onun müavinlərini təzədən öz kreslolarına təsdiqlədilər, dövlət büdcəsindən yeni spikerin ölçüsünə uyğun kreslo almaq lazım gəlmədi. Niyə də yenisi olsun? Guya təzə gələn Oqtay müəllimdən yaxşı spiker olacaq? Heç olmasa bu yeyib doyub, deyib gülüb, düymələyib, dürtmələyib, inceləyib...

Biz dəyişiklik arzularının xalqları qana boyadığını görürük. Misal üçün, indi Suriyada başlanan qırğın elə dəyişiklik arzusundan yaranıb. İnsanlar 70 ilə yaxın sürən Əsəd sülaləsinin hakimiyyətindən bezmişdilər. İllərlə cəmiyyətdə yığılan problemlər birdən qaynadı, qapağı atdı, qazan çevrildi. Hamı yandı. Suriyalılar bir-birini qırırlar, ölkədən qaçırlar. Sən hansı ağılla belə bir ölkədə dəyişiklik istəyirsən? Təsəvvür elə, hamı "Allahu-əkbər" deyib o birinə güllə atır. Srağagün baxdım, hətta türkmənlər də belə deyirdilər. Bəşər Əsədin ətrafında sıx birləşmək əvəzinə gör nə istəyirlər. Bəlasını da çəkirlər.

Sözümün canı odur ki, bezmək lazım deyildi. Yenə başqa bir lətifədən sitat gətirsək, "uça bilmirsənsə, gərək hoppanıb düşməyəsən". Ərəb hara, bahar hara? Heç coğrafi baxımdan da düz gəlmir, o qurşaqda yazın gəlişini, fəsillərin dəyişməsini çox cüzi hiss eləmək olur. İnqilabı qoy fransız eləsin, ukraynalı eləsin, gürcü eləsin... Ərəbin, azərbaycanlının, farsın, rusun inqilabı çox təhlükəli nəticələr verir. Bizim üçün ən yaxşı yol, yuxarıda yazdım, sakit oturub baxmaqdır. Hətta yatsaq daha yaxşı olar. Vəziyyət düzələndə qalxarıq.

Mən son vaxtlar belə qərara gəlmişəm ki, klassik yazıçılarımızın milləti oyanmağa səsləməsi çox yanlış addım olub. Ən çox da bu işlə Mirzə Cəlil məşğul olurdu. Görünür naxçıvanlı damarı tərpənibmiş. Rəhmətliyin oğlu, bərk qışqır-bağır saldın, biz də oyandıq, bunun dünyaya nə xeyri var? Bizim yatmağımız qat-qat xeyirlidir. Özü də müsbət haldır ki, ruslardan fərqli olaraq bizim yatmağımız üçün nəsə içməyimiz lazım deyil. Elə ayaq üstdə yatırıq.



# Yeni "qaz savaşı"nın fitili çəkildi - Azərbaycan da, Ermənistan da oyunda

## Putinin İranda erməni qaz kəmərini də müzakirə etdiyi iddiası var; Rusiya xarici işlər nazirinin bu gün başlayan Türkiyə səfəri təkcə Suriya böhranı ilə bağlı deyil...

**İranda qaz OPEC-i ölkələrinin sammiti davam edir. Sammit çərçivəsində diqqətdə saxlanılan mövzulardan biri də məlumatlara görə, beynəlxalq sanksiyalardan qurtulan İranın nəhəng qaz ehtiyatlarının Avropaya mümkün nəqli marşrutları ilə bağlıdır.**

Hələ sammit ərəfəsində ölkənin neft naziri Bican Namdar Zəncani bəyan eləmişdi ki, Tehran Avropaya yönəlik ixrac qaz kəməri marşrutlarına malik deyil və bu yöndə Türkiyə və başqa ölkələrlə intensiv danışıqlar aparır. Nazir "başqa ölkələr" deyərkən ad çəkməmişdi. Tranzit ölkələri arasında isə Ermənistanın və Gürcüstanın da adı hallanır.

Artıq bəllidir ki, rəsmi Tiflis də İran qazına maraq göstərir. Bununla bağlı Gürcüstan hökumətinin açıqlamalarında qaz kəmərinin Ermənistandan keçə biləcəyinə də işarə vurulub. Məsələ ortaya çıxan kimi Ermənistan prezidenti Serj Sərkisyanın təcili Tiflisə səfər etməsi, ondan az sonra Azərbaycan prezidenti İlham Əliyevin də qonşu ölkəni ziyarət eləməsi bir sıra təhlilçilər tərəfindən həm də qaz mövzusu ilə əlaqələndirilmişdi - baxmayaraq ki, bu xüsusda nə Əliyevin, nə də Sərkisyanın səfərlərinin yekununda heç bir rəsmi açıqlama səslənmədi.

Diqqəti çəkən həmçinin hər iki prezidentin Gürcüstan hökumətinin ideoloqu və "boz kardinalı" sayılan, sabiq baş nazir və milyarder Bidzina İvanişvili ilə də bir araya gəlməsi oldu. Lakin İran qazının Ermənistan vasitəsilə Gürcüstana nəqlində Rusiyanın ("Qazprom"un) razılığı tələb olunur, çünki belə bir kəmər satellit Ermənistanın Moskvadan energetik asılılığını azaltmaqla yanaşı, rəsmi Tehranın Güney Qafqaza, İrəvana və Tiflisə təsir imkanlarını artıra bilər. Odur ki, Kremlin bu perspektivi önləmək üçün hərəkətə keçdiyi istisna olunmur.

İran mənbələrinin iddiasına görə, Rusiya prezidenti Tehranda İran tərəfi ilə bu yöndə də danışıqlar aparıb. İddia olunur ki, Putin Rusiyadan İrana mübadilə qazının Azərbaycan vasitəsilə çatdırılması barədə danışıb. Bundan qabaq isə məlumatlar yayılmışdı ki, Rusiya mübadilə qazının Gürcüstan və Ermənistan vasitəsilə İrana çatdırılmasını təklif edib...

*****

Aydındır ki, İran öz qazını hansısa yolla, daha doğrusu, sərfəli və təhlükəsiz marşrutla Avropa bazarına çıxarmağa çalışır. Bundan ötrü iki marşrut mövcuddur - Türkiyə və Ermənistandan keçməklə, Gürcüstan variantı. Bəzi informasiyalara əsasən, Türkiyə tərəfi bundan ötrü İrandan kifayət qədər yüksək maliyyə və siyasi stavka tələb edir. Ermənistan və Gürcüstan marşrutuna isə Rusiya əngəl yaradır.

İstənilən halda məsələ hansısa şəkildə həllini tapmalıdır. Hansı şəkildə? "Putin Tehranda İran rəsmiləri ilə erməni borusunu da müzakirə edibmi, hansı boru xətti ki, məhz elə "Qazprom"a məxsusdur", - deyə aparıcı erməni nəşrlərindən olan Iragir.am sual edib. Nəşrin yazdığına görə, **"Kreml başçısı Ruhaniyə bu yöndə sərfəli təklif edə bilər, çünki Rusiya da öz qazını hansısa yolla satmalıdır - hansı qazdan ki, Avropa imtina edir. Putin isə bu qazı İrandan (mübadilə) və Türkiyədən savayı heç kimə satmaq imkanlında deyil".**

Yeri gəlmişkən, İranın neft naziri onu da bəyan eləmişdi ki, ölkəsi Avropa bazarında Rusiya bazarına sahib çıxmağa hazırlaşmır. Lakin İran Rusiya üçün Suriya məsələsində nə qədər önəmli tərəfdaş və sərfəli silah alıcısı olsa da, fakt budur ki, qaz bazarlarında onlar rəqibdir və Tehran istər-istəməz Türkiyə ilə, Avropa Birliyi ölkələri ilə isti münasibətlər saxlamaq zorundadır. Nədən ki, təbii qazın əsas alıcısı, ödəyicisi Avropadır, Rusiya yox.

Sanksiyalardan təzəcə qurtulan İran büdcəsində isə neft-qaz dollarları mühüm yer tutur. Elə Rusiyadan müasir silah-sursatın da, zenit-raket komplekslərinin də pulunu ödəmək üçün yenə ABŞ dollarlarına ehtiyac var. Bu mənada nə qədər təzadlı görünsə belə, Moskva əslində Tehranın varlanmasında da maraqlıdır ki, öz bahalı hərbi məhsullarını ona satıb gözlənilən iqtisadi tənəzzüldən maksimum yayına bilsin.

*****

O ki qaldı Rusiyanın ikinci qaz alıcısı və iqtisadi tərəfdaşı Türkiyəyə, hazırda bu iki ölkə arasında münasibətlər Suriya böhranına görə heç də isti dönəmini yaşamır. Ankaranın Moskvaya qısa müddətdə ikinci nota təqdim eləməsi və Rusiya ilə bağlı BMT Təhlükəsizlik Şurasının təcili toplantısını tələb etməsi, dünən isə Türkiyə-Suriya sərhədində, türkmənlər yaşayan ərazidə rus qırıcısının vurulması münasibətləri daha da gərginləşdirib.

Şübhəsiz ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun bu gün Türkiyəyə başlayacaq səfərində bu və digər məsələlərə xüsusi önəm ayrılacaq. Erməni nəşri isə bununla bağlı başqa bir maraqlı detala toxunub. Sitat: **"Maraqlıdır, görəsən Moskva Ankaraya bu dəfə "yem" (güzəşt-red.) kimi nə təqdim edəcək. Güman eləmək olar ki, bu, yenə də Ermənistanın maraqları ilə bağlı olacaq".**

Yəni söhbət Dağlıq Qarabağ məsələsindən də gedə bilər, "Türk axını" və ya İran qazının nəqli marşrutlarında güzəştlərdən də. Bir şey dəqiqdir ki, şimal qonşumuza indi nə İranı, nə də ələlxüsus Türkiyəni incitmək, özündən uzaqlaşdırmaq istəmir. Türkiyənin isə Rusiya ilə üstəlik, "Türk axını" kimi ortaq, fəqət hələlik düyünə düşən qaz layihəsi birləşdirir.

Beləcə, OPEC qaz sammiti bölgədə yeni "qaz savaşı"nın fitilini çəkmiş kimi görünür. Oyunda isə indi işğalçı Ermənistan da daxil, hamı var.

❑ **Analitik xidmət**



# İlham Əliyev Sərkisyanla Parisdə görüşəcək?

**"Azərbaycan və Ermənistan prezidentləri dekabrın 1-də Parisdə görüşəcəklər".**

Bu barədə Ermənistanın "Qraparak" qəzeti məlumat yayıb.

Qəzet qeyd edir ki, Parisdə danışıqlar masasında yeni təkliflər olmayacaq, tərəflər əsasən atəşkəs rejiminə əməl etmək və danışıqları davam etdirmək məsələlərinə toxunacaqlar.

Məlumata görə, noyabrın 30-dan dekabrın 11-dək Parisdə 21-ci BMT İqlim Dəyişikliyi Konfransı keçiriləcək. Konfransa 195 ölkənin dövlət və hökumət rəhbərləri dəvət olunub. Azərbaycan və Ermənistan prezidentlərinin də bu toplantı çərçivəsində görüşmələri gözlənilir.

# Yeni parlament ilk iclasını keçirdi

## Milli Məclisin sədri və müavinləri dəyişmədi; parlament komitələrinin sayı isə artırıldı; 3 rektor-deputat komitə sədri seçildi



**Noyabrın 24-də Konstitusiya Məhkəməsi 1 noyabr parlament seçkilərinin nəticələrini təsdiqlədikdən dərhal sonra beşinci çağırış Milli Məclisin ilk iclası keçirilib. Prezident İlham Əliyevin də iştirak etdiyi iclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açıb. O deyib ki, MM-in daxili nizamnaməsinin 2-ci maddəsinə görə, yeni seçilmiş Milli Məclisin birinci iclasını ən yaşlı deputat aparır. Bu missiya isə Milli Məclisin deputatı Fəttah Heydərova nəsib olub. İclasa sədrlik edən deputat Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov beşinci çağırış Milli Məclisin iclasını açıq elan edib. Daha sonra dövlət himni səslənib.**

**Ardınca prezident İlham Əliyev beşinci çağırış Milli Məclisin birinci iclasında nitq söyləyib.**

"V çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibəti ilə sizi təbrik edirəm. Noyabrın 1-də keçirilən seçkilər Azərbaycan xalqının iradəsini əks etdirir. Seçkilər şəffaf və ədalətli şəkildə keçirilib, bunu beynəlxalq müşahidəçilər də təsdiq edib". APA-nın məlumatına görə, bunu İlham Əliyev V çağırış Milli Məclisin ilk sessiyasında çıxışında deyib. Dövlət başçısı bildirib ki, bu seçkilərlə Azərbaycan demokratiya yolunda növbəti uğurlu addım atıb: "Azərbaycan demokratiyaya sadiqdir və ölkəmizdə bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir. Son illər ölkədə gedən inkişaf prosesləri bu seçkinin nəticələrinə də mühüm təsir göstərib".

**Prezident deyib ki, ölkəmizin beynəlxalq nüfuzu artır, dünyada etibarlı tərəfdaş kimi tanınır:** "Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edir, bu da vətəndaşların həyatına təsir edir. Yoxsulluq və işsizliyə qarşı mübarizə sahəsində Azərbaycan ciddi nailiyyətlər qazanıb. Bütün bu uğurların təməlində sabitlik dayanır".

### Prezident İlham Əliyev: "Bu seçkilərlə Azərbaycan demokratiya yolunda növbəti uğurlu addım atıb"

**Ölkə başçısı çıxışında Qarabağ məsələsinə xüsusi yer ayırıb.** "Azərbaycanda millətlər və dinlərarası münasibətlər ən yüksək səviyyədədir. Bu məsələdə dövlət siyasəti ilə ictimai dəstək vəhdət təşkil edir"- deyə, İlham Əliyev söyləyib. Dövlət başçısı bildirib ki, V çağırış Milli Məclisin qarşısında yeni çağırışlar durur: "Hələ də problemlər var və əsas diqqət həmin problemlərin həllinə yönəlməlidir. Bu sırada ilk yeri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tutur. Ermənistan münaqişənin nizamlanmasında maraqlı deyil. Beynəlxalq hüquq və tarixi ədalət Azərbaycanın tərəfindədir, münaqişənin həlli ilə bağlı BMT və digər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul ediblər. Xalqımız imkan verməz ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın".

**İlham Əliyev deyib ki, ATƏT-in Minsk Qrupunun fəaliyyəti hələlik səmərə vermir:** "Bununla belə, diplomatik və siyasi səylər davam etdiriləcək. Münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi vacibdir. Azərbaycanın hərbi potensialının gücləndirilməsi prioritetdir. Bu, ölkəmizin təhlükəsizliyi üçün vacibdir".

Qeyd edək ki, ilk iclas məhdud sayda media mənsublarının iştirakı ilə keçirildiyindən prosesi birbaşa izləyə bilmədik. "AzərTAc"ın məlumatına görə, iclasda daha sonra parlamentin rəhbərliyi seçilib. Milli Məclisin daxili nizamnaməsinə uyğun olaraq, hakim Yeni Azərbaycan Partiyası (YAP) parlamentin sədr vəzifəsinə yenidən deputat Oqtay Əsədovun namizədliyini irəli sürüb. Qabaqcadan spiker postuna başqa bir deputatın gətiriləcəyi və ümumiyyətlə, sədarətin yenilənəcəyi barədə proqnozlar özünü doğrultmayıb. YAP isə yalnız iclasdan təqribən bir saat öncə öz namizədinin O.Əsədov olduğunu açıqlamışdı. Oqtay Əsədov Milli Məclisin sədri vəzifəsinə onun namizədliyinin irəli sürülməsinə görə hakim Yeni Azərbaycan Partiyasının sədrinə və partiya həmfikirlərinə minnətdarlığını bildirib.

Modern.az saytı xəbər verir ki, iclasda diqqət çəkən məqamlardan biri də deputatlardan kimin kiminlə yanaşı əyləşməsi olub. Milli Məclisin köhnə deputatlarından bəziləri bu dəfə mandat qazana bilmədiyindən bir sıra millət vəkilləri "parta yoldaşı"nı dəyişməyə məcbur olub. Məsələn, əvvəlki çağırış boyu deputatlar Fazil Mustafa və İlyas İsmayılov yanaşı əyləşirdilər. Amma İlyas İsmayılov beşinci çağırış Milli Məclisə deputat seçilə bilmədiyindən Fazil Mustafa ilk iclasda YAP-çı İmamverdi İsmayılovla yanaşı əyləşib.

Dördüncü çağırışda deputat Aslan Cəfərovla yanaşı əyləşən Fuad Muradov da "parta yoldaşı"nı dəyişməyə məcbur olan millət vəkillərindəndir. Belə ki, YAP-çı Aslan Cəfərov beşinci çağırış Milli Məclisə düşə bilmədiyindən, ilk iclasda Fuad Muradov deputat Adil Əliyevlə yanaşı əyləşib.

Hesablayıcı Komissiyanın sədri İsa Həbibbəyli səsvermənin keçirilməsi qaydaları haqqında məlumat verib. Sonra Milli Məclisin sədri vəzifəsinə gizli səsvermə keçirilib və gizli səsvermədə iştirak edən 124 deputatın hamısı Oqtay Əsədovun namizədliyinin lehinə səs verib. 2005-ci il dekabrın 2-dən bəri parlamentin sədri vəzifəsini tutan O.Əsədov yenidən bu posta seçilməsindən dolayı ona göstərilən etimada görə minnətdarlığını bildirib.

Daha sonra qeyd olunub ki, Milli Məclisin daxili nizamnaməsinin 2-ci maddəsinə əsasən yeni çağırış MM-in ilk iclasında seçilən deputatların siyahısı oxunmalı, Hesablayıcı Komissiya və Milli Məclisin sədri seçilməlidir. Ardınca F.Heydərov beşinci çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.

Bunun ardınca Milli Məclis sədrinin müavinləri, eləcə də komitələrin sədrləri seçilib. Keçən çağırışda olduğu kimi, deputatlar Ziyafət Əsgərov Milli Məclis sədrinin birinci müavini, Bahar Muradova və Valeh Ələsgərov sədrin müavinləri seçiliblər. Z.Əsgərov, B.Muradova parlamentdə deputatları çoxluq təşkil edən YAP-ı təmsil edir, V.Ələsgərov isə bitərəfdir.



Milli Məclis 4 yeni komitənin yaradılması ilə bağlı qanun layihəsini qəbul edib. Beləliklə, parlamentdə Səhiyyə, Ailə, qadın, uşaq məsələləri, Gənclər və idman, İctimai birliklər və dini qurumlar komitələri yaradılıb. Həmçinin köhnə komitələrin bəzilərinin adları yenilənib. Bundan sonra Təhlükəsizlik və müdafiə məsələləri komitəsi Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İqtisadi siyasət komitəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq, Sosial siyasət komitəsi isə Əmək və sosial siyasət komitəsi adlandırılacaq. Ümumilikdə isə V çağırış Milli Məclisdə 16 komitənin fəaliyyət göstərməsi nəzərdə tutulur. Səsvermə nəticəsində deputat Əli Hüseynli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Ziyad Səmədzadə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Valeh Ələsgərov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Eldar İbrahimov Aqrar siyasət komitəsinin, Hadi Rəcəbli Əmək və sosial siyasət komitəsinin, Arif Rəhimzadə Regional məsələlər komitəsinin, İsa Həbibbəyli Elm və təhsil komitəsinin, Rafael Hüseynov Mədəniyyət komitəsinin, Bahar Muradova İnsan hüquqları komitəsinin, Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Əhliman Əmiraslanov yeni yaradılan Səhiyyə komitəsinin, Aqiyə Naxçıvanlı yeni yaradılan Ailə, qadın və uşaq məsələləri komitəsinin, Siyavuş Novruzov yeni yaradılan İctimai birliklər və dini qurumlar komitəsinin, Fuad Muradov yeni yaradılan Gənclər və idman komitəsinin sədrləri təsdiq ediliblər. Bununla da beşinci çağırış Milli Məclisin ilk iş günü başa çatıb.

Modern.az saytı xəbər verir ki, Milli Məclisə yenidən deputat seçilmiş dörd nəfər rektorluqla vidalaşmalı olacaq. Bunlar Azərbaycan Dillər Universitetinin rektoru Səməd Seyidov, Azərbaycan Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı, Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasının rektoru Ağacan Abiyev, Azərbaycan Dövlət Tibb Universitetinin rektoru Əhliman Əmiraslanovdur. Onlar deputat mandatı aldıqdan sonra rektorluqdan istefa verəcəklər. Qeyd edək ki, bu ilin sentyabr ayında verilən qərara əsasən, YAP-dan namizədliyi irəli sürülmüş rektorlar deputat seçiləcəkləri təqdirdə, vəzifədən getməlidirlər. Bu qərara uyğun olaraq Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov və Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova deputatlıqdan imtina edərək, rektor qalmağa üstünlük veriblər. Rektorluqdan istefa verməsi gözlənilən 4 şəxsdən 3-nün Milli Məclisdə ayrı-ayrı komitələrə rəhbər seçilməsi isə maraqla qarşılanıb. Hesab olunur ki, rektor deputatların könlünü almaq üçün onlar komitə sədrliyinə gətirilib. Yalnız Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasının rektoru Ağacan Abiyev komitə sədri seçilməyib. Mədəniyyət komitəsinin keçmiş sədri Nizami Cəfərovun R.Hüseynli ilə əvəzlənməsi isə suallar doğurub. Lakin N.Cəfərov telefonu açmadığından sualımız cavabsız qaldı.

**İlk iclasla bağlı bəzi deputatların mövqeyini soruşduq.**

**Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa "Yeni Müsavat"a bildirdi ki, prezidentin çıxışında Azərbaycanın prioritet istiqamətləri diqqətə gətirildi:** "Qarabağ məsələsi, Milli Məclisin fəaliyyət istiqamətləri və iqtisadi çətinliklər, böhranlı ərəfədə Azərbaycanın daha mobil siyasət izləməsinin vacibliyi vurğulandı. Əsas bunlar idi. Həmçinin çıxışda ATƏT-in Minsk Qrupunun fəaliyyətinə, dünya birliyinin ikili standartlarına toxunuldu və ənənəvi mövqe təkrar olundu".

**Milli Məclis rəhbərliyinin seçilməsinə gəldikdə, F.Mustafa heç bir ciddi dəyişikliyin olmadığını, sədarətin köhnə qaydada seçildiyini vurğuladı:** "Komitələrdə dəyişiklik oldu, 4 yeni komitə yaradıldı və yeni sədrlər seçildi. Bu mənada parlamentdə bir yeniləşmə oldu. Lakin müxalifətin hansısa təmsilçiliyi nəzərdə tutulmadı".

**Deputat bildirdi ki, iclasda şəxsən hansısa bir təşəbbüslə çıxış etməyib:** "Təşəbbüsün mənası qalmır. YAP çoxluğu təşkil edir və istədiyi adamı seçə bilir. Bu təklifin YAP tərəfindən dəstəklənməsi lazım idi. Ona görə də hansısa təkliflə çıxış etməyin də mənası yoxdur".

### Fazil Mustafa: "YAP çoxluğu təşkil edir və istədiyi adamı seçə bilir"

**MM-ə ilk seçilən deputatlardan biri, Vəhdət Partiyasının sədri Tahir Kərimli "Yeni Müsavat"a bildirdi ki, təəssüratları müsbət, həm də qeyri-adidir:** "Mən uzun illərdən sonra parlamentə qayıtmışam. 1990-95-ci illərdə parlament üzvü olmuşam, o vaxt da Ali Sovetin deputatı kimi seçilmişdim. İndi Milli Məclisin deputatı kimi fəaliyyət göstərmək başqa hissdir. Mən həmişə məmur vəzifəsində çalışmaqdansa, deputat olmağı arzulamışam. İlk iclas günü həm aparat işçiləri, həm də deputatlar arasında olan köhnə tanışları gördüm, səmimi bir ortam var idi. Cənab prezidentin çıxışından da məmnun oldum. Qarabağdan tutmuş, digər məsələlərə qədər çox məsələlərdən bəhs olundu. Həmçinin parlament rəhbərliyi seçildi. Ümumilikdə ilk günün təəssüratları müsbətdir". **Vəhdət sədri qarşıdakı dönəmin məsuliyyətini yaxşı başa düşdüyünü vurğuladı:** "Qanunvericilik fəaliyyətinə başlayıraq. Həm partiyam, həm də mənim özümçün yeni bir dönəm başladı, Allaha pənah, görək nə olur".

### Tahir Kərimli: "Həm partiyam, həm də mənim özüm üçün yeni bir dönəm başladı"

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

## Xüsusi İdarənin polkovnikindən yeni sensasion açıqlamalar

# "18 milyard inqilab pulu"nun sənədləri üzə çıxdı - şok təfsilat

Sabiq təhlükəsizlik zabiti bu işin içində 7-8 nazir var deyir; məsələyə AZAL prezidentinin də adı qarışıb; Eldar Mahmudovla Cahangir Hacıyevi İsveçrədəki "JBS" bankının İdarə Heyətinin erməni əsilli rəhbəri ilə nə bağlayır?

**"Eldar Mahmudovun Gəncədə moteli var. Oranın müdiri, Çingiz Əsədullayev və Cahangir Hacıyev - üçü birgə İsveçrədə "JBS" bankın İdarə Heyətinin sədri, erməni əsilli bir şəxslə danışıblar, orada hesab açdırıblar"**

Təqaüddə olan xüsusi xidmət polkovniki Tofiq Rəcəbov "Azərbaycana inqilab üçün 18 milyard gətirilmişdi" iddiasını səsləndirəndən sonra bir çoxları onun dediklərinə şübhə ilə yanaşdılar. Sosial şəbəkələrdə mövzu günlərlə müzakirə edildi. Bu qədər məbləğin ölkəyə hansı yolla gətirildiyi haqda müzakirələr aparılmağa başladı. İddianın reallıqdan uzaq olması haqda uzun-uzadı fikirlər səsləndirildi.

Yada salaq ki, T.Rəcəbov "Yeni Müsavat"a müsahibəsində demişdi ki, vaxtilə Xüsusi İdarədə işləyib. Təqaüdə göndəriləndən sonra isə bizneslə məşğul olub.

**Həmin müsahibədən sitat:** "Bu yaxınlarda mən biznesimlə əlaqədar İsveçrədə idim. Orada bir neçə adamla görüşdüm. Onlar təklif etdilər ki, bəzi məsələləri prezidentə çatdırmaq lazımdır, ölkəyə təhlükə var. Yəni bəzi nazirlər qrup halında birləşiblər. Xarici ölkələrin, xüsusən Avropanın və böyük dövlətlərin siyasi rəhbərliklərinə çıxış axtarırlar. Özlərinə dayaq axtarırlar ki, gələcəkdə hakimiyyətə yiyələnsinlər, öz əmlaklarını qorusunlar. Bakıya qayıdan kimi dərhal yazıb çox yüksək səviyyəli bir vəzifəliyə verdim. O da aparıb bunu verib Eldar Mahmudova. O da mənə çatdırdı ki, istəyirsən bu həyatda yaşayasan, bir də ağzına belə şey gətirmə. Akif Çovdarov qapımızı pusdururdu, oğlumu güdürdülər. Demişdilər ki, danışsan, oğlunu tutub yox edəcəyik. Bunlar 2 il əvvəl olub. 2013-cü ildə prezident seçkisindən əvvəl. Həmin pullar çevriliş etməyə xərclənməli idi. Həmin pullardan mənə də təklif etmişdilər. Demişdilər ki, zavodların var, o pulları zavodlarına ayıraq. Pulu seçkidən 2-3 ay əvvəl verməli idilər. Başa düşdüm ki, çevrilişə hazırlıq gedir".

*T.Rəcəbovla yenidən əlaqə saxlayıb müsahibəsindən sonra məsələ ilə maraqlananların olub-olmamasını xəbər aldıq.*

*T.Rəcəbov deyir ki, həmin müsahibədə söylədiyi fikirlərin üstündə qalır və istintaq orqanlarına da aparılacaq araşdırmada hərtərəfli kömək etməyə hazırdır:*

- Mənim "Yeni Müsavat"a söylədiklərim real informasiyalara əsaslanır. Yazı dərc olunandan sonra yalnız Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsindən maraqlanıblar. Onlara da demişəm ki, bu məsələnin araşdırılması onların səlahiyyətlərini aşır. Çünki işdə MTN-in yüksək çinli zabitlərinin adı hallanır, yüksək vəzifə daşıyan, bu gün də yüksək vəzifədə olan şəxslərin adları var. Bu işdə AZAL prezidenti Cahangir Əsgərovun da marağı olub. Əgər onun marağı olmasaydı, içində o qədər pul olan təyyarə Bakı Hava Limanına enə bilməzdi. Əlimdə dediklərimi təsdiqləyən sənədlər də var.

***- Həmin sənədlərdə kimlərin adı var, pulu kimlər qəbul edib?***

- Beynəlxalq Bankın İdarə Heyətinin sədri Cahangir Hacıyevlə işçisi Rəşad Qasımovun imzaları, möhürləri var. Pulu onlar qəbul ediblər. Bu gün də 18 milyard avro ortada yoxdur. Oğurlayıblar, ölkədən çıxarıb xaricdə banka yerləşdiriblər. Ötən müsahibəmdə bu işin təşkilatçıları haqda demişdim. Bu adamlar pul ölkəyə gəlməzdən əvvəl hazırlıqlarını görüblər. Pulun gələcəyindən xəbəri olan vəzifəliləri də "görüb"lər. Düşünməyiblər ki, məsələ nəzarətdən çıxıb ölkə rəhbərliyinə qədər gedib çıxa bilər. Pulun bura gətirilməsi məxfi əməliyyat kimi olub. Onların ağlına gəlməzdi ki, kimsə bundan xəbər tuta və məlumatı ötürə bilər. Bunu mənə deyəndən sonra MTN-də çalışan yaxın dostum vasitəsilə yazıb ötürdüm. Məcbur qalıb həmin pul ölkəyə gətirilən kimi burada tutdular. Əməliyyat mənim informasiyama əsasən keçirilmişdi. Məcbur qalıb pulu Cahangir Hacıyev qol çəkib Beynəlxalq Banka götürdü. Pulu Beynəlxalq Banka mədaxil ediblər. Faktiki isə həmin pul mədaxil olunmayıb, oğurlayıb xaricə göndəriblər. Pulun xaricə göndərilməsində Çingiz Əsədullayevin vasitəsilə "Azəriqazbank"dan istifadə olunub. Eldar Mahmudovun Gəncədə moteli var. Oranın müdiri Çingiz Əsədullayev və Cahangir Hacıyevlə birgə İsveçrədə "JBS" bankın İdarə Heyətinin sədri, erməni əsilli bir şəxslə danışıblar, orada hesab açdırıblar. Həmin erməni Türkiyə ermənisidir, türkcə danışa bilir. Çingiz Əsədullayevin vasitəsilə milyardlarla pul "JBS" banka köçürülüb. Hər gün Beynəlxalq Bank və "Azəriqazbank" vasitəsilə "JBS" banka 50 milyon pul ötürüblər. Əlimdə sənədlərin surəti var ki, həmin pullar Beynəlxalq Banka mədaxil olub. Faktiki isə pulu mədaxil etməyiblər, oğurlayıblar. Bir daha deyirəm ki, işdə adı olan adamların adlarını, telefon nömrələrini mən vermişdim. O adamlar Naxçıvandan idilər. Birinin qardaşı MTN-də, o biri başqa böyük vəzifədə işləyirdi. Nə bilirəmsə, yazıb Mədət Quliyevə də vermişəm.

***- Pul Bakı Hava Limanına nə vaxt göndərilib?***

- 6 fevral 2012-ci ildə.

***- Dediklərinizi şübhə altına alanlar ironiya ilə pulun sərnişin təyyarəsi ilə gətirildiyini deyirlər. Həmin pullar ölkəyə necə gətirilib?***

- Aydındır ki, pulu Azərbaycana yük təyyarəsi ilə gətiriblər. Söhbət 168 palletdən (bir pallet 100 milyon olub - E.M.) gedirsə, deməli, yük təyyarəsi və ya təyyarələri ilə gətiriblər. Bu gün də o pulun dalınca Bakıya gəlib-gedənlər var. Deyirlər ki, heç olmasa yarısını qaytarın.

***-Pullar kimin adına göndərilib?***

- Dediyim kimi pulu bir İran vətəndaşının adına göndəriblər.

***- O pulu göndərən kimdir?***

- Belə başa düşürəm ki, işin arxasında böyük dövlətlərin xüsusi xidmət orqanları dayanır. Sadəcə, Rusiya üzərindən göndərməklə iz azdırmağa çalışıblar. İstəkləri Azərbaycanda Yaxın Şərqdə baş verənləri təşkil etmək, sərvətləri rahatca daşıyıb aparmaq olub. Pullar Azərbaycanın müstəqil siyasət apardığını qəbul etmək istəməyən qüvvələrindir. Azərbaycanda nazirlər var ki, öz var-dövlətlərini qorumaq üçün belə qüvvələrlə iş birliyinə gediblər. Bu adamların arasında ermənilərlə qohumluğu olan da var!

***- Hətta beləsi də var? Ad çəkə bilərsiz?***

- Mən Xüsusi İdarədə işləyəndə icraatımda bu adamın atası haqda material olub. O vaxt mənə gətirib materialı təqdim etmişdilər. Adamı tutub gətirmişdilər. İşi araşdırırdım ki, adamı açıb buraxdılar. 3 il sonra isə onun oğlunu nazir qoydular.

***- Bu nə vaxt olmuşdu?***

-1999-cu ildə.

***- Həmin şəxs bu gün də nazirdir?***

- Bəli. Həmin adamın bacısı bu gün də ermənidə ərdədir.

***- Onu harada tutmuşdular?***

- Sərhədyanı zonada ermənilərlə danışanda onu görmüşdülər. Məsələ belə olmuşdu ki, adam guya çoban olduğu görüntüsünü yaratmaq üçün qabağına bir sürü qoyunu salıb özünü vermişdi erməni ilə sərhədə. Bu, gecə saat 4-də olmuşdu. Bir nəfər yerli sakin də təsadüfən oradan keçərkən erməni dilində danışıq eşitmişdi. O adam həmin o nazirin atasını tanımışdı. Görmüşdü ki, 2 erməni ilə söhbət edir.

***-Sizə verilən material necə oldu?***

- Adamı da, materialı da vermişdilər ki, araşdıraq, erməniyə hansı məlumatları ötürdüyünü, kimlərlə işlədiyini aydınlaşdıraq. Oradan adamı açıb buraxdılar, mən də materialı arxivə təhvil verdim.

***- Onu açıb buraxan kim idi?***

- İdarənin rəhbərliyi.

***- Adlarını deyə bilərsiz?***

- Hamı bilir ki, Xüsusi İdarənin rəisi Elman Qəmbərov olub. Onun müavini Mehrab müəllimin də məsələdən xəbəri vardı.

***- Dediyiniz şəxs hansı sfera üzrə nazirdir?***

- Arxivi qaldırıb baxsınlar. Biləcəklər ki, söhbət kimdən gedir. Bir adamın da adını deyirəm. İsgəndərov Sabir Əli oğlu. Onun adını da yazıb vermişəm. Bu adam ermənilərlə işləyir. Yazıb verirəm, amma baxmırlar. Qərarları çıxarıb verdim ki, bu adam Rusiyada ermənilərlə işləyir. Öz firmasının direktoru ermənidir. Erməni oğrularının əli ilə Rusiyadakı azərbaycanlılara hücumlar təşkil etdirir. Pyatiqorskda bu işlərlə məşğuldurlar. Onu tutub gətirmişdilər, 1 gün saxlayıb pulunu alıb yola saldılar. Burada dövləti cinayətdən söhbət gedirsə, tam, hərtərəfli araşdırma aparılmalıdır. 1 gün saxladılar, pulunu alıb buraxdılar. Bizə lazım olan odur ki, xalqımıza, dövlətimizə, prezidentimizə hər hansı bir zərər gəlməsin. Prezident gecə-gündüz torpaqlarımızın azad olunması üçün çalışır, bunlar da pul qoparmaq üçün yer axtarırlar. Millətə, camaata qan uddururlar.

***- Prezidentə müraciət etmisiniz?***

- Müraciətimdə göstərdiklərimin araşdırılması hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə aiddir. Əgər araşdırmayacaqlarsa, müraciətim olacaq. Ölkə prezidenti 2015-ci ili "Kənd təsərrüfatı ili" elan edib. Mən də kənd təsərrüfatı məhsullarını istehsal etmək üçün fabrik qurmuşam. 1 ildir ki, elektrik enerjisini vermirlər ki, işə başlayaq. 160 min manat tələb edirlər. Deməyim odur ki, hər məsələyə görə prezidentə müraciət etmək olmur. Prezident Administrasiyasına yazmışam.

**"İşin arxasında böyük dövlətlərin xüsusi xidmət orqanları dayanır... İstəkləri Azərbaycanda Yaxın Şərqdə baş verənləri təşkil etmək, sərvətləri rahatca daşıyıb aparmaq olub"**

***- Pul məsələsinə qayıdaq. Bu qədər pulu ölkəyə gətirmək, bunu gizli etmək nə dərəcədə ağlabatan olub?***

- Mən Eldar Mahmudovu ağılsız adam hesab etmirəm. O bu işdə tək deyil. Bu işdə bizim nazirlərimizin əli var.

***- Nazirlərin adını çəkə bilərsiz?***

- Məncə, 7-8 nazir var. Bu gün Eldar Mahmudov o adamların adını çəkmirsə, cinayət edir. Ola bilər ki, ona vəd veriblər ki, hər şey yaxşı olacaq. Amma bu məsələyə dövlət əncam çəkməlidir, bu adamlar müəyyən edilib cəzaları verilməlidir. Biz bu işdə prezidentə dəstək verməliyik. Bəzi nazirlər dəyişməlidir. Zakir Həsənov gözümüzün önündə Müdafiə Nazirliyini elə dəyişdi ki, bu gün hamı baxır, həsəd aparır. Səfər Əbiyevin vaxtında kimin ağlına gələrdi ki, 1 ilin içində ordumuz bu qədər dəyişə, güclənə, modernləşə bilər? Əbiyev sınıq-salxaq, qədimdən qalma, pas atmış silahları alıb yığmışdı anbarlara, pulu da basıb yemişdilər. Deməyim odur ki, Səfər Əbiyev kimi fikri ancaq sərvət toplamaq olan nazirlər daha cavan və səriştəli kadrlarla əvəz olunmalıdırlar. Çünki bu adamlar vəzifələrində qalmaq, sərvətlərini qorumaq üçün bütün oyunlara gedirlər. Məncə, Eldar Mahmudovu bu işdə aldadıblar. O, həmin posta təyin olunanda prezidentə sadiq olub. Onun ətrafında olan adamlar var, onu cızığından çıxaran onlar olub. Avropada bunların böyük bir təşkilatları var. Təşkilatın gizli üzvləri var, həmin adamlar bizim nazirlərdir. Məqsədləri dünyada söz sahibi olan dövlətlərin rəhbərliklərinə çıxmaq, onların dəstəyini qazanmaqdır.

***- Sizcə, müraciətlərinizə müvafiq qurumların reaksiya verməməsi nə ilə bağlıdır?***

- İçlərində xof var. Mahmudovdan çəkinirdilər. Çox adamı da tutmayıblar deyə hələ də qorxu, xof qalır. Əgər bu gün həmin adamlar tutulsa, Prezident Administrasiyasının, Baş Prokurorluğun binaları qarşısında xeyli zərərçəkən sahibkar çıxıb haqqını tələb edəcək. Prezidentin siyasi iradəsi olmasaydı, bugünkü gündə Eldar Mahmudova heç nə deyən olmayacaqdı.

**Redaksiyadan:** *Yazıda adları çəkilən hər kəsin mövqe və cavablarını dərc etməyə hazırıq.*

**E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**"Zakir Həsənov gözümüzün önündə Müdafiə Nazirliyini elə dəyişdi ki, bu gün hamı baxır, həsəd aparır. Səfər Əbiyevin vaxtında kimin ağlına gələrdi ki, 1 ilin içində ordumuz bu qədər dəyişə, güclənə, modernləşə bilər?"**


THE INTERNATIONAL BANK OF AZERBAIJAN

Safekeeping receipt - SKR
Ref. 3874234N.IBA68744S.PLT168DB.FR.DE/64763R.SHSA17RLN
Date, February 06, 2012

Profile – 168 pallets euros in warehouse Baku airport is as follow:
The main location at, Deutsche Bank Frankfurt am Main 60325 Germany P.O.Box 4306 Frankfurt
Final whereabouts pallets, Warehouse Azerbaijan airport WAAZ
Where to send pallets, Warehouse airport Frankfurt - WAFR
Place of delivery pallets, Warehouse Azerbaijan airport WAAZ
Transfers on, February 06, 2012
Quantity, 168 pallets
Code currency, Euro / €
Each Box, 100 Million euros
Packing list no. BRINKS874367-171-46-16-674DB.FR.DE836432SHSA17RLN
Owner, Mr. SEYED SALEH HOSSEINI – Son SEYED ABOLHASSAN – Pass no. B 19424902
Airway bill no. 388-241DB.FR.DE763-83WAAZ836432SHSA17RLN


Details / cargo 168 pallets euros in warehouse airport International Azerbaijan WAAZ is as follow:

Safekeeping receipt no. SCFRT388-171DB.FR.DE737-644WAAZ836432SHSA17RLN
Confirmation cargo – CC no. SCFRT388-171DB.FR.DE738-646WAAZ836432SHSA17RLN
Information cargo – IC no. SCFRT388-171DB.FR.DE741-647WAAZ836432SHSA17RLN
Certificate document – CD no. SCFRT388-171DB.FR.DE742-648WAAZ836432SHSA17RLN
Root letter – RL no. SCFRT388-171DB.FR.DE743-661WAAZ836432SHSA17RLN
Packing list no. BRINKS874367-171-46-16-674DB.FR.DE836432SHSA17RLN
Airway bill no. 388-241DB.FR.DE763-83WAAZ836432SHSA17RLN
Date, 2012-02-06
Quantity, 168pallets
Each pallet 100 Million Euro(s)
Owner, Mr. SEYED SALEH HOSSEINI - Son SEYED ABOLHASSAN – Pass no. B 19424902

Access code:SCFRT388-171-12-16DB.FR.DE771-664WAAZ836432SHSA17RLN
Release code:SCFRT388-171-12-16DB.FR.DE773-667WAAZ836432SHSA17RLN
Transfer code:SCFRT388-171-12-16DB.FR.DE774-668WAAZ836432SHSA17RLN

Use code:388-171DB.FR.DE776-671WAAZ836432SHSA17RLN


Owner, Mr. SEYED SALEH HOSSEINI – Son SEYED ABOLHASSAN – Pass no. B 19424902
Airway bill no. 388-241DB.FR.DE763-83WAAZ836432SHSA17RLN

Mr. Jahangir Hajiyev
Chairman of the Board of Directors
Baku, the Republic of Azerbaijan

Mr. Rashad Gasimov
Director of Accounting and Budgeting Department
Baku, the Republic of Azerbaijan


ISLAMIC REPUBLIC OF IRAN
Place of Issue : THE IMMIGRATION AND PASSPORT POLICE
A19Z-47A5-28X3-1XX5Z95M9M0X
Name & Position of issuing officer : COLONEL MAHMOOD SADEGHI-IMMIGRATION AND PASSPORT POLICE CHIEF
Observation :
ISLAMIC REPUBLIC OF IRAN
Passport No : B19424902
Surname : HOSSEINI
Name : SEYED SALEH
Father's Name : SEYED ABOLHASSAN
Date & Place of Birth : 05/01/1972 - TEHRAN
Sex : M
Date of Issue : 17/10/2010
Date of Expiry : 17/10/2015


THE INTERNATIONAL BANK OF AZERBAIJAN

Safekeeping receipt - SKR
Ref. 3874234N.IBA68744S.PLT168DB.FR.DE/64763R.SHSA17RLN
Date, February 06, 2012

Profile – 168 pallets euros in warehouse Baku airport is as follow:
The main location at, Deutsche Bank Frankfurt am Main 60325 Germany P.O.Box 4306 Frankfurt
Final whereabouts pallets, Warehouse Azerbaijan airport WAAZ
Where to send pallets, Warehouse airport Frankfurt - WAFR
Place of delivery pallets, Warehouse Azerbaijan airport WAAZ
Transfers on, February 06, 2012
Quantity, 168 pallets
Code currency, Euro / €
Each Box, 100 Million euros
Packing list no. BRINKS874367-171-46-16-674DB.FR.DE836432SHSA17RLN
Owner, Mr. SEYED SALEH HOSSEINI – Son SEYED ABOLHASSAN – Pass no. B 19424902
Airway bill no. 388-241DB.FR.DE763-83WAAZ836432SHSA17RLN

Mr. Jahangir Hajiyev
Chairman of the Board of Directors
Baku, the Republic of Azerbaijan

Mr. Rashad Gasimov
Director of Accounting and Budgeting Department
Baku, the Republic of Azerbaijan

YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

**Rusiyanın İŞİD-lə mübarizədə Xəzər dənizinin hava məkanından istifadə etməsi hazırda müzakirə olunan əsas məsələlərdən biridir. Xüsusilə də qonşu ölkənin prezidenti Vladimir Putinin türkmənistanlı həmkarı Qurbanqulu Berdiməhəmmədovla görüşü zamanı günahkarlar cəzalandırılana qədər bu imkandan istifadə edəcəyini açıq şəkildə bəyan etməsi narahatlığa səbəb olub.**

# Rusiya İŞİD-i Xəzərə gətirir: Azərbaycan da təhlükədə...

## Putinin türkmənistanlı həmkarı ilə görüşündəki açıqlamaları geniş müzakirələrə səbəb olub; **Sülhəddin Əkbər:** "Terrorla mübarizə Rusiyanın bütün hərəkətlərinə legitimlik verir..."



Bəzi ekspertlər hesab edirlər ki, Putinin açıqlaması Xəzərsahili ölkələrə növbəti təzyiq vasitələrindən biridir. Görüşdə Rusiyanın dövlət başçısının bu məsələ ilə əlaqədar Xəzəryanı ölkələr tərəfindən narahatlıq yaranarsa, minimuma endirməklə bağlı fikirləri müəyyən mətləblərdən xəbər verib: "O ki qaldı bizim regiondakı dostlarımızın Xəzər dənizi üzərindəki hava məkanından istifadə edilməsindən narahatçılığına, bizim qazaxıstanlı dostlarımız hələ heç nə deməyib, lakın biz bunu nəzərə alacağıq",- deyə Putin qeyd edib.

Şimal qonşumuzun Suriyada İŞİD-ə qarşı mübarizədə apardığı siyasət Azərbaycanda da narahatlıqla qarşılanıb. Ekspertlər bildirirlər ki, bununla Rusiya İŞİD təhlükəsini Xəzər sahillərinə gətirmək üçün belə bir siyasətə əl atıb. Azərbaycanın Rusiyaya İŞİD-lə mübarizədə Xəzərdən istifadə etməyə icazə verib-verməməsi müəmmalı olaraq qalır.

Son günlərdə İŞİD təhlükəsinin ölkəmizə yaxınlaşdığı açıq şəkildə sezilməkdədir. Terror qruplaşmasının Gürcüstanı hədələyən videomüraciəti Azərbaycanda narahatlıqla qarşılanıb. Gürcü dilində danışan şəxslər Gürcüstanda yaşayan müsəlmanlara müraciət edərək, onları İŞİD-ə dəstək verməyə çağırır, eyni zamanda Gürcüstanı "Xilafət"in gəlişi ilə hədələyirlər. Gürcüstanın Dövlət Təhlükəsizlik Xidməti faktla bağlı artıq araşdırmalara başlayıb.

**Milli təhlükəsizlik nazirinin sabiq müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hesab edir ki, Rusiya öz silahlarını sınaqdan keçirmək üçün belə bir siyasətə əl atıb:** «Məsələnin ümumi və xüsusi tərəfləri var. Rusiya silahlarını sınaqdan keçirməklə dünyaya sübut etmək




istəyir ki, onun da ABŞ kimi müasir texnikaları var, uzaqdan istənilən ölkəni vura bilər, itki də verməz. Digər mesajlardan biri də Xəzərsahili ölkələrədir. Rusiya bildirmək istəyir ki, regionda hakim dövlətdir".

**Ekspert İŞİD-in Gürcüstanı hədələməsinin ölkəmiz üçün yaratdığı təhlükələrdən də danışdı:** "İŞİD dəfələrlə Azərbaycanı da təhdid edib. Ölkəmizə birbaşa təhdid var. Bir də Türkiyə, Rusiya və Gürcüstan üzərindən. Azərbaycana İŞİD təhdidi ciddidir. İŞİD Rusiyaya qarşı əməliyyatlara başlasa, onlar üçün ən uyğun yer Şimali Qafqazdır. Şimali Qafqaza da keçid Azərbaycan və Gürcüstan üzərindəndir. Bu baxımdan əsas hədəfdə olan ölkəyik. Rusiya ilk dəfə qanadlı raketlərini döyüş şəraitində sınaqdan keçirdi. Putin hazırda çətin vəziyyətdədir. Dünya bazarında neftin qiymətinin düşməsi, Rusiya iqtisadiyyatının çöküşü Putini çətin vəziyyətə salıb. Dünya masasına Rusiya prezidenti qəbul edilməyincə daha da əsəbləşəcək, gözlənilməz addımlar atacaq".

**S.Əkbər Rusiyanın dövlət başçısının türkmənistanlı həmkarı ilə görüşündə verdiyi mesajlardan çıxan nəticələrə də toxundu:** "Putin Rusiyası İŞİD-i bəhanə gətirib, Azərbaycan daxil, digər ölkələrə müdaxilə edə bilər. Rusiya hazırda Suriyaya dünyanın gözü qarşısında müdaxilə edirsə, bunu terrora qarşı mübarizə ilə əsaslandırırsa, sərhədlərində də bu siyasəti apara bilər. İŞİD-i bəhanə edib, Azərbaycana da Rusiya müdaxilə edə bilər. Təhdid getdikcə arta bilər. Bu, Azərbaycan üçün gözlənilməz olmamalıdır. Geopolitik qarşıdurmada Rusiya SSRİ-nin çəkildiyi sınağa çəkilir. Bir tərəfdən yeni müharibələrə çəkmək, hərbi xərcləri artırmaq, digər tərəfdən də dünya bazarında neftin qiymətini aşağı salmaqla Rusiyanın gəlirlərini aşağı salmaq siyasəti yürüdülür. Bir neçə gün öncə İran nefti 30 dollara satılmağa başladı. Rusiyanı nələrin gözlədiyi göz önündədir. İranın da dünya bazarına çıxması ilə neftin 10 dollar da ucuzlaşması gözlənilir. Neftin qiymətinin gələn il 20 dollara qədər düşməsi realdır. Bundan sonra Rusiyada hansı vəziyyətin yaranacağı indidən bəllidir".



**Sabiq MTN-çi Azərbaycanın Rusiyanın Xəzər sahilindən əməliyyatlarına icazə verib-verməməsi ilə bağlı bunları dedi:** "Hüquqi baxımdan götürsək, Rusiya Xəzərdən, neytral zonadan bu zərbələri endirə bilər. Azərbaycandan icazə almağına da ehtiyac yoxdur. Terrorla mübarizə Rusiyanın bütün hərəkətlərinə legitimlik verir. Bu baxımdan Azərbaycan buna etiraz da edə bilməz. Rusiya bu məsələdə bizimlə hesablaşmaya bilər. Şimal qonşumuz Azərbaycan sularından istifadə etmir. Dövlətimiz Rusiyanın terrorla mübarizədə Xəzərin hava məkanından istifadə etməsinə etiraz edə bilməz. Çünki burada terrora qarşı mübarizədən söhbət gedir. Vaxtilə Azərbaycan Əfqanıstanda terrora qarşı mübarizədə ABŞ-a razılıq verib. Azərbaycan ilk razılıq verən ölkələrdən biri idi. Buna imkan verən Azərbaycan MDB üzvü olan Rusiyaya icazə verməyə bilməz".

**Müsahibimiz Dağıstanda fövqəladə vəziyyətin elan olunmasının Azərbaycana necə təsir edəcəyindən də söz açdı:** "Suriyada baş verən proseslərin qonşu ölkələrə necə təsir etdiyi məlumdur. Dağıstan Azərbaycan və türklərin yaşadığı yerdir. Bu baxımdan orada baş verən proseslərin ölkəmizə təsiri qaçılmazdır".

**Xarici İşlər Nazirliyinin bu məsələ ilə bağlı mövqeyini öyrənməyə çalışsaq da, bu, mümkün olmadı.**

❑ Cavanşir ABBASLI

# Yubanmış siyasət...



Hüseynbala SƏLİMOV

**Maraqlı ölkələr, xüsusən də maraqlı insanlar həm də maraqlı ideyalar deməkdir. Bu ideyalar bəzən gülməli də görünə bilər. Necə ki, Rusiyada qonşu ukraynalıların qəbul etdiyi bütün aktlara gülürlər. Amma bu gülüşdə bir acıq da hiss olunur. Heç bir keçmiş sovet ölkəsinin davranışı Ukrayna qədər Rusiyada gülüş doğurmur. Amma bir az əvvəldə qeyd etdiyimiz kimi, bu adi bir gülüş deyil, öz acısı, sarkazmı ilə adamı sarsıdan gülüşdür...**

Sonuncu dəfə bu gülüşü Ukraynadakı dekommunizasiya cəhdləri ilə bağlı sezmişdik. Bəlkə də elə həqiqətən də indi dekommunizasiya bir qədər ironik təsir bağışlayır - bəli, demək olar ki, yatdılar, yatdılar, kommunistlər ölkəni tamam viran qoyandan sonra ayıldılar...

Amma bir məsələ var ki, dekommunizasiya indi Ukraynada konkret adamlardan daha çox tarixi simvollara, atributlara qarşı yönəlib. Bəli, indi kommunistlərin çoxu dünyasını dəyişib, sağ qalanları isə ən azı öz yaşlarına görə fəal həyat tərzi keçirmirlər...

Ona görə də bu cəhdlərin niyə Rusiyada bu qədər sarkazm doğurması adamı bir azacıq təəccübləndirir. Fəqət, səbəbini başa düşmək olar. Ukrayna yaxın keçmişindən qopmaq istəyir. Ölkə sovet keçmişindən uzaqlaşmağa cəhd edir. Bu isə o deməkdir ki, ölkə həm də Rusiyadan uzaqlaşır...

Dekommunizasiya aktı haqqında ilk dəfə Polşada eşitmişdik. Bir vaxtlar polyak demokratları belə akt qəbul etmək istəyirdilər. Amma bu, onlara nəsib olmadı, onlar belə bir aktı qəbul etdirə bilmədilər. Sonradan isə hər şey unuduldu, yaddan çıxdı, həyat öz dekommunizasiya apardı - kommunistlər bayaq dediyim kimi, həyatdan köçdülər, qalanları isə təqaüd dövrünə qədəm qoydular...

Əslində Ukraynada da bu proseslər daha tez başlamalı idi. Məsələn, orada da elə Azərbaycanda olduğu kimi dekommunizasiya aktını kommunistlərin özləri həyata keçirə bilərdilər - Azərbaycanda yeni qaydalar, xüsusən də iqtisadi qaydalar bizim kommunistlərin çox xoşuna gəldi. Ona görə də onlar keçmişlə bağlı bütün ilişgiləri qırdılar, təkcə özlərinə, öz şəxsi keçmişlərinə toxunmadılar. Onların məntiqindən belə başa düşdük ki, sovet rejimi əsasən pis idi, amma həmin o çətin illərdə də bir qrup kommunist varmış ki, onlar hələ o vaxt "demokratiya" və "milli müstəqillik" uğrunda çarpışırdılar- bunlar bizim milli kommunistlər imiş...

İnsanlar da bu məntiqlə barışdı. "Barışdı" deyəndə ki, onların rəyini heç soruşan da olmadı. Sadəcə, hamı qəbul etdi ki, elə belə də olmalıdır, çünki bu Azərbaycanda həmişə güclülər- hakimiyyətdə olanlar haqlı olur...

Qayıdaq Ukraynaya. Bu ölkə kommunist keçmişinə iki aspektdən yanaşır və bu rejimi təkcə totalitar rejim kimi deyil, həm də istilaçı rejim kimi qəbul edir... Elə rusları daha çox qeyzləndirən budur. Bəlkə kommunist liderlərinə qarşı sayğısızlıq onlara bu qədər təsir etməzdi. Amma istilaçı rejim kimi qəbul olunmaq - bax, bu, onlara ağır gəlir... Moskva ukraynalıların bu qədər "dönük" çıxacağını gözləmirdi. Amma gözləməli idilər. Ukrayna millətçiliyi bu günün və yaxud da dünənin məsələsi deyil, hələ sovetlər vaxtında bu haqda danışırdılar...

Amma buna rəğmən Ukraynada proseslər çox ləng getdi. Bu illər ərzində çox şey etmək olardı. Amma onlar nə etdilər?

Təəssüf ki, cavabımız bir o qədər də təqdiredici deyil. Ölkə hələ də keçid dövrünü yaşayır. Bu keçid də özündə təkcə iqtisadi mənaları, məzmunu ehtiva etmir, həm də aksioloji məzmun kəsb edir - ölkə yeni dəyərlər yaratmağa və onlara alışmağa çalışır...

Proses isə ləng gedir... Baltik ölkələrində çox şey daha sürətlə getdi. Orada da iqtisadi problemlər qalır. Amma siyasi dəyərlərlə bağlı bir yəqinlik var. Amma Ukraynada bu proses axır ki, ölkəni böldü. Şərq faktiki olaraq ölkədən ayrıldı...

İndi rusların ironiyasının gülməli tərəfi odur ki, onlar dekommunizasiya cəhdlərinin ən azı şərqi Ukraynada tormozlanacağını deyirlər. Bununla sanki özlərinə təskinlik verirlər...

Bizi isə bir qədər fərqli məsələ narahat edir. O da budur ki, Ukrayna, Moldova, Gürcüstan və Azərbaycan hələ öz yerlərini tapa bilməyiblər. Onlar bu hala müxtəlif səbəblərdən düşüblər-bəzilərində bu, obyektiv səbəblərdən olub, bəzilərində isə subyektiv. Nəticə isə eynidir. Hətta səbəblər müxtəlif olsa belə...

Ona görə də nigarançılıq qalır. Çünki yol başa vurulmayıb, hələ də bu yol bir qədər başqa səmtə - Rusiyaya tərəf dönə bilər...

YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

# Erməni işğalındakı Sərsəng: əhəmiyyəti və təhlükəsi...

## AŞ PA qətnaməsində qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" kimi qiymətləndirilir, bəs...

**Avropa Şurasının Sosial Məsələlər Komitəsinin 23 noyabrda keçirilən iclasında "Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" adlı məruzənin qətnamə layihəsi səsvermə ilə qəbul edilib. Bu barədə modern.az-a Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin üzvü Elxan Süleymanov məlumat verib.**

E.Süleymanovun dediyinə görə, qətnamədə qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" kimi qiymətləndirilir, ekoloji fəlakət sahələri yaratmaq və həmin ərazilərdə yaşayan əhalinin normal həyatını qeyri-mümkün etmək bir dövlətin digər dövlətə qarşı düşməncəsinə hərəkəti kimi qəbul edilməli olduğu, Sərsəng bəndinin baxımsızlığının xeyli sayda insan itkisi və mümkün yeni humanitar böhranla müşayiət olunan böyük fəlakətlə nəticələnə biləcəyi vurğulanır.

AŞ PA bu qətnamədə Ermənistan silahlı qüvvələrinin Sərsəng bölgəsindən dərhal geri çəkilməsini, Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir, yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırmağı tələb edir.

Bəs Sərsəng su anbarının Azərbaycan üçün əhəmiyyəti nədir? Sərsəngin erməni işğalında olmasının təhlükə ilə yanaşı vurduğu zərərlər nədən ibarətdir?

1976-cı ildə Tərtər çayı üzərində, keçmiş Ağdərə rayonunun hazırda Tərtər rayonunun inzibati ərazi vahidi olan hissəsində 726 metr hündürlükdə inşa edilən Sərsəng su anbarı 12 kilometr uzunluğu olan çayın üzərində tikilib. Onun ümumi sututumu 565 mln kvadratmetr, bəndin hündürlüyü isə 125 m-dir. Sərsəng su anbarı hazırda işğal altında olan Ağdərə rayonunun ərazisində yerləşir. Su anbarına və onun qurğularına 20 ildən artıqdır ki, texniki xidmət göstərilmədiyi üçün qəza vəziyyətindədir. Sözügedən anbarda suyun həcminin kəskin artması işğal olunmuş Azərbaycan əraziləri ilə qonşu rayonlarda da ekoloji fəlakətə səbəb ola bilər. Sərsəng su anbarı ölkənin aşağı Qarabağda yerləşən 6 rayonunun *(Ağcabədi, Ağdam, Bərdə, Goranboy, Tərtər və Yevlax)* 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Həmin rayonların əhalisinin böyük bir hissəsi Tərtər çayının suyundan içməli su kimi istifadə edir. Su anbarında hər birinin gücü 50 mqvt olan 2 ədəd turbindən ibarət Su Elektrik Stansiyası mövcuddur. Hər bir turbinin su buraxma qabiliyyəti 30 kvadratmetr/san olmaqla SES-dən cəmi 60 kvadratmetr su buraxıla bilər. Bundan əlavə, suvarma məqsədilə çaya su buraxmaq üçün SES işləmədiyi hallarda anbarın bəndində 6 ədəd siyirtmə quraşdırılıb. Bu siyirtmələr vasitəsilə hər biri 5 kvadratmetr/san olmaqla Tərtər çayına cəmi 30 kvadratmetr/san su buraxmaq olur. Eləcə də su anbarı dolduğu hallarda qəza sutullayıcısı vasitəsilə 740 kvadratmetr/san miqdarında daşqın suları Tərtər çayına axıtmaq nəzərdə tutulub. Azərbaycanın təxminən 400 mindən artıq mülki əhalisinin həyatı hazırda Sərsəng su anbarında yaranmış vəziyyətlə bağlı təhlükə altındadır.



Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, nazirlik tərəfindən mütəmadi olaraq çaylarda monitorinqlər keçirilir. Monitorinqlərin nəticəsinə uyğun olaraq çox vaxt Ermənistandan təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarının normadan dəfələrlə artıq olması müşahidə olunur. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar yol verilən qatılıq həddini keçir.

Sərsəng su anbarına axıdılan suyun həddindən artıq kimyəvi zəhərlənməyə məruz qalması bu ərazidə yaşayan insanlarda dəri-zöhrəvi və mədə-bağırsaq xəstəliklərinin də geniş yayılmasına səbəb olur.

ETSN tərəfindən işğal olunmuş ərazilərdə erməni işğalçılarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə Avropa Vəhşi Təbiətin və Təbii Ətraf mühiti Mühafizəsi üzrə Bern Konvensiyasının Baş Katibinə, Biomüxtəliflik üzrə Konvensiya icraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin Prezidentinə rəsmi müraciətlər də edilib.

Ermənilər Sərsəng su anbarının suyunu yayda deyil, qışda buraxırlar. Halbuki çox yağışlı havalarda, qışda aşağıda yerləşən fermaları, qaçqın evlərini yuyub aparır.

Nazirlikdən onu da bildirdilər ki, ermənilərin su anbarını qonşu ölkə kimi bir yerdə idarə edək deməyə haqqı yoxdur. Çünki Qarabağ ölkə deyil, Azərbaycanın tərkib hissəsidir.

**Sərsəng su anbarındakı mövcud problemlə bağlı Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafa da narahatlığını ifadə etdi və bildirdi ki, Elxan Süleymanovun hazırladığı qətnamə layihəsinin Avropa Şurasının Sosial Məsələlər Komitəsində qəbul edilməsi Azərbaycanın uğurudur:** "Sərsəng su anbarı məsələsinin üzərinə bundan sonra ciddi gedilməlidir. Həmin ərazilərdə hərbi xidmətdə olduğuma görə onun təhlükəsini daha çox bilirəm. Suyu bir qədər çox buraxanda daşqınların yaranmasına səbəb olur. Belə olan halda bölgənin təsərrüfatına böyük zərbə vurur. Bu, əhalinin yaşayışı üçün təhlükədir. Bu təhlükə başqa təhlükələrə bənzəməz, su axını böyük fəlakətlər yaşada bilər. Ona görə də bu məsələ üzərində qaldırılan həyəcan siqnalı hamını düşündürməlidir. Çünki insanlar yeni bir facіə qarşısında qala bilər.

Fəlakət baş verərsə, təbii ki, bu, ermənilərin özlərinə də zərər vuracaq, çünki həmin ərazilərin bir hissəsində ermənilər yaşayır. Bütün hallarda istər dinc erməni əhalisi, istərsə də Azərbaycan əhalisi fəlakətlə üzləşəcək. Humanitar fəlakətə gətirib çıxaran məsələyə dünya ictimaiyyəti kəskin reaksiya verməli və həssaslıq göstərməlidir ki, bunun təhlükəsi önlənsin. Buna görə də Ermənistana diplomatik və siyasi təsirlər artırılmalıdır. Bunlar da beynəlxalq müstəvidə tərəflərin iştirakı ilə müzakirə olunmalıdır. Ermənilər anbarı partladacaqları barədə hərdən dediklərini reallaşdıra bilərlər. Bu istiqamətdə daha çox millət vəkili Elxan Süleymanov məsələ qaldırır. Biz də onu dəstəkləyirik. Hər kəs dəstək verməli və aktual mövzunun gündəmdə saxlanması üçün çalışmalıdır ki, təhlükənin qarşısını almaq mümkün olsun".

**❑ Etibar SEYİDAĞA**

# "Qaz OPEK"i, yoxsa anti-Qərb təşkilatı?

## İlham Şaban: "Bu forum İrana, Rusiyaya nə fayda verib ki, Azərbaycana da fayda versin"




**Xəbər verdiyimiz kimi, noyabrın 23-də Tehranda Qaz İxrac edən Ölkələrin Forumunun ("qaz OPEK"-nin) 3-cü sammiti keçirilib. Sammitdə Boliviya, Rusiya, Ekvatorial Qvineya, Nigeriya, Venesuela, İraq və Türkmənistan prezidentləri iştirak ediblər. Müşahidəçi ölkə qismində Niderland, İraq, Oman, Peru, Azərbaycan və Norveç iştirak edib. Qeyd edək ki, Azərbaycan ilk dəfə bu foruma müşahidəçi ölkə kimi qəbul edilib.**

Sammitə sədrlik edən İran prezidenti Həsən Ruhani bildirib ki, yaxın gələcəkdə dünyada təbii qaza olan tələbat artacaq, ona görə də foruma üzv olan ölkələr əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər ki, dünya bazarında tələblə təklif arasındakı balansı qorusunlar və qiymətlər sabit qalsın.

Rusiya prezidenti Vladimir Putin foruma müşahidəçi üzv kimi qəbul edilməsi münasibətilə Azərbaycanı təbrik edib. Bildirib ki, qaz sahəsinə uzunmüddətli investisiyaların yatırılmasını artırmaq lazımdır və məsələ ilə forum üzvləri ciddi məşğul olmalıdırlar.

Azərbaycanı sammitdə təmsil edən energetika naziri Natiq Əliyev qeyd edib ki, Azərbaycan ötən 20 ildə qaz sahəsində qonşu dövlətlərlə səmərəli əməkdaşlıq edib və bu əməkdaşlığı davam etdirmək niyyətindədir. Bildirib ki, Azərbaycan neft və qazın nəqli üçün yaratdığı infrastrukturdan (Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri) region ölkələrinin də istifadə etməsini təklif edir. Azərbaycan qazının Avropaya nəqli üçün reallaşdırılan Trans-Anadolu (TANAP) qaz kəmərinə qoşulmaq da qaz ixrac etmək istəyən region ölkələri üçün səmərəli ola bilər.

Bəs görəsən, bu foruma müşahidəçi üzv olmaq Azərbaycan üçün hansı nəticələrə gətirib çıxaracaq? Azərbaycan qazının Avropa bazarında hansı rəqibləri olacaq?

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, bu daha çox siyasi məqsədli bir görüşdür və anti-Qərb, anti-Amerika xarakteri daşıyır:** "Bu foruma "qaz OPEK"i də deyirlər. Amma iştirakçı ölkələrin əksəriyyəti faktiki olaraq özlərini belə qazla təmin edə bilmirlər, təbii qaz idxal edirlər. Bu forum 2001-ci ildə İranın təşəbbüsü ilə yaranıb, Rusiya da İrana dəstək verib. 2009-cu ilə qədər faktiki heç bir iş görməyiblər. Bu artıq üçüncü zirvə toplantısıdır. 14 il ərzində 3 dəfə görüşüblər. Bu forumun qəbul etdiyi sənədlərə baxsaq, orada heç bir ciddi məsələ yoxdur. Qeyd edilir ki, bütün iştirakçı ölkələr öz qaz sərvətləri üzərində istisnasız suveren hüquqlara malikdirlər. Sanki onu vurğulamağa çalışırlar ki, üçüncü bir ölkə, məsələn, Qərb gəlib onların işinə qarışa bilməz.

İran prezidenti sammitdə çıxış edərək bildirib ki, biz qazın qiymətinin neftin qiymətini üstələməsinə nail olmalıyıq. Bu gülüş doğuran və absurd bir fikirdir".

**"Bu sammit Azərbaycana nə verəcək" sualına gəlincə, İlham Şaban bunu elə də ciddi iqtisadi nəticələri olan hadisə hesab etmədiyini bildirdi:** "Bu forum İrana, Rusiyaya nə fayda verib ki, Azərbaycana da fayda versin?"

**Bütün bunlara baxmayaraq, ekspert ölkəmizin qazının taleyi ilə bağlı optimist düşündüyünü və gələcəkdə Azərbaycanın təbii qaz ölkəsi kimi gəlir qazanacağını qeyd etdi:** "Ölkəmizin bəxti gətirdi ki, çox nəhəng bir qaz yatağı aşkarladı. Bundan öncə Azərbaycan 150 il idi ki, neft hasil edirdi, lakin belə böyük qaz yatağı olmamışdı. Hazırda Azərbaycanın bir neçə uğurlu qaz yataqları var və növbəti mərhələ üçün qaz ölkəsi kimi özünü tanıda bilər. Bunun üçün riskli də olsa hökumət "Cənub Qaz Dəhlizi" kimi meqainfrastruktur yaratdı ki, ehtiyatlarını Avropaya çıxara bilsin. Bu yolla təxminən 50 il müddətində Azərbaycanın qaz ehtiyatlarının Avropa dövlətlərinə ixracı nəzərdə tutulur".

**İlham Şaban TAP layihəsində gecikmələrin olmasını qeyd edərək bunun Azərbaycan qazının Avropa bazarına vaxtında çıxarılmasına mənfi təsir edəcəyini vurğuladı:** "Trans Adriatik Boru Xəttinin (TAP) çəkilməsi birdən-birə bir neçə il uzandı. Düzdür, bunu heç kim etiraf etmək istəmir. Bildirirlər ki, işlər qrafikə uyğun gedir. Lakin qeyd etmək lazımdır ki, qrafikə uyğun iş getmir. Azərbaycan qazı Türkiyəyə 2018-ci ildə, Avropaya isə 2019-cu ildə çatmalı idi. Ancaq indi bəllidir ki, bu heç 2020-ci ildə də olmayacaq. Çünki o boru kəməri ən yaxşı halda 2021-ci ildə o qazı qəbul edə biləcək. Bundan bədbinliyə düşməyə əsas yoxdur. Bakı-Tiflis -Ceyhan neft kəməri çəkiləndə də bu bədbin proqnozlar var idi, lakin sonradan məlum oldu ki, bu Azərbaycana nə qədər xeyir gətirdi. Düzdür, qaz neftin gətirdiyi qədər pul gətirmir. Çünki qazın dəyəri neftin qiymətinin yarısı qədərdir. Bu o deməkdir ki, qazın gətirəcəyi gəlir neftdən iki dəfə az olacaq və daha uzun müddətə qazanılacaq. Biz bu günə qədər "Azəri-Çıraq-Günəşli" neft yatağından 118 milyard manat vəsait götürmüşük. Hələ layihənin bitməsinə 9 il var və bu müddətə biz minimum 80 milyard da qazanacağıq. Deməli, ümumilikdə 200 milyard qazanacağıq. Ancaq qaz layihəsindən ən yaxşı halda 100 milyard qazana bilərik".

**❑ Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 262 (6290) 25 noyabr 2015

**"MTN işi" ətrafında cərəyan edən proseslər nisbətən səngisə də, ölkə gündəminin əsas müzakirə mövzusu olaraq qalmaqdadır. Bundan sonra nələr olacaq, dövlətin təhlükəsizliyini sarsıdan şəxslər tam müəyyənləşdimi, yoxsa həbslərin davamı gələcək və s. suallara birmənalı cavab yoxdur. Mövzu ilə bağlı milli təhlükəsizlik xidmətinin sabiq əməkdaşı, siyasi analitik Ərəstun Oruclu ilə söhbət etdik.**

# "Bildiklərimin bir çoxunu deməmişəm"

## Ərəstun Oruclu: "Bu hüquq hər kəsə aiddir, quldura da, oğruya da, cinayətkara da, qanqsterə də, sütenyora da və hətta Akif Çovdarova da..."



**"Mənə heç bir təklif olmayıb və təklif gözləmirəm də"**

***- Ərəstun bəy, "MTN işi" ilə əlaqədar bütün məlumatları ictimaiyyətə açıqlamısınız, yoxsa zamana ehtiyacı olan məsələlər də var?***

- Zaman məsələsi deyil. Sadəcə, mənə elə gəlir ki, hər bildiyini mətbuata çıxarıb cəmiyyəti qarışdırmağa ehtiyac yoxdur. MTN-lə bağlı artıq deyiləcək şeylər deyildi, indi söz hüquq-mühafizə orqanlarının, prokurorluğundur, gələcəkdə məhkəmənindir. Onlar artıq mərhələ-mərhələ sözünü deyir və deməkdə də davam edəcəklər. Çünki bugünkü gün başlıca vəzifələrdən biri artıq yeni rəhbərliyin olduğu bir dönəmdə bu orqana köhnə rəhbərlik tərəfindən dağıdılmış ictimai etimadın bərpa olunmasıdır. Bu, prioritet məsələdir. İfrat hissə qapılıb unutmamalıyıq ki, bütün bu məsələlərin arxasında dövlət maraqları, ictimai maraqlar və hər birimizin şəxsi maraqları durur. Heç kim təminat verə bilməz ki, hansısa başıpozuq terrorçunun hədəfinə gəlməyəcək. Onunla mübarizə aparmalı, onun qarşısını almalı, bizim təhlükəsizliyimizi təmin etməli olan orqan da MTN-dir. Deməli, bu nazirliyə qarşı mətbuatda gedən yazılar, fikirlər, düşüncələr bir çox hallarda ayırd olunmur. Deyək ki, rəhbərlik bir tərəfə, çoxsaylı vicdanlı əməkdaşlar digər tərəfə qoyulmur, yəni ümumiləşdirilir və cəmiyyətdə etimadı azaldır. Onsuz da bu etimad cəmiyyətdə ciddi şəkildə çat verib.

***- Hazırda nazir səlahiyyətlərini icra edən, milli təhlükəsizlik nazirinin birinci müavini Mədət Quliyev deyib ki, MTN əməkdaşlarının 99 faizi saf, təmiz fəaliyyət göstərir. Generalın dedikləri ilə razılaşırsınızmı?***

- Mənim faiz məsələsi ilə işim yoxdur. Amma Mədət Quliyevin dediyində böyük bir həqiqət var ki, söhbət keçmiş rəhbərlikdən və ola bilər ki, hələ bir neçə nəfər də qalmaqda olan, rəhbər post tutan şəxslərdən gedir. Amma nazirliyin mütləq əksəriyyəti, əməliyyat heyəti, zabit heyəti, əməkdaşlar heyəti vicdanlı adamlardır. Onlar bütün bu illər boyu öz işini görüb. Məhz onların öz işini görməsi sayəsində də ölkə bir çox kataklizmlərdən sığortalanıb. Məsələ burasındadır ki, xüsusi xidmət orqanlarının fəaliyyəti gözlə görünmür. Tutalım ki, cəmiyyət sabit, sakit yaşayanda, terrorla, müxtəlif təlatümlərlə üzləşməyəndə belə bir qurumun olduğu, onun təhlükəsizliyin təminatında xidmətinin olması unudulur. Amma hansısa bir hadisə baş verəndə təbii ki, o qurum yada düşür və ön plana çıxarılır. Bu baxımdan nazir əvəzi tamamilə haqlıdır. Bəli, doğrudan da nazirliyin əməkdaşlarının mütləq əksəriyyəti vicdanla öz işini görür.

***- Bu ərəfədə sizə peşəkar kadr olaraq MTN-ə qayıtmaq təklifi oldumu?***

- Xeyr, mənə heç bir təklif olunmayıb və belə bir təklif gözləmirəm də. Mən düşünürəm ki, yerimdə daha çox həm lazımlıyam, həm də özümü rahat hiss edirəm. Belə daha yaxşıdır. Amma eyni zamanda mən bütün bunlara baxmayaraq, dövlətin nə özünə, nə onun hansısa bir institutuna, onun müqəddəratına biganə olmağın tərəfdarı deyiləm. Müxalif mövqedə olmaq olar, amma dövlətə yox. Xüsusilə də söhbət əgər sözün həqiqi mənasında dövlətin onurğa sütunu olan Milli Təhlükəsizlik Nazirliyi kimi mühüm bir orqandan gedirsə... Yəni bu mərhələnin media fırtınası arxada qaldı. İndi biz daha çox hüquqi məsələlərə, hüquqi müstəviyə qayıtmalıyıq. Bundan başqa, etimad məsələsinə fikir verməliyik. İnsanların inamı bərpa olunmalıdır ki, bəli, bu orqan insanların təhlükəsizliyi üçün çalışıb. Bəli, bu orqan dövlətin təhlükəsizliyi üçün çalışıb. Bəli, bu orqan belə olub, sadəcə, bir ovuc insan bundan sui-istifadə edib.

***- Həmin bir ovuc insan tam müəyyənləşib ortaya çıxarıldımı, ifşa olundumu, yoxsa hələ proses başa çatmayıb?***

- Mən düşünürəm ki, hələ araşdırmalara ehtiyac var. Şübhəsiz ki, hüquq-mühafizə orqanları, istintaq orqanları bunu çox gözəl bilirlər. Ona görə də mən artıq istintaqdan kənar nəyisə demək istəmirəm. Müəyyən bir müddət keçər. Görsək ki, həqiqətən bizim hesablamalarımıza görə cəzalandırılmalı adamlardan kimlərsə kənarda qalıb, şübhəsiz ki, biz onda sözümüzü deyəcəyik. Sözümüzü demək bizim haqqımızdır, heç kəs bu haqqı bizdən ala bilməz. Amma hazırda istintaq getdiyi mərhələdə bu barədə hadisələri qabaqlamağa ehtiyac yoxdur.

***- Yeri gəlmişkən, bu arada mətbuata bu proseslə əlaqədar xəbərdarlıqlar edildi, bəzi sayt rəhbərləri prokurorluğa çağırıldı. Mövzu ilə bağlı ekspert kimi çıxış edən və kifayət qədər məlumat bazasına malik şəxs olaraq sizə hər hansı xəbərdarlıq edilməyib ki?***

- Xeyr, olmayıb. Ona görə ki, mən açıqlamalarımda, yazılarımda, müsahibələrimdə heç bir zaman qərəzli mövqe ortaya qoymamışam. Mənim dediklərim hamısı faktlar olub. Hətta bir çoxunu deməmişəm. Qeyd etdiyimi kimi, bu, cəmiyyətdə yersiz gərginliyə, əlavə təlatümlərə səbəb ola bilər. Ona görə də o məsələlərə toxunmamışam. Mən məsuliyyət hissini itirmiş adam deyiləm. Amma əsla bunun arxasında qorxmaq- çəkinmək dayanmır. Mən hətta Eldar Mahmudovun nazir olduğu dönəmdə, Akif Çovdarovun qanqsterlik etdiyi dönəmdə sözümü demişəm. Hər zaman demişəm, bu gün də deyirəm. Düşünmürəm ki, xəbərdarlıq olunmaq üçün nəyəsə rəvac vermişəm. Verməşəmsə, xəbərdarlıq olunarsa, mən bunu normal qəbul edərəm. Hər bir insanın yanılmaq haqqı, ehtimalı var. Əgər yanılırsansa, sənə xəbərdarlıq olunursa ki, sən bu hərəkəti yersiz etmisən, düşünürəm ki, buna da aqressiv yanaşmaq lazım deyil. Heç kim səhvdən sığortalanmayıb. Amma düşünürəm ki, mənim buna rəvac verəcək yanaşmam olmayıb.

***- Saxlanılan Akif Çovdarovun yaxınları onun təcridxanada üzləşdiyi bəzi hallarla bağlı ölkə başçısına müraciət edəcəklərini də deyirlər. Bu müşahidələrlə bağlı fikriniz maraqlı olardı...***

- Əslində cəmiyyətdə də buna çox qəribə yanaşma oldu. Deyək ki, tutalım Akif Çovdarov cinayətlər törədibsə, insanları qanunsuz olaraq hətta az qala özünün şəxsi həbsxanalarında girov saxlayıbsa...

***- Üzr istəyirəm, bu məlumatlara inanırsınızmı?***

- İnanmamağa əsasım yoxdur, çünki bu şeylər rəsmi şəkildə təkzib olunmayıb... Amma mən məsələyə fərqli yanaşıram. Akif Çovdarov bütün bu qanunsuzluqları törədibsə, bu, o demək deyil ki, onun hüquqları qanun çərçivəsində təmin olunmamalıdır, yaxud ona qarşı hər şey ola bilər. Qanunsuzluq qanunsuzluqdur, fərqi yoxdur. O ki qaldı hüquqlarının müdafiə olunması məsələsinə, bu, istənilən Azərbaycan vətəndaşının konstitusiyada öz əksini tapmış hüququdur və bu hüquq hər kəsə aiddir, quldura da, oğruya da, cinayətkara da, qanqsterə də, sutenyora da və hətta Akif Çovdarova da...

***- Gündəmin suallarından da biri budur ki, bütün baş verənlərə rəğmən sabiq nazir Eldar Mahmudovun azadlıqda olması normaldırmı?***

- Bu, artıq istintaqın işidir. Əminəm ki, istintaq bu barədə öz sözünü deyəcək. Yox, normal qarşılamıram. Orqanda bu qədər qanunsuzluqlar baş veribsə, təbii ki, nazir məsuliyyətə cəlb olunacaq. Sadəcə, zamana ehtiyacı olan məsələdir.

***- Yeni nazir təyinatı sözsüz ki, prezidentin səlahiyyətində olan məsələdir. Bəs siz bu qurumu tanıyan bir peşəkar olaraq kimin nazir təyin olunacağını güman edirsiniz, düşüncənizdə konkret namizəd varmı?***

- Mənim bu barədə düşünməyim üçün nə səlahiyyətim yoxdur, nə də hesab etmirəm ki, mənim fikrim bu məsələdə nəsə bir rol oynayır. Hər halda, nazir əvəzi var və bildiyim qədər orda təmizləmə işləri kifayət qədər intensiv şəkildə aparılır. Bundan sonra dövlət başçısı özü müəyyənləşdirəcək. Ola bilər ki, elə indiki nazir əvəzi nazir qalsın. Hər şey ola bilər, konkret deyə bilmərəm. Fikrimcə, bu, texniki məsələdir.

❑ **Elşad PAŞASOY**

# Baş nazirin soyad müəmması

## Artur Rəsi-zadə, Rəsizadə, yoxsa Rəsulzadə?

**Azərbaycanın baş nazirinin soyadının necə olması yenidən gündəmə gəlib. Ölkə mətbuatında baş nazirin soyadı ya Rəsizadə, bəzi hallarda Rəsi-zadə, hətta Rəsulzadə formasında da yazılır. İnternetdə axtarış verdiyimiz zaman mətbuat səhifələrində baş nazirin soyadının daha çox Rəsizadə kimi yazıldığının şahidi olsaq da, Vikipediyada bu, Rəsi-zadə olaraq qeyd olunub.**

### Baş nazirin soyadını necə yazaq?

Məsələ ilə bağlı dəqiq məlumat almaq üçün Nazirlər Kabinetinin mətbuat xidməti ilə əlaqə yaratmağa cəhd etsək də, buna nail ola bilmədik. Onu da qeyd edək ki, Nazirlər Kabinetinin rəsmi saytında baş nazirin soyadı Rəsi-zadə kimi qeyd olunub.

**Miqrasiya Mərkəzinin direktoru, keçmiş polis rəisi Əlövsət Əliyev** də sosial mediadakı şəxsi səhifəsi vasitəsilə öz fikrini bildirib. O hesab edir ki, Artur müəllim soyadını dəqiq bilsə təkzib verər və bu müxtəlif soyadlılığı aradan qaldırardı: "Valideynlərinin soyadı Rəsizadə olan bəzi uşaqların doğum haqqında şəhadətnamələrinin soyad qrafasında Rəsi-zadə və ya Rəsi Zadə kimi soyadlara da rast gəlinir. Əslində belə halda uşağın doğum haqqında şəhadətnaməsi etibarsız hesab olunmalıdır. Çünki uşağa verilən soyad valideynin soyadına uyğun deyil. Doğum haqqında şəhadətnamələrdə yazılan adlar bəzən məmurların səhlənkarlığı ucbatından şəxsiyyət vəsiqəsində, diplomda, pasportda və ya digər sənədlərdə fərqli yazılır".

**Ə.Əliyevin sözlərindən belə aydın olur ki, ölkədə təkcə baş nazir deyil, bir çox vətəndaşların soyadlarının necə olması məlum deyil:** "Son 6 ay ərzində mənə edilən müraciətlərdə daha çox adın və ata adının yazılışındakı fərqliliklərin yaratdığı problemlərlə bağlıdır. Məsələn, Almaniyada nikaha daxil olmaq istəyən Azərbaycan vətəndaşının doğum haqqında şəhadətnaməsində soyadı Rəfizadə, şəxsiyyət vəsiqəsində Rəfi-zadə, pasportunda Rəfi Zadə, subaylıq şəhadətnaməsində isə soyadı Rəfi-zadə kimi yazılıb. Nikahı qeydiyyata alan orqan isə bu soyadlardakı işarələrin fərqi səbəbindən nikahı qeydiyyata almaqdan imtina edib. Başqa bir müraciət isə Almaniyada işə düzəlmək istəyən və sənədlərində soyadların fərqli yazılmasına görə imtina alan şəxsdəndir. Onun doğum haqqında şəhadətnaməsində soyadı Əlif- zadə, şəxsiyyət vəsiqəsində və diplomunda Əlif Zadə, pasportunda isə Əlifzadə kimi yazılıb.

Ailə birləşməsi ilə bağlı müraciət edən bir ailədə isə qeydiyyat şöbəsi bir ailədə doğulan 3 uşağın hərəsinin soyadını bir formada: birinci uşağı Xankişiyev, ikincisini Xan-kişiyev üçüncünü isə Xan Kişiyev soyadı ilə rəsmiləşdirmişdir".

**Ə.Əliyev məsələ ilə bağlı qanunvericiliyin tələblərinin necə olmasından da danışıb:** "Qanunvericiliyin tələbinə görə, uşağın soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Bu, o deməkdir ki, şəxsə verilən soyad valideynin soyadına uyğun yazılmalı, hətta işarə dəyişikliyinə yol verilməməlidir. Şəxsiyyət vəsiqəsi də təqdim olunan doğum haqqında şəhadətnaməyə uyğun yazılmalı, soyadların bölünməsi, bir hissəsinin böyük hərflə yazılması, hər hansı hərfin buraxılması kimi hallara yol verilməməlidir. Digər sənədlər isə şəxsiyyət vəsiqəsinə uyğun yazılmalı və səhvə yol verilməməlidir. Bir müddət əvvəl Azərbaycanda "Adlar (və soyadlar) haqqında" qanun qəbul olunacağı gündəmə gətirilmişdi. Hətta Milli Məclisdən Nizami Cəfərov bununla bağlı açıqlama da vermişdi.

Əslində adlarla bağlı yaranan münasibətləri tənzimləyən normativ sənədlər kifayət qədərdir. Ola bilsin ki, bu sahədə ayrıca qanunun da qəbul olunmasına həqiqətən ehtiyac var. Bunun üçün əsaslı araşdırma və təhlillər aparılmalı, ehtiyaclar müəyyən olunmalıdır".

❑ **Əli RAİS**






# Bank borcuna görə özünə od vuranın vəziyyəti ağırdır

## Ekspert isə dəhşətli bank intiharlarının olacağını anons etdi

**Naxçıvan Muxtar Respublikasının Şərur rayonu, Səməd Vurğun küçəsində yaşayan 1981-ci il təvəllüdlü Malik Abbas oğlu Hüseynovun bank borcunun ödəyə bilmədiyi üçün üstünə benzin tökərək özünü yandırması xəbəri banklardakı kredit mövzusunu bir daha gündəmə gətirdi. Musavat.com-un Respublika Yanıq Mərkəzində olan reportyoru xəbər verir ki, özünü yandıran Malik Hüseynov hazırda reanimasiyadadır.**



M.Hüseynovun həyat yoldaşı və anası isə Respublika Prokurorluğuna gediblər.

İddia olunur ki, M.Hüseynovun banka kredit borcu olub. Bank bu iddianı təkzib etsə də, özünü yandıran şəxsin ailə üzvləri bu barədə sənədlərin olduğunu deyirlər.

Qəzetimizin ötən sayında kreditlərlə bağlı mövzuya toxunmuş və çıxış yolları haqda yazmışdıq. Noyabrın 23-də kredit borcunu ödəyə bilmədiyi üçün özünü yandıraraq intihara cəhd edən şəxs bir daha cəmiyyətdəki sosial gərginliyin son həddə olduğunu göstərdi.

**İqtisadçı ekspert Rəşad Həsənov bankların bu gün yaranmış ciddi borc böhranının əsas səbəbkarları olduğunu bildirdi:** "Baş verən son hadisələr, xüsusən də devalvasiyadan sonrakı vəziyyət cəmiyyətdəki sosial gərginliyi artırıb. Bunun qarşısını almaq üçün mütləq ciddi addımlar atılmalıdır. Əlbəttə, mən razıyam ki, bank sektoru özəl sektordur. Banklar, sadəcə olaraq, vasitəçidir və bu pulların idarə edilməsindən faiz əldə edir. Amma burada maraqlı məsələlərdən biri ondan ibarətdir ki, banklar bu gün yaranmış ciddi borc böhranının əsas səbəbkarlarıdır. Birincisi ona görə ki, onlar çox yüksək faizlə kreditləri idarə edirdilər. Bu da faktiki olaraq ölkə iqtisadiyyatının və vətəndaşının gücü daxilində deyildi. İkinci səbəb isə odur ki, banklar bu kreditləri bir çox hallarda kredit bumunun fonunda özləri bilə-bilə kreditin geri qaytarılma ehtimalı çox az olan müştərilərə veriblər. Təbii ki, pul verilirsə, burada günahkarlardan biri əgər vətəndaşdırsa ki öz imkanı daxilində olmadığı halda kredit götürür, ikincisi bu pulu verən tərəfdir ki, buna şərait yaradıb. Bu gün isə hər iki tərəfin, yəni kredit verənin və kredit götürənin iradəsindən kənar hadisələr baş verdi. Yəni heç bir Azərbaycan vətəndaşı kredit üçün müraciət edəndə dünya bazarında neftin qiymətinin düşəcəyini, Rusiya-Avropa münasibətlərinin pisləşəcəyini gözləmirdi. Bu gün baş verənlər onların iradəsində deyil və bu məsələlərə ümumi həll variantı tapılmalıdır. Bu gün Azərbaycan vətəndaşlarının iki milyon yarım kredit borcu var. Orta hesabla hər bir ailəyə bir borclu vətəndaş düşür. Nəzərə alsaq ki, bir ailənin bir üzvü hansısa ciddi sıxıntılarla üzləşibsə, bu o deməkdi ki, bu ailə sıxıntılar yaşayır və bu gün bu çox ciddi sosial narahatlıq dalğası yaradır. Ona görə də bu gün banklar da burada müəyyən qədər məsuliyyətli davranmalıdırlar. Əksər hallarda bir çox banklar hədə-qorxu vasitəsilə vətəndaşlardan ödənişləri geri tələb etməyə cəhd göstərirlər. Bu isə tam qanunsuzdur. Bu ölkədə hüquq sistemi, qanun var və bu proseslər orada həll olunmalıdır. Bu gün bankların başında dayanan istənilən şəxsə mikrofonu uzatsanız, cavabı o olacaq ki, biz iqtidarın siyasi kursunu dəstəkləyirik. Amma bu adamlar əgər siyasi kursu dəstəkləyirlərsə, bu gün onların etdikləri hərəkət əslində ölkədə çox ciddi sosial narazılıq yaradır. Bu baxımdan banklar bir qədər güzəştə getməlidirlər. Amma özəl sektor olduğundan, bankların öhdəlikləri olduğundan bütün yükü də bankların üzərinə qoymaq olmaz. Dövlət tərəfindən bu sahəyə dəstək olmalıdır. Təkliflərdən biri də Rusiyada tətbiq edilən iş yerini itirmiş insanların müvəqqəti olaraq kreditlərinin dondurulması məsələsidir. İkinci məsələ banklar tərəfindən kredit götürənlərə fərdi yanaşma tətbiq edilməlidir. Burada hər bir bankda komissiya yaradılmalı, müştərinin maliyyə vəziyyəti xüsusi formada öyrənilməlidir. Əgər vətəndaşın həqiqətən imkanı yoxdursa, banklar müəyyən qədər güzəştlər edə bilər. Hətta bu cür vətəndaşların kreditləri silinə də bilər. Bu şəxslər işləyib gəlirlərinin böyük bir hissəsini bu banklara veriblər və bankların özlərinin böyüməsinə şərait yaradıblar. Bu gün onların da iradəsindən kənar hadisə baş verib və banklar bu istiqamətdə müəyyən addımlar atmalıdır. Bəzi müştərilərin faizləri dayandırıla, kreditləri dondurula bilər. Yəni müxtəlif formalarda buna yanaşılmalıdır".

**Ekspert bu sahədə ən böyük addımı hökumətin atmalı olduğunu dedi:** "Hökumət xaricdə saxlanılan valyuta ehtiyatlarının müəyyən qismini, təxminən 6-8 milyardını Azərbaycana gətirə bilər və bu banklarda faizsiz şəkildə yerləşdirə bilər. Bu valyutaların xaricdə saxlanılmasının Azərbaycan üçün ciddi bir əhəmiyyəti yoxdur. Çünki Neft Fondunun hesabatlarına baxdıqda görürük ki, milyardlarla vəsait illik 1 faizdən aşağı gəlirlərlə istifadə olunur. Buna görə də iqtisadiyyatın kapital təminatçısı kimi funksiyası tam itirməsin deyə bu pulları gətirib banklarda yerləşdirmək olar. Belə bir şərt də qoyula bilər ki, iqtisadi problemin yaşandığı keçid dövründə vətəndaşlar mümkün qədər borc sınağına çəkilməsin. Yəni onların borcları dayandırılsın, gözlənilsin, bağışlanılsın. Bu kimi addımlar mütləq atılmalıdır. Əks halda, 2016-cı ildə biz 23 noyabrda baş vermiş hadisənin daha pis variantlarını görə bilərik. Bu, kütləvi hal ala bilər. Buna görə də mən düşünürəm ki, həm hökumət, həm cəmiyyət, həm də bank sektoru bu sahədə üzərlərinə çox ciddi məsuliyyət götürməlidirlər. Ölkənin indiki çətin günlərində prosesin daha az itkilərlə idarə olunmasına cəhd göstərməlidirlər".

**Hazırkı vəziyyət Milli Məclis üzvlərinin də diqqətindədir və onları narahat edir. Belə ki, deputat Fəzail Ağamalı açıqlamasında bank sektorunun xalqın qanını sovurduğunu və məhv etdiyini bildirib:** "Bu gün Azərbaycan əhalisinin 2,5 milyona qədəri kredit borcu içərisindədir. Onların arasında 100 min manat və daha yuxarı məbləğdə borcu olanlar da var. Azərbaycanın bank sistemi xalqın qanını zəli kimi sormaqdadır. Bunun qarşısı alınmalıdır. 20 faizdən 50 faizə qədər kredit vermək deməzdim ki, təkcə allahsızlıqdır, artıq bundan o tərəfi yoxdur. Hamısına şamil edilməsə də, bankların bir çoxu varlanmaq, daha çox pul qazanmaq üçün həm sahibkarların, həm də yeni iş qurmaq, istehlak krediti götürüb övladının xeyir işini eləmək istəyənlərin, sözün həqiqi mənasında, qanını sormaqdadır".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Elan

**Azərbaycan Turizm və Menecment Universitetindən Nəcəfov Əli Tahir oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


## "Nar" ölkədəki ən geniş 4G şəbəkəsini təqdim edir

### İndi "Nar" abunəçiləri eyni qiymətə daha yüksək sürətli internetdən istifadə edəcəklər

Şəbəkəsinin genişləndirilməsini hər zaman özünün başlıca prioritetlərindən biri hesab edən "Nar" abunəçilərinə Azərbaycandakı ən geniş LTE -412 və HSDP+ 2029 şəbəkəsini təqdim etdi.

3G və 4G stansiyalarından əlavə, "Nar" fəaliyyət göstərən 2932 ədəd 2G baza stansiyasını təqdim etməklə öz abunəçilərinə ən geniş mobil şəbəkədən istifadəni təmin edir.

"Azerfon" şirkətinin baş icraçı direktoru Kent Maknili Azərbaycanda ən geniş LTE şəbəkəsindən istifadəni təmin etmənin "Nar" üçün böyük bir nailiyyət olduğunu vurğuladı.

"Böyük qürür hissi ilə bütün Azərbaycana 4G texnologiyasını və genişləndirilmiş şəbəkəmizi təqdim edirik. Cəmi 2 il ərzində şəbəkəmizin həcminin 2 dəfədən çox artırılmasına nail olmuşuq. 4G şəbəkəsində fəaliyyət göstərən baza stansiyalarının sayını 412 ədədə çatdırmaqla yanaşı, LTE şəbəkəsindən istifadə üçün abunəçilərin əlavə ödəniş etməmələrinə müvəffəq olmuşuq. Növbəti il "Nar" LTE şəbəkəsini daha da genişləndirməyi və «LTE Advanced Technology» (LTE-A) tətbiqini planlaşdırır" - deyə cənab Maknili bildirdi.

Nar öz abunəçiləri nə yüksəksürətli internet, geniş əhatə dairəsi və sərfəli qiymətləri təqdim etdi. Hazırda "Nar" 4G şəbəkəsi 225 Mbps qədər internet sürətini dəstəkləyir. "Nar" abunəçiləri LTE şəbəkəsindən istifadə üçün hər hansı bir əlavə ödəniş etməyəcəklər.

Abunəçilər cari SİM card -larını dəyişmədən yüksəksürətli 4G internet bağlantısından istifadə edə bilərlər. Sadəcə olaraq LTE texnologiyasını dəstəkləyən mobil telefon və ya cihazda 4G şəbəkəsini seçmək kifayətdir.

LTE texnologiyası haqqında əlavə məlumatı www.nar.az ttp://www.nar.az internet səhifəsindən öyrənə bilərsiniz.


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

**Milli valyuta olan manatın devalvasiya ehtimalları yenidən səslənməkdədir. Artıq manat 1,050-lik psixoloji həddi keçərək 1,06-ya yaxınlaşır. Yəni ilin əvvəlində devalvasiya olarkən dolların manata nisbəti 1,05 manatla adekvat idisə, indi bu rəqəm 1,06-ya yaxınlaşmaqdadır. Əksər ekspertlər bildirirlər ki, 2015-ci ilin sonuna qədər manatı qorumaq mümkün olmayacaq. Yəni manat yenidən öz dəyərini, həm də ciddi şəkildə itirəcək.**

# Manata dekabr təhlükəsi-devalvasiyaya üç mühüm səbəb

## Neftin qiymətinin artmaması, valyuta ehtiyatlarının getdikcə azalması, Federal Rezerv Sisteminin də faiz dərəcəsini artıracağı ehtimalları devalvasiyanı qaçılmaz edir



Əksər ekspertlərin fikrincə, manatın devalvasiyası qaçılmazdır. Milli valyutanın ilin sonuna qədər dəyərini saxlaya biləcəyi sual altındadır. Neftin qiymətinin artmaması, valyuta ehtiyatlarının getdikcə azalması, Federal Rezerv Sisteminin də faiz dərəcəsini artıracağı ehtimalları devalvasiyanı qaçılmaz edir.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində manatın yüngül səviyyədə ucuzlaşması müşahidə olunmaqdadır:** "Artıq iki həftəyə yaxındır ki, bunu izləyirik. Manat psixoloji hədd olan rəsmi 1,05-lik həddi keçib. Bu günün rəsmi məzənnəsi artıq 1,520-dən üstündür və valyutadəyişmə məntəqələrində satışlarda artıq 1,06-ya yaxınlaşmaları görürük. Artıq yüngül də olsa, addım-addım bu prosesin başlanmasının şahidi olmuşuq. Mərkəzi Bankın son açıqlamalarında da görünür ki, valyuta ehtiyatlarının azalması davamlı şəkildə hər ay gedir. Əvvəlki aylardakı kimi hər ay 1 milyard və daha yüksək rəqəmlər olmasa da, vəsaitlər xərclənir. Artıq son açıqlamalarında da görünür ki, sentyabr və oktyabrda hər ay 300 milyon civarında azalmalar baş verib. Azalmanın sürəti artır. Ehtimallara görə, bu ay daha çox valyuta ehtiyatlarının xərclənməsi gözlənilir. Bu rəqəm yenə bir milyarda yaxınlaşa bilər. Bunun özü isə onu göstərir ki, Mərkəzi Bank yaxın zamanda öz ehtiyatları hesabına manatın məzənnəsinin hətta indiki səviyyədə saxlanmasını belə bacarmayacaq. Müəyyən müddətdən sonra üzən məzənnə adı altında devalvasiya başlanacaq. Dekabrın əvvəlində rəsmi rəqəmləri götürmək lazımdır. Hesablamalara görə, oktyabra nisbətən daha çox valyuta xərclənəcək. Artıq Mərkəzi Bankın manatı sabit saxlamağa gücü çatmayacaq. Müəyyən müddətdən sonra üzən məzənnə adı altında manat yenə ucuzlaşdırılacaq. Əslində ölkədə bunun üçün, yəni üzən məzənnəyə keçid üçün heç bir zəmin yoxdur. Çünki Azərbaycanda normal iqtisadi model qurulmayıb. Bu ad altında yüngül addımlarla hər gün, hər həftə atılacaq addımlarla tənzimlənən şəkildə Mərkəzi Bank manatın məzənnəsinin ucuzlaşdırılmasına gedəcək. Bu prosesin ilkin addımlarını biz görürük".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a bildirib ki, Mərkəzi Bankın valyuta ehtiyatları azalmaqdadır və bu, manatın devalvasiyasına gediləcəyinə ciddi əsas yaradır:** "Noyabr ayının nəticələri dekabrda elan olunacaq. Güman edirəm ki, azalma səngiyəcək bir qədər. Çünki əhalidə manat da azalıb. Dollara dəyişiləsi bir şey yoxdur. Buna görə də yəqin bu il devalvasiya olmaz. Düzdür, dekabrda böyük ehtimalla Federal Rezerv Sistemi faiz dərəcəsini artıracaq, nəticədə manat bir az ucuzlaşa bilər. Amma əsas yük gələn həftə olacaq. Çünki ilin əvvəlinə dövriyyədə manat artacaq. Bu da manatın dollara dəyişdirilməsi prosesini davam etdirə bilər".

**Ekspert Qubad İbadoğlu isə deyib ki, getdikcə manatı qorumaq çətinləşir:** "ABŞ-da iqtisadi artımla bağlı optimist gözləntilərin özünü doğrultması bütövlükdə dünya iqtisadiyyatında yeni tendensiyalar formalaşdırmaqdadır. Aşağı neft qiymətlərinin məcmu tələbə artırıcı təsiri, yumşaq monetar siyasət və davamlı olaraq aparılan liberallaşdırma siyasəti bu ölkədə iqtisadi artımı, məşğulluğu, deflyasiyanı və birbaşa xarici investisiyaları stimullaşdırır".

**Onun sözlərinə görə, ABŞ-ın Federal Ehtiyat Sistemi- FES bu il üçün 2 faizlik hədəf inflyasiyası elan edib. Proqnozlara görə, 2015-ci ildə ABŞ-a birbaşa xarici investisiyaların həcminin 11 faiz artaraq 1,4 trilyon dollara çatacağı gözlənilir. Bütün bu müsbət tendensiyalar ilk növbədə ABŞ dollarının beynəlxalq bazarlarda mövqeyini möhkəmləndirir:** "Bununla yanaşı, ABŞ FES Açıq Bazar Komitəsinin 15-16 dekabrda keçiriləcək növbəti toplantısında banklar üçün uçot dərəcəsinin yüksəldiləcəyi ilə bağlı ehtimallar digər valyutalara, o sıradan da manata olan təzyiqi biz az da artırır".

**Ekspertin sözlərinə görə, bundan başqa, Avropa Mərkəzi Bankının monetar genişlənmə proqramını davam etdirməsi avronun dollara nəzərən məzənnəsini aprel ayından sonra ən aşağı səviyyəyə salıb:** "Beləliklə də xarici valyuta bazarlarında müşahidə olunan dəyişikliklərdən Azərbaycan manatı da təsirlənməkdədir. Xüsusilə də son günlər ABŞ dollarının avroya nəzərən məzənnəsinin daha da möhkəmlənməsi Azərbaycanda nağd dollara tələbatı bir az da artırıb, həmçinin cəmi depozit bazasının valyutalar üzrə strukturunda bu ildən başlayan dəyişikliyi sürətləndirib".

**Ekspert qeyd edib ki, getdikcə zəifləyən manat yalnız daxili bazarın vəziyyətindən qaynaqlanan təsirlərə deyil, həm də xarici makroiqtisadi şoklara reaksiya verməkdədir:** "Nəticədə manata olan işgüzar inam gündən-günə azaldığından onu qorumaq Mərkəzi Banka getdikcə baha başa gəlməkdədir. Şübhəsiz ki, neft qiymətlərinin artması ehtimalının olmadığı yaxın illərdə valyuta bazarında müşahidə olunacaq şokları, sadəcə, valyuta rezervlərini xərcləməklə tənzimləmək perspektivi görsənmir. Yeni və təminatlı siyasət isə bütövlükdə iqtisadiyyatın, ayrıca isə valyuta bazarının liberallaşdırılması ola bilər. Milli iqtisadiyyat liberal bazar tənzimlənməsinə keçid nə qədər tez təmin olunarsa, bir o qədər də tez dövlətin xərci azala və manatın iqtisadi əsaslarla formalaşma dövrü başlaya bilər. Əks tədqirdə, nominal olaraq məzənnəsi qorunan, amma reallıqda dəyəri və iqtisadiyyatda rolu getdikcə aşağı düşən manatı xilas etmək mümkün olmayacaq. Bu sahədə islahatlar həm də hazırda qeyri-müəyyən şəraitdə gözləmə mövqeyində durub, yaxın gələcəkdə sabit və işgüzar rejimdə fəaliyyət göstərmək istəyən sərmayəçilər və sahibkarlar üçün də vacibdir".

❑ Röya RƏFİYEVA

# Ölkədə benzin istehsalı niyə azalıb?



**2015-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanda 1,02 milyon ton avtomobil benzini istehsal olunub ki, bu da 2014-cü ilin analoji dövründəki göstəricidən 0,3 faiz azdır.**

"Qafqazinfo" xəbər verir ki, Dövlət Statistika Komitəsinin 10 ayının yekunları üzrə hesabatında qeyd olunan bu faktı şərh edən enerji məsələləri üzrə ekpert, iqtisadçı İlham Şaban milli.az-a açıqlamasında bildirib ki, problem heç də ölkədə benzinə olan tələbatın azalması ilə bağlı deyil: "Benzinə tələbat necə azala bilər ki, ölkədə avtomobillərin sayı 40 min də artıb?! Benzin istehsalının azalmasının əsas səbəbi iyun ayında Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun fəaliyyətində yaranmış 28 günlük fasilə ilə əlaqədardır".

Bununla yanaşı, ekspert hesab edir ki, regionda olduğu kimi, ölkəmizdə də iqtisadi vəziyyət heç də tam ürəkaçan deyil. Bu səbəbdən insanlar qənaətə üstünlük verdiklərindən bir sıra məhsullara, o cümlədən yanacağa olan tələbatın da azalacağı istisna edilmir.

# İşıq borcu olanlara bəd xəbər

**İstifadə olunan elektrik enerjisinin haqlarını ödəməyənlərə heç bir güzəşt olunmayacaq.**

Bunu "Trend"ə açıqlamasında "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev deyib.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Onun sözlərinə görə, təmsil etdiyi qurumun elektrik enerjisi borcu ilə bağlı xəbərdarlığından sonra ödəmələrdə artım müşahidə olunur: "Buna baxmayaraq, hələ də borclarını ödəməyənlər var. Bizim güzəşt etmək səlahiyyətimiz yoxdur. Həm də niyə güzəşt olunsun ki?! Borc-borcdur, kim elektrik enerjisi işlədirsə, pulunu da ödəməlidir. Heç bir borc silinməyəcək. Bakı üzrə elektrik enerjisi haqları üzrə ödəmələr 97-98 faizə çatır. Amma nəzərə almaq lazımdır ki, "Azərişıq" ASC tək Bakıda fəaliyyət göstərmir. Biz çalışırıq ki, enerji haqları vaxtlı-vaxtında ödənilsin".

**T.Mustafayev borcların yaranma səbəbinə də toxunub:** "Borclar əsasən iyul və avqust aylarında yaranmış pullardır. Yay aylarında yığılan borcların ödənməsi sonra gecikdirilir. Bu isə borcların yaranmasına gətirib çıxarır".

Qeyd edək ki, bir neçə gün əvvəl "Azərişıq" ASC debütor borcu yaranmış abonentlərin elektrik enerjisi təchizatının noyabrın 23-də saat 12:00-dan etibarən müvafiq qanunvericiliyə uyğun qeyd-şərtsiz və fərdi qaydada dayandırılacağı barədə xəbərdarlıq edib.

Səhmdar cəmiyyətin xəbərdarlığında qeyd olunub ki, "Borc ödənilmədən şəbəkəyə özbaşına qoşulma"sı elektrik enerjisinin talanması və qanunsuz istifadə sayıldığından, belə hallara yol verildikdə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun ciddi tədbirlər görüləcək.

# Azərbaycan dərman istehsal edən müəssisələr yaradacaq



**"Yaxın zamanlarda Azərbaycanın dərman istehsalı müəssisələri olacaq". "Report"un xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında baş nazirin müavini Əli Əhmədov deyib.**

O bildirib ki, Azərbaycanda dərman istehsalının təşkil edilməsi və müvafiq qurumların yaradılması gündəmdə olan məsələlərdən biridir: "Çünki buna ehtiyac var və bunu da həyata keçirəcəyik. Təbii ki, Azərbaycanın dərman sektoru yalnız xaricdən idxal olunan dərmanlar hesabına özünü təmin edə bilməz. Bu istiqamətdə işlər aparılır".

YENİ MÜSAVAT

Son səhifə

N 262 (6290) 25 noyabr 2015

# Farsca bilən robot

İranlı alimlər tərəfindən hazırlanan "Surena III" adlı robotun ən yeni modeli mediaya təqdim edilib. Dörd il ərzində hazırlanan "Surena III" əşyaları əli ilə toplayır, tək ayağı üzərində dura bilir, cisimləri ayırd edir, insanların hərəkətlərini hiss edir. Təxminən bir insan boyda olan robotun hündürlüyü 1,90 santimetr, çəkisi 98 kiloqramdır. Tehran Universitetində çalışan professor Aqil Yusif Komanın liderliyi ilə hazırlanan robotun xəstəxana, araşdırma və istehsal sahəsində istifadə ediləcəyi güman edilir. Robotun iranlılarla çalışa bilməsi üçün ona fars dilində proqram yüklənib. "Surena" artıq fars dilində də danışa bilir.



## Soğanın faydaları



Soğan da sarımsaq kimi xoşagəlməz qoxuya malik olduğuna görə bir çoxumuzun yeməkdən imtina etdiyimiz qidalardandır. Amma soğanın mütəxəssislər tərəfindən tez-tez yeyilməsi məsləhət görülür. Soğan suyunun faydalarından biri də antiseptik olmasıdır. O, bakteriyalara qarşı bədənin müqavimətini gücləndirir, qan təzyiqini normallaşdırır və bəzi xərçəng növlərinə qarşı təbii vasitədir. Araşdırmalara görə, qırmızı soğan suyu qida zəhərlənməsinə və stressə bağlı mədə ağrılarını sakitləşdirir.

Müntəzəm olaraq soğan yemək mədə xərçəngi riskini azaldır. Həmçinin araşdırmalara görə, soğan antioksidan təsirə malik olduğundan qaraciyər və xərçəngə qarşı təbii müalicəvi vasitədir. 32 ölkə arasında aparılan araşdırmalara görə, yemək qəbulu zamanı daha çox soğan yeyən ölkələrdə prostat xərçəngi səbəbindən dünyasını dəyişənlərin sayı azdır. Məsələn, İngiltərədə prostat xərçəngi səbəbindən baş verən ölümlər çoxdur, bu ölkə soğan istifadəsinin daha az olduğu ölkələr sırasındadır. Soğan suyunda olan "Quercetin" adlı komponent allergiyanın qarşısını alır. Soğan suyunun tərkibində olan komponentlər nəticəsində allergiyaya qarşı həssaslığı aradan qaldırır.

## Aldadılan qadından ağır intiqam

İngiltərənin Uneaton qəsəbəsində yaşayan Craig Arnolds Nyu-Yorkdan işgüzar səfərdən evinə qayıtdığı zaman həyatının şoku ilə qarşılaşıb. C.Arnoldsun evdə qoyub getdiyi telefon həyatının alt-üst olmasına səbəb olub. Belə ki, Arnoldsun həyat yoldaşı olan Laura ərinin telefonuna tanımadığı nömrələrdən zənglər gəldiyini görüb və ondan şübhələnib. Ərinin telefonuna baxdığı zaman italyan qadın ona Nyu-Yorkda yaşayan bir qadından əxlaqsız mesajlar gəldiyini görüb. Ərinə heç bir söz deməyən 42 yaşlı qadın onun Nyu-Yorka getməsini gözləyib. Lauranın sözlərinə görə, ərinin xəyanətindən xəbər tutduqdan sonra valideynlərinin ona aldıqlarını satmaq üçün elan verib. 2 həftə ərzində isə evi tələbələrə satıb. Əri gəldiyi zaman evində 6 nəfər tələbə olduğunu və evinin əşyalarının dəyişdiyini görüb. Arvadının intiqamı qarşısında şoka düşən C.Arnolds belə bir şeylə qarşılaşacağını ağlına belə gətirmədiyini, bir daha italyan qadınla evlənməyəcəyini deyib.



## Elektron siqaret ağzında partladı



Amerikada siqareti tərgitmək istəyən şəxs elektron siqaret çəkmək qərarına gəlib. Amma bu dəfə faciə ilə üzləşib. Elektron siqaretin ağzında partlaması nəticəsində onun boynu qırılıb. Beləcə, Koloroda şəhərində yaşayan 29 yaşlı Kordero Çaplesin siqaretdən qurulmaq istəyi ona baha başa gəlib. İş yerində istirahət zamanı bayıra çıxan Kordero elektron siqaretini çəkməyə başlayıb. Elektron siqaretdən duman çıxdığı anda partlayıb. Partlama nəticəsində kişinin boynu qırılıb, ön dişləri və dodaqları parçalanıb. Amerika mediasında yayılan məlumata görə, Kordero onurğasından əməliyyat edilib, hazırda səhhəti yaxşıdır. 1 uşaq atası olan kişinin ölümdən döndüyü deyilir.




QOÇ - Çoxdan bəri nəzərdə tutduğunuz ideyaları nəhayət ki, həyata keçirməyi bacaracaqsınız. Amma bu istiqamətdə təkbaşına hansısa addımı atmayın. Qəlbinizə yaxın adamlarla bir araya gəlin.

BUĞA - Günün ilk yarısını oturaq şəraitdə keçirməyiniz məsləhətdir. Onsuz da qeyri-adi hansısa uğurunuz gözlənilmir. Saat 14-dən sonra isə hər şey ürəyinizcə olacaq, özünüzə güvənin.

ƏKİZLƏR - İkitərəfli əməkdaşlığa, yeni layihələrin müzakirəyə çıxarılmasına çalışmaq üçün çox düşərlidir. Heç kimə şübhə ilə yanaşmayın. Aktiv olun və inanın ki, aldadılmayacaqsınız.

XƏRÇƏNG - İlk öncə qarşılıqlı münasibətlərdə mövcud olan gərginliyi aradan qaldırmağa çalışın. İstər ailə-sevgi, istərsə də həmkarlarla davranışları mülayimləşdirin. Uzaq yola çıxmayın.

ŞİR - Başınızı iş-güclə o qədər qatmısınız ki, insanlarla davranışlarınız, həmçinin ailə-sevgi münasibətləriniz arxa plana keçməyə başlayıb. Daha mənalı yaşamaq üçün bu qüsurları dəf edin.

QIZ - Əsas gücünüzü fəaliyyətə yönəldin. Perspektivli pul sövdələşmələrini qətiyyən təxirə salmayın. Nahardan sonra isə istənilən işgüzar sövdələşmədə ehtiyatlı olmağa çalışın.

TƏRƏZİ - Yaxşı olar ki, bu təqvimdə yalnız adi işlərlə məşğul olasınız. Çünki istənilən risk və yeniliyə cəhd uğursuzluqla nəticələnə bilər. Günorta saatlarında müəyyən qədər gəlir gözlənilir.

ƏQRƏB - Əgər sağlıq durumunuz imkan verirsə, fəallığı artırmağa dəyər. Təcrübəli insanların məsləhətlərindən yararlanın. İdeyalar verməyi daha çox öz üzərinizə götürün.

OXATAN - Orqanizminizdə baş qaldıran nasazlıq bəzi planlarınızın icrasına əngəl yarada bilər. Amma reallığı nəzərə alsanız, saat 15-18 aralığında uğurlara yetişə bilərsiniz.

OĞLAQ - Günün ilk yarısında mənəvi səhvlər törətməkdən çəkinsəniz, qalan müddətdə hər hansı problemlə üzləşməyəcəksiniz. Saat 15-17 aralığı çox uğurlu hadisələr gözlənilir.

SUTÖKƏN - Humanist bürc olsanız da, Göy qübbəsi bu gün hisslərinizi idarə etməkdə zəif olacağınızı bəyan edir. Bu yerdə mütləq təmkin göstərməli, bədxahlara əhəmiyyət verməməlisiniz.

BALIQLAR - Havalar münasib olduğundan astroloji göstəricilər nəzərdə tutduğunuz təqdirdə uzaq yola çıxmağı tövsiyə edir. Amma gərək sağlıq durumunuzu da nəzarətdə saxlayasınız. Təmiz havada çox olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Papadan möcüzəli öpüş



Katolik dünyasının ruhani lideri Papa Fransiskin başından öpdüyü xəstə uşağın sürətlə sağaldığı iddia edilib. Amerikanın "CBS" televiziyasının xəbərinə görə, 1 yaşlı uşağın beynində uzun müddətdir şiş var imiş. Lakin həkimlər onu əməliyyat etməyin mümkün olmadığını deyiblər. Papa uşağın başından öpdükdən sonra onun xəstəliyinin sürətlə azaldığı deyilir. Giannanın anası Kristen Masciantonio deyib: "Papanın öpüşü bir möcüzə idi. Hazırda daha yaxşı və daha güclüdür. Ətraflara öpüşlər saçır. Analiz nəticələri isə ən böyük isbatdır".

Amerika ziyarəti zamanı Pensilvaniya ştatının Filadelfiya şəhərini ziyarət edən Papa Giananın xəstə olduğunu öyrəndikdən sonra balaca uşağın başından öpmüşdü.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300